Xalqın qəzeti!

# Xalq qəzeti

№ 212 (30906) 3 oktyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Azərbaycan lideri “Avropa Siyasi Birliyi” zirvəsində

### Prezident İlham Əliyevin Danimarkaya işgüzar səfəri

## Kopenhagendə Moldova Prezidenti ilə görüş

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kopenhagendə Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.**

Dövlətimizin başçısı Moldovada keçirilmiş parlament seçkilərində Maya Sandunun rəhbərlik etdiyi hakim Fəaliyyət və Həmrəylik Partiyasının qələbə qazanması münasibətilə təbriklərini çatdıraraq, bu seçkilərin Moldova xalqının iradəsini əks etdirdiyini dedi.

Moldova Prezidenti təbriklərə görə təşəkkürünü ifadə etdi. O da öz növbəsində Vaşinqtonda Ermənistanla Azərbaycan arasında Amerika Birləşmiş Ştatlarının şahidliyi ilə sülh gündəliyi üzrə əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələrin tarixi əhəmiyyət kəsb etdiyini bildirdi.

Görüşdə ikitərəfli münasibətlərimizin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, xüsusilə də enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı.

Prezident Maya Sandu Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd etdi.





## Azərbaycan üçün uğurlu, Avropa üçün ağrılı sammit

*“Avropa Siyasi Birliyi”nin Kopenhagen Zirvə toplantısında təhlükəsizlik məsələlərinə qitənin aparıcı dövlətlərinin liderləri fərqli yanaşma sərgilədilər*



**“Avropa Siyasi Birliyi”nin (ASB) 7-ci Zirvə toplantısının gündəliyində duran məsələlər özünün operativliyi və vacibliyi ilə seçilirdi. ASB-nin budəfəki toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirdi. Plenar iclaslarda və ondan sonra keçiriləcək dəyirmi masalarda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya–Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi aktual mövzular müzakirə olundu.**

(ardı 7-ci səhifədə)

## İrəvanda “daxili və xarici düşmən” kabusu dolaşır

*Bu ölkənin sakinləri hətta öz diaspor təşkilatlarının üzvlərinə şübhə ilə yanaşırlar*



**Əhalisi cəmi 3 milyon civarında olsa da, Ermənistan xaricində yaşayan hayların sayı bundan dəfələrlə çoxdur. ABŞ, Rusiya, Fransa, Suriya, Livan, Kanada və digər ölkələrdə erməni diasporları mövcuddur. Onların çox az qismi repatriasiya, yəni Ermənistanda yaşamaq barədə düşünür. Bəs nə üçün bu qədər geniş bir diaspor “vətəninə” yalnız uzaqdan “sevgi” göstərməklə kifayətlənir? Səbəblər müxtəlifdir.**

Birincisi, bu, ölkədəki qeyri-sabitliklə bağlıdır. Bunun da əsas qaynaqlarından biri Ermənistanın on illər boyu Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətidir. Məhz bunun nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğalda qalmış, bir milyon azərbaycanlı doğma torpaqlarından didərgin salınmışdı. Bundan əlavə, dünya ermənilərinin əhəmiyyətli hissəsi Ermənistan hakimiyyətinin avtoritar idarəçilik üslubuna etimad göstərmir. Onların tənqidləri də ikili standartlarla doludur. Çünki bu ölkədə demokratik institutlar, söz və fikir azadlığı kosmetik şəkildə mövcuddur. İstər Levon Ter-Petrosyan, istərsə də sonrakı prezidentlərin dövründə müxalifətə təzyiqlər, azad mətbuatın boğulması, seçkilərin ədalətli keçirilməməsi beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə sənədləşdirilib. Elə indiki hakimiyyətin dövründə də ölkədə qeyri-sabitlik hökm sürür. Bu səbəblərdən ölkədən kənarda yaşayan ermənilər üçün Hayastanda məskunlaşmaq perspektivi təhlükəli görünür.

(ardı 7-ci səhifədə)

## Fransada hakimiyyət böhranı

*Baş nazir Lekornu ölkədə qarşıdurmanı dərinləşdirir*



**Fransa yenidən siyasi fırtınaların girdabına yuvarlanır. Parisin küçələrindən tutmuş Senat və Milli Assambleyaya qədər siyasi gərginlik hökm sürür. Yeni hökumətin proqramı ətrafında yaranan mübahisələr, populist partiyaların meydan oxuması və sosial narazılıqlar ölkəni həm daxildə, həm də beynəlxalq aləmdə qeyri-sabitliyə sürükləyir. Belə bir şəraitdə “Milli Birlik” Partiyası parlament fraksiyasının rəhbəri Marin Le Penin ölkənin baş naziri Sebastian Lekornu barədə LCI kanalına müsahibəsi geniş rezonans doğurub.**

(ardı 7-ci səhifədə)

## “Qafqaz üçlüyü”: yaxın 10 ilin siyasi mənzərəsi




Səhifə ⇨ 8

## Azərbaycan Orta Dəhlizin döyünən ürəyidir

**Almatıda keçirilən “Yeni İpək Yolu” VII Beynəlxalq Nəqliyyat və Logistika Biznes Forumu regional nəqliyyat xəritəsinin növbəti anonsudur. Forumda Azərbaycanın iştirakı, əldə olunan razılaşmalar Orta Dəhlizin işləkliyini və etibarlılığını yeni səviyyəyə qaldırmağa imkan verən konkret addımlar kimi tarixə yazıldı.**

(ardı 12-ci səhifədə)

## Sabitlik üçün sonuncu maneə



Səhifə ⇨ 6

# Azərbaycan Prezidenti İlham Əliyevin Danimarkaya işgüzar səfəri

## Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi

### *Azərbaycan Prezidenti İlham Əliyev məclisdə iştirak edib*



**Oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Danimarkanın Baş naziri Mette Frederiksen Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.

Qeyd edək ki, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Plenar iclaslarda və ondan sonra keçiriləcək dəyirmi masalarda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olunur.

"Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

## Azərbaycan lideri "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyasında







**Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sonra tədbirin iştirakçıları birgə foto çəkdiriblər.

## İtaliya Nazirlər Şurasının sədri ilə söhbət



**Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü olub.**

Görüşdə Azərbaycanla İtaliya arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyi bildirildi və bu xüsusda bir neçə gün əvvəl İtaliya Prezidentinin Azərbaycana uğurlu rəsmi səfəri, səfər çərçivəsində Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı qeyd olundu.

Söhbət zamanı Azərbaycan ilə İtaliyanın enerji sahəsində uğurlu əməkdaşlığına toxunuldu, ölkəmizin İtaliyanın enerji təhlükəsizliyinə töhfəsi vurğulandı. Ölkələrimiz arasında investisiyalar, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu.

## Ukrayna Prezidenti ilə müzakirə

**Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.**



Ukrayna Prezidenti Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev sülh gündəliyinin irəliyə aparılması istiqamətində atılmış addımların tarixi əhəmiyyət kəsb etdiyini dedi. Dövlətimizin başçısı regionda davamlı sülhün təmin olunması üçün Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Görüşdə Azərbaycanın Ukraynaya humanitar dəstəyi, xüsusilə də ukraynalı uşaqlara göstərilən diqqət və qayğı qeyd olundu. Ukrayna tərəfi buna görə təşəkkürünü bildirdi.

Söhbət zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Baş nazir Nikol Paşinyanla dialoqu



**Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.**

Görüşdə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayıblar. Onlar Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bir daha təsdiq ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri regionda nəqliyyat kommunikasiyalarının faydalarını vurğulayıb, Azərbaycan ərazisində infrastrukturun inkişafı ilə bağlı cari işlərin gedişatı və Ermənistan ərazisində TRIPP layihəsini müzakirə edib, Vaşinqton Bəyannaməsinin icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər bu xüsusda ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların ləğv olunması ilə bağlı yekdilliklə qəbul edilmiş qərarı alqışlayıblar.

Görüşdə tərəflər etimad quruculuğu tədbirlərinin bundan sonra da həyata keçirilməsinin vacibliyini vurğulayıb və təmasları davam etdirmək barədə razılığa gəliblər.

## Avropa İttifaqı Şurasının və Avropa Komissiyasının prezidentləri ilə görüş





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub.**

Görüşdə Antonio Koşta və Ursula Fon der Lyayen dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik etdilər, bunun regionda davamlı sülhün təmin olunmasına xidmət edəcəyinə ümidvarlıqlarını bildirdilər. Antonio Koşta və Ursula Fon der Lyayen sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildirdilər. Onlar, həmçinin regionda nəqliyyat bağlantılarının inkişafının Avropa İttifaqı üçün mühüm istiqamət olduğunu dedilər.

Görüşdə Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunuldu, 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq Azərbaycanın Avropanın qaz bazarına ixracının həcminin artdığı bildirildi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi və sülh gündəliyi ilə bağlı nailiyyətlərin bütün region, o cümlədən Ermənistan və Azərbaycan üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi. Prezident İlham Əliyev həm Ermənistanın, həm də Azərbaycanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını qeyd etdi və ölkəmizin sülh gündəliyinin irəli aparılması üçün səyləri davam etdirəcəyini vurğuladı.

Prezident İlham Əliyev hazırda Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövlətinin Azərbaycan qazını aldığını bildirdi və bunun Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın Orta Dəhlizin inkişafında oynadığı rolu qeyd edərək, ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışdı və hazırda Mərkəzi Asiyadan Azərbaycan ərazisindən nəqliyyat daşımalarının həcminin artdığını bildirdi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişaf etdirilməsi və yeni səviyyəyə qaldırılması üçün yaxşı imkanların olduğu vurğulandı.

# Azərbaycan Prezidenti İlham Əliyevin Danimarkaya işgüzar səfəri

## Azərbaycan Prezidentinin Niderlandın Baş naziri ilə dialoqu



**Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşü olub.**

Niderlandın Baş naziri Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələrlə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdıraraq, bunun mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Prezident İlham Əliyev də öz növbəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistanla Azərbaycan arasında imzalanmış Vaşinqton Bəyannaməsinin və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına dair sənədin regional sülh baxımından əhəmiyyətinə toxundu, iki ölkə arasında artıq sülhün mövcud olduğunu qeyd etdi.

Görüşdə Niderland şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi vurğulandı, bunun gəmiçilik, limanların qurulması, elektrik sənayesi, kənd təsərrüfatı, şəhərsalma və digər sahələri əhatə etdiyi qeyd olundu.

Söhbət zamanı Azərbaycanla Niderland arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Niderlandın Baş naziri ölkəmizdə COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı və həmin tədbir çərçivəsində beynəlxalq iqlim gündəliyi ilə əlaqədar ciddi nəticələrin əldə olunduğunu qeyd etdi.

## Azərbaycan və Fransa prezidentlərinin görüşü





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Fransa Respublikasının Prezidenti Emmanuel Makron ilə görüşü olub.**

Fransa Prezidenti Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə əlaqədar nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələrin regional sülh gündəliyinin irəli aparılması üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğuladı. Dövlətimizin başçısı hazırda sülh gündəliyinin irəliyə aparılması üçün müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd etdi.

Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri cənab Şavkat Mirziyoyevə

**Hörmətli Şavkat Miromonoviç!**
**Əziz Qardaşım!**

Sizi və Sizin simanızda qardaş Özbəkistan xalqını Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında əlamətdar ildönümü – diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə ürəkdən təbrik etməkdən və ən səmimi arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Diplomatik əlaqələrimiz otuz illik tarixə malik olsa da, qardaş xalqlarımızın əsrlərdən-əsrlərə və nəsillərdən-nəsillərə keçən birlik, həmrəylik, qarşılıqlı hörmət və dəstək ənənələri mövcuddur. Ortaq soy-kök, tarix, dil, mədəniyyət, dini-mənəvi dəyərlər və qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Özbəkistan dövlətlərarası münasibətlərinin ötən dövr ərzində dinamik inkişaf edərək ali səviyyəyə – müttəfiqlik pilləsinə yüksəlməsi xüsusi məmnunluq doğurur. Keçən il imzaladığımız Müqavilə iki müstəqil, güclü, suveren dövlətimiz arasında təbii müttəfiqliyi rəsmiləşdirən və əbədiləşdirən mühüm tarixi sənəddir. Azərbaycan-Özbəkistan birliyinin və tərəfdaşlığının möhkəmlənməsində və bu səviyyəyə çatmasında Sizin müstəsna rolunuzu və xidmətlərinizi xüsusi vurğulamaq istərdim.

Bu gün Özbəkistan təkcə regionda deyil, həm də beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış ölkədir. Sizin qətiyyətli rəhbərliyinizlə bütün sahələrdə həyata keçirilən möhtəşəm dəyişikliklərin, sosial-iqtisadi inkişafın, ölkənin iqtisadi potensialının güclənməsinin, qlobal arenada imicinin ildən-ilə artmasının şahidi olmaqdan qardaş ölkə olaraq böyük fərəh hissi duyuruq.

Azərbaycan-Özbəkistan əlaqələri çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir. Ölkələrimizin siyasi, iqtisadi, ticari, sənaye, enerji, nəqliyyat-logistika, təhlükəsizlik, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığının gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi sevindirir. İkitərəfli əməkdaşlıq zəminində qısa müddət ərzində əldə etdiyimiz misilsiz nailiyyətlər ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına, regionumuzda əməkdaşlığa, ümumi firavanlığa və sabitliyə töhfə verir.

Özbəkistanın beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyini və ədalətli mövqeyini Azərbaycan xalqı heç zaman unutmur. Sizin azad olunmuş ərazilərimizə dəfələrlə səfər etməyinizə, Füzulidə özbək xalqının böyük oğlu – Mirzə Uluqbəyin adını daşıyan məktəbin inşasına, Xankəndidə birgə tikiş müəssisəsinin yaradılmasında dəstəyinizə və ikitərəfli əlaqələrimizin dərinləşməsinə xidmət edən digər təşəbbüslərinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Biz bunu qardaş Özbəkistanın Qarabağın bərpasına verdiyi dəstəyin, eyni zamanda həmrəyliyimizin, qardaşlığımızın parlaq rəmzi olaraq dəyərləndiririk.

İkitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində ölkələrimizin birgə fəaliyyəti təqdirəlayiqdir. Azərbaycan ilə Özbəkistan arasında beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlıq uğurla davam edir. Regional və beynəlxalq məsələlərə ortaq baxışlarımız, ümumi məqsədlərimiz və istəklərimiz, o cümlədən üzləşdiyimiz çağırışların həlli istiqamətində bir-birimizə verdiyimiz dəstək xalqlarımızın maraqlarına, dövlətlərimizin mənafelərinə xidmət edir.

Hazırda Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionları vahid geosiyasi regiona çevrilməkdədir. Bu coğrafi müstəvidə gedən müsbət proseslərdə, əlbəttə ki, Azərbaycan ilə Özbəkistan arasında möhkəm əlaqələrin və səmərəli əməkdaşlığın mühüm rolu vardır.

Əziz Qardaşım,

Füsunkar ölkənizə həyata keçirdiyim hər səfərimdə mənə göstərilən xüsusi diqqət və qonaqpərvərliyi, əsl qardaşlıq münasibətini yüksək qiymətləndirir, Sizinlə mehribanlıq və səmimiyyət şəraitində keçən görüşlərimizi ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, bir-birinə qırılmaz tellərlə bağlı olan qardaş xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan Azərbaycan-Özbəkistan dövlətlərarası münasibətlərinin xoş ənənələrini yaşatmaq və möhkəmləndirmək, müttəfiqliyimizi dərinləşdirmək yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizi bu əlamətdar tarixi ildönümü münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 sentyabr 2025-ci il**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**
**Əziz qardaşım!**

Zati-aliləri, əvvəlcə Sizi və qardaş Azərbaycan xalqını Özbəkistan ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının mübarək 30 illiyi münasibətilə səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram.

Xüsusilə qeyd etmək istərdim ki, ötən dövrdə əməkdaşlığımızın salnaməsi yaddaqalan hadisələrlə zəngin olmuş, bütün sahələrdə əlaqələr ardıcıl şəkildə inkişaf etmişdir. Əhatəli və uzunmüddətli münasibətlərimizi hərtərəfli möhkəmləndirməyə yönəlmiş hüquqi baza və səmərəli institusional mexanizmlər, çoxtərəfli formatlar yaradılmışdır.

Şübhəsiz ki, Özbəkistan ilə Azərbaycan arasında mövcud olan ortaq qardaşlıq, bizi birləşdirən möhkəm dostluq bağları, müntəzəm xarakter almış ali səviyyəli səmərəli dialoqlarımız qardaş xalqlarımızın ümumi tərəqqisinə xidmət etməkdədir.

Xüsusilə son illərdə dövlətlərarası münasibətlərimizin tamamilə yeni tarixi mərhələyə, müttəfiqlik səviyyəsinə yüksəlməsi qəti siyasi iradəmizin və birgə ardıcıl səylərimizin parlaq praktik ifadəsi kimi dəyərləndirilə bilər.

Hörmətli İlham Heydər oğlu, əminəm ki, qarşılıqlı etimad və hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığımız bütün prioritet istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat, logistika, energetika, sənaye, kənd təsərrüfatı, turizm və mədəniyyət sahələrində bundan sonra da sürətlə inkişaf edəcəkdir.

Şübhəsiz ki, Zati-alinizlə cari ildə həm Azərbaycanda, həm də Özbəkistanda keçiriləcək bir sıra mühüm görüşlərimiz təkcə ikitərəfli münasibətlərimizin perspektivləri üzrə deyil, həm də regional tərəfdaşlığın ən aktual məsələlərə dair ətraflı fikir mübadiləsi aparmaq üçün əlverişli imkan yaradacaqdır.

Çoxşaxəli əlaqələrimizin salnaməsindəki bu əlamətdar gün münasibətilə Zati-alinizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, ailə səadəti, son dərəcə məsuliyyətli dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, rifah və davamlı tərəqqi arzulayıram.

**Səmimi ehtiramla,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

## Azərbaycan–Yaponiya siyasi məsləhətləşməsi



**Oktyabrın 2-də Bakıda Azərbaycan ilə Yaponiya Xarici İşlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib.**

Nümayəndə heyətinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, Yaponiya tərəfindən isə Xarici İşlər Nazirliyinin Avropa bürosunun Baş direktorunun müavini, Mərkəzi Asiya, Qafqaz və GUAM üzrə xüsusi nümayəndə Masaki İşikava başçılıq ediblər.

Siyasi məsləhətləşmələr zamanı siyasi, iqtisadi, investisiya, ticarət, təhsil, mədəniyyət, humanitar, enerji, ekologiya, iqlim, turizm və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

***XQ***

## BTQ-nin beynəlxalq nüfuzu artır

**Bakı Təşəbbüs Qrupu daha bir mühüm uğur qazanıb. Belə ki, qurumun hazırladığı hesabat BMT Baş katibinin 2025-ci il üzrə təqdim etdiyi "Afrikamənşəli insanların beynəlxalq ikinci onilliyinin həyata keçirilməsi üzrə fəaliyyət proqramı"na dair hesabatda öz əksini tapıb.**

Sənəddə BTQ dekolonizasiya və kiçik adalarda yaşayan xalqların müstəqilliyi istiqamətində fəaliyyət göstərən qlobal vətəndaş cəmiyyətləri arasında yeganə QHT kimi qeyd olunub.

BTQ-nin hesabatında əksini tapan fəaliyyətlər sırasında 2025-ci il yanvarın 21-də keçirilmiş "Reyunyon adasının müstəqilliyi: Fransanın müstəmləkə irsinin yenidən qiymətləndirilməsi və suverenliyə gedən yol" adlı beynəlxalq konfrans, fevralın 24-26-da Fransa və Niderland müstəmləkələrində çalışan jurnalistlərin iştirakı ilə təşkil olunmuş Beynəlxalq Mediatur, eləcə də aprelin 15-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında keçirilmiş "Dekolonizasiya: Səssiz İnqilab" adlı beynəlxalq konfrans yer alıb.

Bu beynəlxalq tədbirlər BTQ-nin dekolonizasiya və insan hüquqları sahəsindəki fəaliyyətlərinin geniş ictimaiyyətə təqdim olunmasına mühüm töhfə verib. Təşkilatın icraçı direktoru Abbas Abbasov və müstəmləkə altında olan ərazilərin nümayəndələri BMT Baş Assambleyasında Afrikamənşəli İnsanların Daimi Forumunun dördüncü sessiyasında çıxış ediblər.

***XQ***

# Milli Məclisin sədri “Böyük iyirmilik” ölkələri Parlament Sədrlərinin Sammitində







**Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti "Böyük iyirmilik" (G20) ölkələrinin Parlament Sədrlərinin 11-ci Sammitində (P20) iştirak etmək üçün Cənubi Afrika Respublikasının Keyptaun şəhərində işgüzar səfərdədir.**

Tədbir çərçivəsində Milli Məclisin sədri Birləşmiş Krallıq Parlamentinin İcmalar Palatasının sədri Ser Lindsi Hoyl, Sinqapur Parlamentinin sədri Seah Kian Penq, Avstraliya Parlamentinin Nümayəndələr Palatasının sədri Milton Dik ilə görüşüb.

Söhbətlərdə sammitin əhəmiyyəti vurğulanıb, həmçinin ölkələrimiz və parlamentlərimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb.

*

**Milli Məclisin sədri Sahibə Qafarova səfər çərçivəsində İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol ilə də görüşüb.**



Milli Məclisin sədri özünün bu ilin mayında İspaniyaya ilk rəsmi səfərini və Deputatlar Konqresinin sədri ilə görüşünü xatırlayaraq, qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı imkanlar yaratdığını, bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin inkişafına töhfəsini qeyd edib.

Söhbət zamanı qanunvericilik orqanlarımız arasında münasibətlərin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin parlament nümayəndə heyətləri arasında təmasların əlaqələrimizə müsbət töhfə verə biləcəyi qeyd edilib.

Sahibə Qafarova regionda mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında sülh prosesi, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verib.

***XQ***

# Azərbaycan Prezidentinin Kopenhagen səfəri Gürcüstan portalında

**Gürcüstanın aparıcı ictimai televiziyası – “1Tv.ge”nin informasiya portalında Azərbaycan Prezidenti İlham Əliyevin Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşündən material yayıb.**



Azərbaycan və gürcü dilində yayımlanan xəbərdə dövlətimizin başçısının Azərbaycan ilə Ermənistan arasındakı sülh razılaşmasına dair fikirləri əksini tapıb.

Prezident İlham Əliyevin nitqindən gətirilən sitatda deyilir ki, sülh gündəliyi ilə bağlı nailiyyətlər bütün region, o cümlədən Ermənistan və Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev həm Ermənistanın, həm də Azərbaycanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını qeyd edib və ölkəmizin sülh gündəliyinin irəli aparılması üçün səyləri davam etdirəcəyini vurğulayıb.

# Azərbaycan–Özbəkistan parlamentlərarası dostluq və əməkdaşlıq müzakirəsi




**Oktyabrın 2-də Azərbaycan və Özbəkistan parlamentlərindəki qarşılıqlı dostluq qruplarının onlayn görüşü keçirilib.**

Yüksəksəviyyəli əlaqələrin parlament müstəvisində də uğurla davam etdirildiyini deyən Milli Məclisin Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov parlamentlərimiz arasındakı səmərəli əməkdaşlıq münasibətləri, parlamentarilərimizin beynəlxalq təşkilatlarda və digər platformalarda birgə fəaliyyəti barədə fikirlərini bölüşüb.

Özbəkistan Ali Məclisinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun həmsədrləri – senator Odiljon Mamatkarimov və deputat Alişer Kodirov dövlət başçılarımızın siyasi iradəsi sayəsində möhkəm dostluq və qardaşlıq üzərində qurulan Azərbaycan-Özbəkistan münasibətlərinin genişləndirilməsi, bu istiqamətdə parlamentlərimizin verə biləcəyi töhfələr barədə danışıblar.

***XQ***

# Konstitusiya Məhkəməsi Plenumunun iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında qərar qəbul edilib

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Konstitusiyasının 71-ci maddəsinin I və X hissələri və 80-ci maddəsi baxımından Cinayət Məcəlləsinin 12.1 və 12.5-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim R.Quliyevin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmənin Cinayət Kollegiyası, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspertlər - Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor A.Rüstəmzadənin rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Konstitusiyasının 71-ci maddəsinin I və X hissələrinə və 80-ci maddəsinə, qanunçuluq və hüquqi müəyyənlik prinsiplərinə, Cinayət Məcəlləsinin 5.1 və 12.5-ci maddələrinə, habelə Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən həmin Məcəllənin 12.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə xarici ölkənin ərazisində törətdikləri cinayətə görə cəzanın aşağı həddi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələri ilə müəyyən edilməlidir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

***XQ***

# Heydər Əliyev Fondu tərəfindən Samuxda inşa olunan yeni məktəb binası istifadəyə verilib



**Heydər Əliyev Fondu tərəfindən Samux rayonunun Alıuşağı kəndində yeni inşa olunan tam orta məktəb binası istifadəyə verilib.**

Bu münasibətlə keçirilən mərasimdə dövlət tərəfindən təhsilə göstərilən diqqət və qayğıdan söz açılıb. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik






etdiyi Heydər Əliyev Fondunun təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn layihələrinin əhəmiyyətindən, bu layihələrin paytaxtla yanaşı, regionları da əhatə etməsindən bəhs olunub.

Diqqətə çatdırılıb ki, 70-dən artıq yaşı olan Samux rayon Alıuşağı kənd Mirzə Fətəli Axundov adına tam orta məktəbin yenilənməsinə ehtiyac var idi. Belə ki, 1953-cü ildə inşa olunan təhsil ocağı ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondu tərəfindən 2024-cü ildə üçmərtəbəli, 4 korpusdan ibarət yeni məktəb binasının inşasına başlanılıb. Burada sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika, STEAM mərkəzi, hərbi təlim, tibb, əmək təlimi otaqları, eləcə də məktəbəqədər sinif otağı, kitabxana, yeməkxana, akt və idman zalları qurulub, məktəbin ərazisində açıq idman meydançası yaradılıb.

Məktəbin direktoru Musa Əsədov bildirib ki, yeni binanın inşası kollektiv üçün ən böyük hədiyyədir. “Müasir tələblərə cavab verən məktəbimizin olması bizi ruhlandırır. İnanırıq ki, məktəbimizin nəticələri bundan sonra daha da yaxşı olacaq”, - deyə məktəbin direktoru qeyd edib.

***XQ***

# III MDB Oyunlarını işıqlandıran jurnalistlər Şuşa və Xankəndidə



**Azərbaycanın ev sahibliyi etdiyi III MDB Oyunları çərçivəsində Şuşa və Xankəndi şəhərlərinə mediatur təşkil edilib.**

Mediatur zamanı 60-dan çox xarici və yerli media nümayəndəsi əvvəlcə Şuşanın tarix-mədəniyyət abidələri ilə - Mərkəzi meydan, Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı, Qala qapıları, Yuxarı Gövhər Ağa məscidi və Cıdır düzü ilə tanış olublar. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşları onlara şəhərin tarixi, abidələri və təbiəti barədə məlumat veriblər.

Media nümayəndələri Şuşadan sonra Xankəndi şəhəri ilə tanış olub, III MDB Oyunlarının keçirildiyi Xankəndi şəhər stadionunda kamandan oxatma yarışlarını izləyiblər.

***XQ***



# İrəvanın anti-KTMT xətti yenidən gündəmdədir

## *Yaxud parlament seçkiləri və Rusiyaya qarşı təbliğat amili*

**Görünür, Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya bir neçə gün əvvəlki səfəri, o cümlədən səfər gedişində onun Prezident Vladimir Putinlə görüşməsi heç bir nəticə verməyib. Bunu əvvəlcə Nikolun ölkəsinin Avropa İttifaqına qoşulmaq yolunda çoxdandır səsləndirmədiyi inamlı ritorikanı yenidən gündəmə gətirməsindən anlamaq mümkün idi. İkinci məqam isə rəsmi İrəvanın Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qarşı demarşıdır. Yeri gəlmişkən, bu da xeyli vaxtdır nəzərə çarpmırdı.**

Beləliklə, baş nazir Paşinyan yenidən anti-KTMT kursuna start verib. Ümumən, 2022-ci ildən Ermənistanın üzv olduğu bu təşkilatla münasibətləri soyuqdur. Həmin il erməni iqtidarının təmsilçiləri qurumu “Azərbaycanın təcavüzünə cavab verməməkdə”, susqunluqda günahlandırmış, həmçinin, təşkilatın təhlükəsizlik təminatlarının qeyri-qənaətbəxşliyini vurğulamış və faktiki olaraq, yeni təhlükəsizlik çətiri tapmaq axtarışına çıxacaqlarını açıqlamışdılar.

Aydın idi ki, Paşinyan hakimiyyəti Rusiyanı günahlandırmaq üçün bəhanə tapıb. Necə deyərlər, məqsəd vasitəyə bəraət qazandırırdı. İrəvanın məqsədi, eyni zamanda, Moskvanı 44 günlük müharibə məğlubiyyətində də günahlandırmaq idi və günahlandırdı da. Bu baxımdan kulminasiya anı Azərbaycanın 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra yaşandı. Erməni hakim siyasi elitası Kremli sırf Qarabağ itkisinə görə “çarmıxa çəkdi”.

Rusiyanın belə hallara qarşı cavab ritorikası budur: Paşinyan Qərb platformalarında Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığından, Moskvanın heç bir təsir mexanizmi qalmayıb. Dolayısı ilə Kreml sübuta yetirmək istəyirdi ki, Ermənistan rəhbərliyinin Qarabağ məsələsini aktiv fazada saxlamaması səhv idi. Ya da “özü yıxılan ağlamaz” misalı. Ancaq erməni iqtidarı “ağlamağından” qalmadı.

Paşinyan 2024-cü ilin əvvəllərində bəyan etdi ki, ölkə KTMT-dəki fəaliyyətini dondurub. O, hətta qurumdan, tamamilə, çıxmaq mesajları da səsləndirdi. Bu, rəsmi İrəvanın anti-KTMT xəttində yeni faza olsa da, Nikol barıtı çox eləmək istəmədi. Çünki ABŞ-da prezident seçkiləri keçirilmiş və Donald Tramp hakimiyyətə gəlmişdi. Ermənistan rəhbərliyi Trampın Putinə əvvəllər müşahidə olunan isti münasibətini görürdü. Bu səbəbdən özünün anti-Rusiya, müvafiq olaraq, KTMT əleyhinə seçilmiş kursunu dərinləşdirməkdən çəkindi. Amma zaman keçdikcə “sular duruldu”. Tramp Ukraynadakı böhranın həlli və müharibənin dayandırılması üçün Rusiyaya heç bir təsir göstərə bilmədi. Paralel olaraq, Paşinyan Birləşmiş Ştatların hazırkı iqtidarını Azərbaycana qarşı qaldırmağın mümkünsüzlüyünü anladı və ölkəmizlə sülhə gəlmək məcburiyyətində qaldı. Bu il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamə Ermənistanın barış niyyətinin təsdiqi kimi meydana çıxdı. Amma Paşinyan bəyənnamənin imzalanmasından sonra da ehtiyatlı davrandı. O, sənədə Rusiya dairələrinin münasibətini diqqətdə saxladı. Çünki Kremlin sərt tədbirlərə əl atmasından və Qərbin, həmişəkitək, Ermənistanı yalnız buraxmasından ehtiyatlandı. Çox güman, Nikol bu günlərdə Rusiyaya yollanmaqla, Kremlin Vaşinqton sənədinə münasibətini yumşaltmaq, obrazlı desək, Moskvanın ənənəvi erməni sevdasının sarı simlərinə toxunmaq istədi. Lakin əvvəldə bildirdik ki, onun istəyinə çatmadığına dair təsəvvür daha qətidir. Görünür, Moskva İrəvanın “göz yaşlarına” inanır.

Misal var, deyirlər ki, əgər davanın qaçılmazlığını görürsənsə, çalış, birinci vur. Paşinyan da Rusiyadan qayıtdıqdan sonra əvvəlcə Avropa İttifaqına üzvlük məsələsini qabartmaqla, ardınca isə anti-KTMT ritorikasını işə salmaqla, təxminən, eyni şeyi edir. Bununla erməni baş nazir xaricə də mesaj verir və bildirir ki, Rusiya ilə münaqişə içindədir və müdafiəyə ehtiyac duyur.

Aydındır ki, Paşinyan 2026-cı ilin parlament seçkilərinə görə ciddi narahatdır. Ermənistandakı Kremlə yaxın dairələrin onu devirməsindən, yaxud seçki marafonundan qalib ayrılmasından ehtiyatlanır. Deməli, Paşinyan seçki yaxınlaşdıqca iqtidarının Rusiya təsirindən qorunmasının zəruriliyinə dair ismarışlarının rəngini tündləşdirəcək. Ən başlıcası isə ehtimalımıza görə, Nikol Qərbi, o cümlədən ABŞ-ı məhz Vaşinqtonda imzalanmış Birgə Bəyannamənin mümkün iflası xüsusunda təlaşa salmağa çalışacaq. Məlumdur ki, bu, Qərbin Ermənistandakı seçkiyə yönəlik sevdasına güvənmişdi. Müharibə o zaman dayandı ki, rəsmi İrəvan ölkənin daha acınacaqlı duruma düşəcəyini anladı. Nikol Azərbaycanın bütün şərtlərini qəbul etdiyini bildirdi. Əlbəttə, şərtlərin açıqlandığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat Rusiyanın da regional maraqlarına cavab verdi. Amma sonradan Ermənistan rəhbər-



daha ciddi dəstəyini almaq üçündür. Hələlik isə Paşinyanın hazırkı anti-Rusiya kampaniyası yalnız ibtidai mərhələdədir. Söhbət haqqında söz açdığımız anti-KTMT xəttindən, daha doğrusu, həmin xəttin dirçəldilməsindən gedir.

*

İbtidailikdən söz düşmüşkən, Paşinyanın iki gün əvvəl KTMT əleyhinə söylədikləri, müəyən mənada, gülməlidir. O deyir ki, rəhbərik etdiyi iqtidar 2022-ci ildə qurumun Ermənistanla bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyini və yetirməyəcəyini görüb: “Məhz həmin anda biz müstəqil olduq. Çünki başa düşdük ki, yalnız özümüzə güvənməliyik”. Belə çıxır, 2022-ci ilədək Ermənistan KTMT-yə güvənirdi? Əlbəttə, bu, heç bir halda, belə deyil və məsələ ilə bağlı bəzi təfərrüatları açıqladıq.

Əlavə olaraq bildirək və yada salaq ki, 44 günlük müharibənin gedişində Paşinyan dəfələrlə V.Putinə üz tutaraq, savaşın dayandırılmasına yardım xahiş etmişdi. Əlbəttə, bunun müqabilində heç nə təklif etməmiş, yalnız Rusiyanın ənənəvi erməni sevdasına güvənmişdi. [sic — continues from col.] 

liyi, tədricən, anti-Rusiya kampaniyasını gücləndirməyə başladı ki, bunun ayrı-ayrı təzahürlərini, o cümlədən anti-KTMT xəttini vurğuladıq.

Sözümüz ondadır ki, Paşinyan hakimiyyəti heç vaxt KTMT-nin timsalında Rusiyaya güvənmək istəməyib. Onun arxalandığı “dağlar” başqa idi. Deməli, Nikolun indi dedikləri mənasız söz yığınıdır. Elə bu fikirləri də həmçinin: “O zaman (yəni 2022-ci ildə - red.) anladıq ki, əvvəlki hakimiyyətin qurduğu təhlükəsizlik sistemi əslində, sadəcə bir köpük imiş. Bu, sadəcə olaraq, dövlətimizin mövcud olmasına imkan verməmək üçün vasitə olub. 2020-ci ildə biz bunların heç birini dərk etməmişdik”.

Paşinyan yenə yalan danışır. Görəsən, o, 2020-ci ildə nəyi görməli idi? Axı KTMT 44 günlük müharibədə Ermənistanın tərəfində döyüşə bilməzdi. Savaş Azərbaycan torpaqlarında gedirdi. Yoxsa, Nikol qarşıdurmanı qaçılmaza çevirmiş “Qarabağ Ermənistandır, nöqtə” bəyanatını Rusiyaya, yaxud KTMT-yə arxalanaraq vermişdi? Xeyr, belə deyil. Əksinə, Paşinyan düşünmüşdü ki, Kremlin Cənubi Qafqazda qalma səbəbi olan Qarabağ münaqişəsini öz gücü ilə ölkəsinin xeyrinə həll edəcək və bununla İrəvanın Moskvadan asılılığının mühüm seqmentini aradan qaldıracaq.

Uzun sözün qısası, Paşinyanın 2020-ci ildə ölkəsinin təhlükəsizlik sisteminin yararsızlığını dərk etməməsi kimi durumdan söhbət gedə bilməzdi. Heç şübhəsiz, Ermənistan 44 günlük müharibədən qalib ayrılsaydı, Nikol tamamilə başqa bəyanat verəcək və heç bir halda deməyəcəkdi ki, Rusiyaya arxalandığımız təhlükəsizlik sistemi effektiv oldu.

*

Ümumiləşdirmə apararaq bir daha deyək ki, Paşinyanın hazırkı anti-KTMT açıqlaması kontekstində dilə gətirdikləri ayrı-ayrı fikirlər sırf 2026-cı ilin parlament seçkilərinə hesablanıb. Baş nazirin haqqında söz açdığı köpük, yəni sabun köpüyü məsələsi fonunda Ermənistanın həqiqi müstəqilliyini əldə etməsindən danışmasına gəldikdə, bu, yalnız pafosdur. Pafos erməni iqtidarının hakim “Vətəndaş sazişi” partiyasının qurultayında açıqlandı. Söhbət “real Ermənistan” quruculuğu ideyasını möhkəmləndirməkdən gedir. Qarşıdakı müddətdə Nikol özünün və rəhbərlik etdiyi komandanın hakimiyyətdə qalmasının vacibliyinə əlahiddəlik gətirmək və erməni xalqını buna inandırmaq üçün dəridən-qabıqdan çıxacaq.

Sonda obrazlı şəkildə bildirək ki, məşhur nağılda suyun qabağını kəsən div obrazı mütərəqqiliklərə qarşı çıxan Şərin tərənnümüdür. Paşinyanın da “divi” hakimiyyətdə qalmasını əsaslandırmaq üçün ortaya atdığı “real Ermənistan” quruculuğuna, başqa sözlə desək, müstəqil Ermənistan ideyasına “yol verməməyə çalışandır”. Tam aydındır ki, Nikol ölkəsindəki rus təsirinə zərbəni indidən vurmağa start verib. O, cidd-cəhdlə geniş xalq kütlələrində Moskva əleyhinə onsuz da var olan antipatiyanın daha da güclənməsinə, Kremlin İrəvandakı emissarlarının seçkidə iqtidara qarşı tutarlı alternativ qismində çıxış etmələrinə imkan verməməyə çalışır. Baş nazirin hazırkı anti-KTMT açıqlamasının başlıca məqsədi elə budur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Paşinyan və komandası birinci prezidentə qarşı

## *Zurabyanın “Ter-Petrosyan əfsanəsi”nə sözardı*

**“Nikolun tərəfdarları çaşqınlıq içindədirlər. Onların erməni xalqına qarşı əsrin cinayəti, tədricən, ifşa olunur. Bunun izlərini gizlətməyə çalışsalar da, istəklərinə çatmadılar. İndi isə bizim ittihamlarımıza cavab verə bilmirlər”. Bunu Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın rəhbəri olduğu “Erməni Milli Konqresi” partiyasının sədr müavini Levon Zurabyan deyib.**

Şübhəsiz, Zurabyanın açıqlaması son günlər Ermənistanda nəzərə çarpan Ter-Petrosyan–Paşinyan siyasi qarşıdurmasının növbəti təzahürüdür və çox güman, 2026-cı ildə belə qarşıdurmalar çox olacaq. Çünki gələn ilin yayında Ermənistanda parlament seçkilərinin keçirilməsi nəzərdə tutulur.

Əlqərəz, Ermənistanın digər keçmiş prezidentləri Serj Sarkisyan və Robert Koçaryan cəmiyyətdə bərbad reputasiyaya malikdirlər. Seçki səbəbindən erməni iqtidarın onlardan nisbətən babat nüfuza malik birinci dövlət başçısının üzərinə getməsi anlaşılandır. Nəzərə alaq ki, Paşinyan və komandası Qarabağ canilərini hələ 2021-ci ilin növbədənkənar parlament seçkiləri zamanı neytrallaşdırmağı bacarmışdılar. Həmin vaxt Ter-Petrosyan siyasi səhnədə indiki qədər aktiv deyildi. Hazırda isə onun fəallığı müşahidə edilməkdədir.

Ehtimal var ki, birinci prezidentin fəallığının katalizatoru Rusiyadır. Təsadüfi deyil ki, son bir neçə ildə Moskvanın Ermənistandakı rəsmi təmsilçisi, səfir Sergey Kopırkin L.Ter-Petrosyanla təmaslarını gücləndirib. Görünür, torbada pişik var. Yaxud Paşinyan və tərəfdarları heç də qara pişiyi qaranlıq otaqda axtarmırlar. Onlar nə etdiklərinin fərqindədirlər və hesab edirlər ki, Levon Kremlin parlament seçkilərində üzərinə siyasi sərmayə yatırdığı başlıca fiqurdur.

Əlqərəz, L.Zurabyan, öz aləmində, Ermənistan iqtidarının arqumentlərini alt-üst edirmiş kimi yazıb ki, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvünün – ABŞ-ın, Fransanın və Rusiyanın himayəsi altında aparılan danışıqlar formatından və onların sülh yolu ilə nizamlama təkliflərindən imtina yolu tutan Paşinyan ölkənin heç bir qələbə şansının olmadığı müharibə vəziyyətini yaratdı, təhrikçi tərzdə davrandı.

Doğrudur, Nikolun 2019-cu ildə Xankəndinin mərkəzi meydanında bağıraraq səsləndirdiyi “Qarabağ Ermənistandır nöqtə” bəyanatı və Şuşanın Cıdır düzündə sərxoş olub yallı getməsi təhrik idi. Amma o, davranışı ilə baş verməsi labüd hadisələri, sadəcə, müəyyən qədər tezləşdirdi. Yəni onsuz da bıçaq sümüyə dirənmişdi. Bunu Paşinyan da gözəl anlayırdı və yollar axtarırdı və tapdı da. Amma necə?



Deməli, Nikol hakimiyyətə gələndə müəyyən kanallar vasitəsilə Azərbaycana danışıqların müsbət məcrasına işarə verən siqnallar ötürdü, elə rəy formalaşdırdı ki, guya konstruktivdir. Bu gediş iqtidar kürsüsündə möhkəmlənmək üçün vaxt udmaq məqsədi daşıdı. Lakin Paşinyan güzəştlərə getmək fikrində deyildi. O, indi vaxtilə “Qarabağ Ermənistandır, nöqtə” bəyanatını hansı səbəbdən səsləndirdiyini anlamadığını bildirir. Fikrimizcə, iz azdırır. Böyük ehtimalla, onu hakimiyyətə gətirənlər baş nazirin qulağına Azərbaycan torpaqlarını işğalda, nəticə etibarilə rəsmi Bakını da daimi təzyiqdə saxlamağın vacibliyini pıçıldadılar. Tam mümkündür ki, Nikolun, loru dildə desək, qoltuğuna qarpız da verdilər. Onlar Paşinyanı dünyaya Qafqazda demokratiyanın qladiatoru qismində təqdim etdilər.

Nəticədə “erməni qladiator” ölkəsini “avtoritar Azərbaycandan” üstün tutdu, eyni zamanda, ağalarının kömək göstərəcəyinə ümid bəslədi. Onun Xankəndidəki sərsəm bəyanatı da, Şuşadakı yallısı da bundan qaynaqlandı. Köməyə gəldikdə, Paşinyan II Qarabağ müharibəsi zamanı xeyli dəstək gördü. Onu da gördü ki, Azərbaycanın əzmi və iradəsi qarşısında nə isə etmək mümkünsüzdür. Heç şübhəsiz, L.Zurabyan da, onun şefi L.Ter-Petrosyan da 44 günlük müharibə dəhşətini yaşayanlardandır. Amma boş-boş danışmaqlarından qalmırlar. Çünki, obrazlı desək, göbələklərin üstünə yağış suyu damızdıranlar var və bunu əvvəldə vurğuladıq.

Beləliklə, L.Zurabyan bildirir ki, ölkə iqtidarı L.Ter-Petrosyanı Azərbaycanla müharibəni başlatmaqda günahlandırmağa çalışır, halbuki, birinci prezident bütün hakimiyyəti dövründə danışıqlar yolu ilə sülh mühitinin formalaşmasına səy göstərmişdi. Məsələnin əsli isə ondadır ki, Qarabağ avantürasının liderlərindən olan L.Ter-Petrosyan Ermənistana Azərbaycanın zəif dövründə rəhbərlik etmişdi. O dövrdə ki, ölkəmizdə siyasi hərc–mərclik və özbaşınalıq yüksək həddə çatmışdı. Əslində, I Qarabağ müharibəsindəki uğursuzluğumuz da bundan qaynaqlanmışdı. Yaxud Ermənistanın uğurunun və torpaqlarımızın işğalının kökündə Azərbaycanda səriştəli idarəçiliyin olmaması dayanmışdı.

Lakin ulu öndər Heydər Əliyevin respublikamızda ikinci dəfə hakimiyyətə gəlişi nəticəsində hər şey, o cümlədən erməni avantürasının azərbaycanlıları Kür çayınadək qovmaq planları alt-üst oldu. Ulu Öndərin həyata keçirdiyi düşünülmüş siyasət qısa müddətdə Azərbaycanın nüfuzunu qaldırdı, ən əsası, dahi şəxsiyyət böyük məharətlə beynəlxalq ictimaiyyətin diqqətini Qarabağ reallıqlarına çəkməyi bacardı. Dünya, o cümlədən ermənipərəst birlik Azərbaycanla hərbə-zorba dilində danışmağın mümkünsüzlüyünü anladı. Amma öz şakərindən də qalmadı, Zurabyanın haqqında söz açdığı BMT TŞ-nin üç daimi üzvü bir araya gələrək, ATƏT-in Minsk qrupunu yaratdı. O təsisatı ki, məqsədi işğal faktını leqallaşdırmaq idi.

Amma Heydər Əliyev dühasının siyasi gedişləri Azərbaycan-Ermənistan danışıqlarında üstünlüyü ölkəmizin xeyrinə dəyişməyi də bacardı. Nəticədə L.Ter-Petrosyan çıxılmaz duruma düşdü. Zurabyan isə indi onun vaxtilə aparılmış sülh danışıqlarına sadiqliyindən söz açır. O zaman sual olunur: əgər birinci prezident sülh danışıqlarına sadiq idisə, nə üçün istefa verdi? Cavab çox sadədir. L.Ter-Petrosyan avantüranı davam etdirmək üçün potensialının çatmadığını və hələ o zamankı hərbi güclə də Azərbaycana qarşı çıxmağın mümkünsüzlüyünün fərqinə vardı. O, Heydər Əliyev şəxsiyyəti qarşısında gücsüzlüyünü anladı.

Ancaq o zamanın Ermənistanında elə indiki kimi, reallığı anlamayanlar var idi və birinci prezident məhz onlardan və onların dəstəkçilərindən qorxduğu üçün getməyə üstünlük verdi, erməni xalqını girdabdan çıxarmaq əvəzinə, cəsarətsizlik, qətiyyətsizlik və prinsipsizlik göstərdi. Hərçənd, xalqın o girdaba düşməsində özü də böyük “rol” oynamışdı.

Qeyd edək ki, L.Ter-Petrosyandan sonrakı hay hakim siyasi elitasında Azərbaycanla münaqişənin həllinin vacibliyinə prinsipial yanaşanlar qalırdı. Məsələn, Ermənistanın o zamankı baş naziri Vazgen Sarkisyan və ölkə parlamentinin sədri Karen Dəmirçyan. Bu ikili Bakıya güzəştlərin qaçılmazlığını anlayır və fəaliyyətlərini mövcud istiqamətdə qururdular. Onların aqibəti də bəllidir. Bu şəxslər 1999-cu ilin parlament terroru zamanı qətlə yetirdilər. Halbuki, onlar öldürülənədək Ter-Petrosyanın istefasından sonra qanunsuz yolla prezident postunda əyləşmiş Qarabağ cəlladı R.Koçaryandan xeyli güclü mövqeyə malik idilər.

Belə nəticəyə gəlmək mümkündür ki, birinci prezident xoşluqla getməsəydi, 1999-cu il terrorunu törədənlər onu da fiziki cəhətdən məhv edəcəkdilər. Məhz buna görə L.Petrosyana “qorxaq” deyirik. Məhz bu səbəbdən Paşinyan və komandası Ermənistanın ilk dövlət başçısını müharibə törədib aradan çıxmaqda günahlandırır. Nikol və tərəfdarları bir azdan qoca Levona “satqın” və “xain” də deyə bilərlər və mahiyyətcə tam haqlıdırlar.

Ona görə də gərək L.Zurabyan Paşinyan iqtidarını ittiham hədəfinə çevirərək deməsin ki, Nikol hakimiyyətə gəldikdən sonra ən radikal yolu - heç bir güzəştə getməmək siyasətini qəbul etdi və Ermənistanı fəlakətə sürüklədi. Yenə də bildirək ki, güzəşti məqbul bilib düzgün qiymətləndirən qüvvə istefa verməz, qətiyyət nümayiş etdirər, 20 ildən sonra yaşanacaq fəlakətə vəsilə olmazdı. Bütün bunlara görə Zurabyanın növbəti dedikləri fikirlər də yalnız cəfəngiyyatdır. Məsələn, o bildirir: “Bu adamlar (yəni Paşinyan və tərəfdarları – red.) heç vaxt anlamayacaqlar və qəbul etməyəcəklər ki, Levon Ter-Petrosyan Ermənistana “dəmir qaşıq” qaytarmışdı, onlar isə yenidən onu “kağızdan” olanla əvəzlədilər”.

Sonda qeyd edək ki, məqsədimiz heç də Ermənistandakı siyasi qarşıdurmada hansısa cinahın tərəfini tutmaq deyil. Necə deyərlər, ilanın ağına da lənət, qarasına da. Nə də kimin, hansı qüvvənin ölkədə hakimiyyətə yiyələnməsinin Azərbaycan üçün hansısa istisi-soyuğu yoxdur. Dövlətimizin öz yolu var və o yol ölkəmizi lider mövqedə saxlayır. Ermənistandan bir deyil, beş, on, hətta on beş qat üstün və güclüyük və həmişə də belə olacaq.

Ancaq məsəl var ki, milçək bir şey deyil, könül bulandırır. Erməni hakim siyasi elitasında kimsə düşünməsin ki, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirə biləcək hansısa mexanizmi tətbiq etmək potensialının daşıyıcısıdır. I Qarabağ müharibəsindəki uğura gəlincə, Zurabyan və digərləri “dəmir qaşıq”larını boş başlarına vuraraq anlasınlar ki, onu Ermənistan özü qazanmamışdı. Bu, Rusiyanın Ermənistana hədiyyəsi olmuşdu.

Həm Rusiya, həm də dünyanın digər ermənipərəstləri danışıqlar adı altında, müxtəlif manipulyasiyalarla otuz ilə yaxın çalışdılar ki, “hədiyyə” əldən çıxmasın, Cənubi Qafqazda erməni avantürizmi varlığını saxlasın. Amma bunu bacarmadılar. Azərbaycan 44 günlük müharibəyə qədər diplomatik cəbhədə, müharibə zamanı isə hərb meydanında Ermənistanı sarsıdıcı məğlubiyyətə uğratdı. Elə bir məğlubiyyətə ki, təsirləri ölkənin siyasi həyatındakı didişmələr müstəvisində indi də qalmaqdadır və görünür, bu tendensiya hələ bir müddət də davamlı olacaq.

Sonda onu da bildirək ki, L.Zurabyanın haqqında söz açdığı “kağız qaşığ”ı deyə bilmərik, ancaq ümumən, kağızın Ter-Petrosyana lazım olduğunu söyləmək mümkündür. Yaxşı halda, intihardan qabaq son sözlərini yazmaq üçün. Pis halda isə...

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Qara qızıl”dan “insan kapitalı”na keçid

## *İntellektual potensialın milli sərvətə çevrilməsi Azərbaycanın inkişaf modelini taclandırır*

**Oktyabrın 1-də İtaliya–Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarellanın səsləndirdikləri dərin məzmunlu, strateji hədəflərə söykənən nitqlər, eyni zamanda, müasir dövrdə dövlətlərarası münasibətlərin fəlsəfəsini, inkişafın əsl mahiyyətini və gələcəyə baxışın konturlarını müəyyən edən proqram xarakterli çıxışlar idi. Prezident İlham Əliyevin ölkənin gələcək inkişafını elm və təhsil potensialı ilə bilavasitə əlaqələndirməsi, təbii sərvətlərdən əldə edilən gəlirlərin insan kapitalına yönəldilməsini dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirməsi strateji yanaşmanın ifadəsi, Azərbaycanın inkişaf strategiyasının yeni zirvəsidir. Dövlət başçısının uzunmüddətli dayanıqlı inkişafın bilik, təhsil və texnologiya əsasında mümkünlüyünə dair fundamental tezisi isə Azərbaycanın postneft mərhələsi üçün düşünülmüş və məqsədyönlü inkişaf strategiyasına malik olduğunu təsdiqləyir.**



İtaliya Prezidenti Sercio Mattarellanın mürəkkəb beynəlxalq vəziyyət fonunda mədəniyyət və gənclərin təhsili sahəsində əməkdaşlığın xüsusi əhəmiyyətini qeyd etməsi, bəşəriyyətin tərəqqisində gənclərin həlledici rolunu önə çəkməsi və biliklərin dərinləşməsini tədqiqatçıların canlı təmasında görməsi gələcəyi insan amili üzərində qurmağa çalışdıqlarını nümayiş etdirdi. Hər iki liderin çıxışlarının leytmotivini təşkil edən əsas fikir ondan ibarət idi ki, İtaliya–Azərbaycan Universiteti, sadəcə, binalardan və auditoriyalardan ibarət məkan deyil, həm də iki dost ölkənin strateji tərəfdaşlığının intellektual memarlığının təcəssümü, bilik iqtisadiyyatına keçidin lokomotivi və qlobal çağırışlara cavab verə biləcək yeni liderlərin yetişdirildiyi müasir təfəkkür mərkəzidir.

Prezident İlham Əliyevin nitqindəki ən mühüm strateji vurğu təbii resurslarla zənginliyin uzunmüddətli davamlı inkişaf üçün yetərli şərt olmaması, əsl tərəqqinin intellektual potensialda, elmdə və təhsildə olduğu həqiqətinin aydın dərk edilməsidir. Dövlət başçısının “sirr deyil ki, hər ölkənin inkişafı onun elmi və təhsil potensialından qaynaqlanır” və “inkişaf etmiş ölkələri inkişaf etmiş ölkələr edən məhz biliklərdir, təhsildir, texnologiyalardır” kimi dəqiq və aydın ifadələri Azərbaycanın iqtisadi modelinin təkamülünü və gələcək hədəflərini mükəmməl şəkildə xarakterizə edir. Bu yanaşma Azərbaycanın müstəqilliyinin ilk illərindəki iqtisadi kollapsdan xilas olaraq neft strategiyası sayəsində maliyyə müstəqilliyini təmin etməsi və indi həmin maliyyə resurslarını düşünülmüş şəkildə iqtisadiyyatın şaxələndirilməsinə və insan kapitalının inkişafına yönəltməsi prosesinin məntiqi davamıdır. Prezidentin qeyd etdiyi kimi, “təbii resurslarla zəngin olan ölkələr kimi Azərbaycan, ilk növbədə, təbii resurslardan gələn gəlirləri insan kapitalına yönəltməyə çalışmışdır”. Bu siyasət sadəcə bəyannamə xarakteri daşımır, konkret proqramlar və layihələrlə həyata keçirilir. Prezidentin xatırlatdığı kimi, dövlət başçısı olaraq fəaliyyətə başladığı ilk dövrlərdən etibarən Azərbaycan gənclərinin dövlət hesabına dünyanın aparıcı ali məktəblərinə göndərilməsi proqramına start verilməsi strateji xəttin nə qədər erkən və uzaqgörənliklə müəyyən edildiyinin sübutudur. Minlərlə gəncin xaricdə müasir biliklərə yiyələnərək Vətənə yüksəkixtisaslı mütəxəssislər kimi qayıtması ölkənin intellektual potensialını gücləndirmiş, idarəetməyə, iqtisadiyyata və sosial həyatın bütün sahələrinə yeni nəfəs gətirmişdir. İtaliya-Azərbaycan Universitetinin yaradılması isə həmin siyasətin növbəti, daha yüksək pilləsidir. Artıq söhbət, sadəcə, gəncləri xaricə göndərməkdən getmir, dünyanın ən qabaqcıl təhsil standartlarının, elmi məktəblərinin və innovativ tədris metodikalarının birbaşa Azərbaycana gətirilməsindən gedir. Bu, ölkənin təhsil sisteminin transformasiyası, onun qlobal elmi məkana tam inteqrasiyası və nəticə etibarilə Azərbaycanın regional təhsil və elm mərkəzinə çevrilməsi hədəfini güdür. Prezident İlham Əliyevin universitet məzunlarının gələcəkdə Azərbaycanın inkişafına böyük dəstək verəcəklərinə əminliyi, məhz həmin gənclərin bilik iqtisadiyyatının aparıcı qüvvəsi, texnoloji inkişafın daşıyıcıları və ölkəni dayanıqlı inkişaf yolunda irəli aparacaq intellektual elita olacaqlarına inamdan qaynaqlanır. Beləliklə, dövlət başçısının çıxışı Azərbaycanın inkişaf modelinin "qara qızıl"ın insan kapitalına çevrilməsi kimi tanınan fundamental prinsip üzərində qurulduğunu və bu prosesdə İtaliya–Azərbaycan Universiteti kimi layihələrin həlledici rol oynadığını bir daha bütün dünyaya bəyan etdi. Bu, təbii sərvətlərin tükənən, insan zəkasının isə tükənməz olduğu reallığını dərindən anlayan müdrik dövlətçilik təfəkkürünün parlaq təzahürüdür.

İtaliya Prezidenti Sercio Mattarellanın nitqi Azərbaycanla İtaliya arasında strateji tərəfdaşlığın ortaq humanist dəyərlər, mədəniyyətə hörmət və gələcəyə dair ümumi baxışlar müstəvisində qurulduğunu təsdiq edən mühüm siyasi mesajlarla zəngin idi. Onun ağır münaqişə və toqquşmalarla səciyyələnən müasir dünya nizamı fonunda iki ölkənin mədəniyyət, gənclərin təhsili və onların formalaşdırılması sahəsində əməkdaşlığına məmnunluqla diqqət çəkməsi sivilizasiyalararası dialoqun və qarşılıqlı anlaşmanın sülh və sabitlik üçün ən etibarlı təminat olduğunu vurğulayan Avropa siyasi təfəkkürünün klassik təzahürü idi. Prezident Mattarellanın “bəşəriyyəti irəli aparan yalnız gənclər olacaq” fikri gənc nəslə investisiyanın əslində bəşəriyyətin gələcəyinə qoyulan sərmayə olduğu həqiqətini ifadə edir və bu kontekstdə İtaliya–Azərbaycan Universitetinin təsisini daha geniş qlobal əhəmiyyətə malik hadisə kimi təqdim edir. Onun çıxışındakı digər konseptual məqam isə biliklərin təbiəti və onların inkişaf mexanizmləri ilə bağlı idi. Prezidentin “bizim tələbələr, dosentlər və tədqiqatçılar azərbaycanlı həmkarları ilə təmas quracaqlar. Biliklər bu cür dərinləşir, imkanların miqyası artır” sözləri müasir elm fəlsəfəsinin təməl prinsiplərindən olan kommunikasiya və əməkdaşlığın rolunu önə çəkir.

İtaliya–Azərbaycan Universiteti məhz belə intellektual təmas və qarşılıqlı zənginləşmə üçün ideal mühit yaratmağı hədəfləyir. İtalyan və azərbaycanlı professorların, tələbələrin və tədqiqatçıların eyni auditoriyalarda, laboratoriyalarda və layihələrdə birgə çalışması, təkcə formal bilik ötürülməsi ilə məhdudlaşmayacaq, həm də fərqli düşüncə tərzlərinin, yanaşmaların və təcrübələrin sintezinə gətirib çıxaracaq. Prezident Mattarellanın bu prosesin nəticəsində yaranan təcrübə və təşəbbüsün “inanılmaz dərəcədə dəyərli alətə” çevriləcəyini deməsi universitetin yeni ideya və imkanlar yaradan innovasiya mərkəzi olacağına inamı ifadə edir.

Hər iki dövlət başçısının nitqlərinin sintezi İtaliya-Azərbaycan Universitetinin təsisini müasir dövrün mürəkkəb reallıqlarına verilən müsbət və konstruktiv cavab kimi səciyyələndirməyə imkan verir. Bir tərəfdən, Azərbaycan Prezidentinin praqmatik və milli maraqlara söykənən, ölkənin uzunmüddətli inkişafını hədəfləyən aydın strategiyası, digər tərəfdən İtaliya Prezidentinin qlobal sülhə, bəşəri dəyərlərə və mədəniyyətlərin dialoquna əsaslanan fəlsəfi yanaşması mövcuddur. Azərbaycan və İtaliya bu möhtəşəm layihə ilə dünyaya sübut edirlər ki, ən dəyərli sərmayə insana qoyulan sərmayədir və bəşəriyyətin gələcəyi məhz belə aydın zəka və möhkəm iradə ilə inşa edilir. Həmin elm məbədinin qapılarından daxil olan hər bir tələbə, əslində, daha aydın, daha firavan və daha sülhsevər gələcəyə atılan addımın iştirakçısıdır.

*Ekspert rəyi*



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

**Azərbaycan Prezidentinin çıxışında vurğuladığı məsələlər olduqca önəmli və strateji xarakter daşıyır. Burada xüsusilə iki mühüm istiqamət diqqəti cəlb edir. Birincisi, Azərbaycanın təsir imkanlarının genişlənməsi və bu prosesdə gənclərin rolunun artırılmasıdır.**

Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində gənclərin xaricdə təhsil alması və peşəkar mütəxəssis kimi yetişməsi dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilib. Bu, həm ölkəmizin insan kapitalının gücləndirilməsi, həm də gələcəkdə müxtəlif sahələrdə yüksəkixtisaslı kadrların formalaşdırılması baxımından əvəzsiz əhəmiyyət kəsb edir.

İkinci vacib məqam gənclərə ölkə daxilində göstərilən xüsusi diqqət və qayğı ilə bağlıdır. Gənclərin həm daxildə yüksək səviyyədə təhsil alması, həm də xarici ölkələrdə təcrübə qazanması üçün yaradılan imkanlar uzunmüddətli inkişaf modelinin tərkib hissəsidir. Prezidentin qeyd etdiyi kimi, bu sahədə son illərdə bir sıra mühüm proqramların qəbul edilməsi Azərbaycanın təhsil sistemini keyfiyyətcə yeni mərhələyə çıxarıb.

Nəticə etibarilə, gənclərin xaricdə təhsil alması, peşəkar kadrların yetişdirilməsi və onların gələcəkdə ölkənin inkişafına töhfə verməsi istiqamətində dövlətimizin atdığı addımlar həm milli maraqlara, həm də Azərbaycanın qlobal miqyasda mövqeyinin möhkəmlənməsinə xidmət edir. Bu siyasət, həmçinin, ölkəmizin intellektual potensialını gücləndirərək onu strateji üstünlüyə çevirir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Sabitlik üçün sonuncu maneə

## *Türkiyə postterror mərhələsinə hazırdır*

**Qardaş ölkə uzun illər regionun ən təhlükəli böhranlarından biri olan terror probleminin mərkəzində qaldı. Bu, yalnız ölkənin sərhədlərini yox, eyni zamanda, daxili siyasi mühitini də sarsıdırdı. Türkiyədə terror gündəlik həyatın bir hissəsinə çevrilmiş, şəhərlərdə partlayışlar, kəndlərdə silahlı hücumlar adi xəbərə dönmüşdü. Ən böyük zərbə dövlətin iqtisadi potensialına və sosial psixologiyasına vurulmuşdu. Trilyonlarla dollar dəyərində sərvət silahlanmaya, əməliyyatlara, daxili təhlükəsizlik strukturlarının genişləndirilməsinə yönəlmişdi. İndi isə tarixi dönüş anı yaşanır: “terrorsuz Türkiyə” perspektivi dövlətin qarşısında real və icra oluna bilən məqsəd kimi dayanır. Bu, həm daxildə dərin struktur islahatlarını stimullaşdırır, həm də beynəlxalq münasibətlər sistemində Ankaraya yeni mövqe qazandırır.**



Prezident Rəcəb Tayyib Ərdoğan oktyabrın 1-də parlamentin 28-ci çağırış payız sessiyasının açılışında Türkiyənin terrorla mübarizədə həlledici mərhələyə qədəm qoyduğunu bəyan etdi. Onun fikrincə, PKK-nın özünü buraxmaq barədə verdiyi siqnal və silahların simvolik şəkildə məhv olunması artıq uzun illərin müharibə səhifəsini bağlamağa imkan yaradır. Ərdoğan konkret rəqəmlərlə danışaraq bildirdi ki, 1984-cü ildən bəri davam edən terror dalğası 40 mindən çox insanın həyatına son qoyub, 2 trilyon ABŞ dolları həcmində iqtisadi resursu udub. Bu statistik göstəricilər prosesin dövlətin siyasi və iqtisadi sisteminə yüklədiyi ağırlığı ortaya qoyur. Əslində, bu rəqəmlər təkcə Türkiyə üçün yox, beynəlxalq ictimaiyyət üçün də dərsdir: terror dövlətin inkişaf yolunu onilliklərlə geri ata bilir.

Terror təhlükəsinin zəifləməsi Türkiyədə siyasi sistemin dəyişməsinə gətirib çıxara bilər. Hakimiyyətin “ortaq təhlükəsizlik” konsepsiyası müxalifət partiyalarını da yeni şərtlərə uyğun mövqe tutmağa məcbur edir. Əvvəllər barışmaz ritorika üzərində qurulmuş siyasi mübahisələr bu gün getdikcə sosial-iqtisadi məsələlərə yönəlir. Mövcud proses cəmiyyətin uzun müddətdir gözlədiyi konsensus mühitinin formalaşmasına şərait yaradır. İctimai rəy artıq yeni dövrün gündəliyini tələb edir: sosial proqramların genişləndirilməsi, təhsil sistemində islahatlar, yüksək texnologiyaların inkişafına yönəlik dövlət dəstəyi. Onillərlə hərbi xərclərə sərf olunan milyardların indi sosial rifah layihələrinə istiqamətləndirilməsi ölkə daxilində yeni legitimlik bazası yaradır. Bu, bütün siyasi spektr üçün ortaq ideya rolunu oynaya bilər.

Türkiyənin beynəlxalq arenadakı mövqeyi də dəyişir. Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) daxilində Ankara uzun illər “təhdid altında olan tərəfdaş” kimi qəbul edilirdi. İndi isə vəziyyət tamamilə fərqlidir. Türkiyə alyansın “təhlükəsizlik istehsalçısı” statusuna yüksəlir. Suriyanın şimalında həyata keçirilən antiterror əməliyyatları və əldə olunan nəticələr NATO üçün konkret model rolunu oynayır. Ənənəvi olaraq Vaşinqton və Brüsselin gözündə Türkiyə həmişə müdafiə mövqeyində göstərilirdisə, indi Ankara təhlükəsizlik sisteminin qarantı kimi qəbul olunur. Bu, həm də Türkiyənin ABŞ və Avropa İttifaqı ilə münasibətlərində əlavə diplomatik üstünlük yaradır.

Moskva və Ankara arasındakı münasibətlərdə də yeni mərhələ başlaya bilər. Uzun illər iki ölkənin gündəliyində Suriya məsələsi bir nömrəli mövzu idi. Türkiyə sərhədlərindən kənarda terror qruplaşmalarının formalaşmasına imkan verməyərək Rusiya ilə müəyyən təhlükəsizlik anlaşmalarının icrasını asanlaşdırırdı. İndi isə terror təhlükəsinin zəifləməsi Ankaraya Moskva ilə münasibətləri daha çox enerji, ticarət və regional layihələr üzərində qurmaq imkanı verir. Bu, həm də bölgədə yeni balans formalaşdırır: hərbi mövzular iqtisadi gündəliyin arxasında qalır.

Balkanlardan Qafqaza qədər uzanan geniş coğrafiyada Türkiyə terror sonrası dövrdə daha aktiv oyunçuya çevrilmək niyyətindədir. Orta Dəhliz layihəsi, Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya təşəbbüsləri və enerji kəmərlərinin idarəsi Ankaranı regionun iqtisadi “lokomotivi” statusuna gətirir. Xüsusilə Cənubi Qafqazda Azərbaycanla strateji tərəfdaşlıq, Mərkəzi Asiyada Türkmənistan və Qazaxıstanla enerji əməkdaşlığı Türkiyənin nüfuz dairəsini daha da genişləndirir. Bu amillər “terrorsuz Türkiyə” konsepsiyasını yalnız daxili siyasi dəyişiklik deyil, həm də beynəlxalq güc mərkəzi statusunun bərpası kimi təqdim edir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Suriyada “dejavü ssenarisi”nin qarşısının alınması ilə bağlı xəbərdarlığı da diqqətəlayiqdir. Ankara açıq şəkildə bildirir ki, bölgədə yeni separatizm cəhdlərinə imkan verilməyəcək. Əvəzində türk, kürd və ərəb icmalarının ortaq yaşam modeli irəli sürülür. Bu, regionda uzunmüddətli sabitliyin alternativ formuludur və Ankaraya həm İran, həm də ərəb dövlətləri qarşısında əlavə siyasi kapital qazandırır. Əgər bu konsepsiya uğurla reallaşdırılarsa, Türkiyə Yaxın Şərqdə multietnik sabitlik modelinin əsas müəllifinə çevriləcək.

Prezident Rəcəb Tayyib Ərdoğan çıxışının sonunda “terrorsuz Türkiyə” hədəfinin reallaşmasının ölkənin inkişafında yeni sıçrayışa səbəb olacağını qeyd etdi. Nəticədə bu, NATO, ABŞ, Rusiya və Avropa İttifaqı ilə münasibətlərdə əlavə üstünlüklər qazandırır. Ən önəmlisi isə budur ki, Ankara artıq uzun illər müdafiə mövqeyində qalmış dövlət deyil, regional təhlükəsizliyi təmin edən güc mərkəzi kimi formalaşır. Bu güc mərkəzi həm siyasi, həm iqtisadi, həm də hərbi müstəvidə yeni balansların qurulmasına təsir göstərir və Türkiyəni XXI əsrin regional liderinə çevirir.

*Ekspert rəyi*



**Toğrul İSMAYIL,**
**Kahramanmaraş Sütçü İmam Universitetinin professoru**

**PKK-nın silahları buraxması və terror fəaliyyətindən imtina bəyanatı Türkiyənin onilliklərdir apardığı hərbi-siyasi mübarizədə həm simvolik, həm də operativ baxımdan mühüm dönüş nöqtəsidir. 2025-ci il may-iyul aylarında təşkilatın konqres qərarı və bəzi döyüşçülərin Şimali İraqda simvolik olaraq silahlarını yandırması həmin dönüşün praktiki ifadəsi kimi qiymətləndirilə bilər.**

Bununla belə, bu addımı dərhal “tarixi qələbə” kimi qiymətləndirmək doğru olmaz. Çünki davamlı sülh və sabitlik yalnız silahların atılması ilə məhdudlaşmır; prosesin uğuru yoxlanıla bilən tərk-silah mexanizmlərinin işləməsindən, möhkəm hüquqi-icraedici çərçivədən və geniş sosial-siyasi reinteqrasiya proqramlarının effektivliyindən asılıdır. Əks təqdirdə – silahların tam nəzarət altına alınmaması, reinteqrasiyanın maliyyə təminatının zəifliyi və ya cəza-sanksiya siyasətində ədalətsizliklərin davam etməsi halında əldə edilən nəticə yarımçıq qala bilər. Belə şəraitdə radikallaşmış kiçik qrupların yenidən zorakılıq kanalları açması ehtimalı güclənər.

Parlamentin həmrəylik və ictimai birlik məqsədli fəaliyyəti “terrorsuz Türkiyə” hədəfinin gerçəkləşməsində açar rol oynaya bilər. Çünki qanunvericilik orqanı tərk-silah və reinteqrasiya üçün tələb olunan hüquqi çərçivəni, xüsusi nəzarət mexanizmlərini və məhkəmə-prosessual qaydaları müəyyən edir. Prezident Rəcəb Tayyib Ərdoğanın ifadə etdiyi kimi, parlament prosesin tamamlanmasında və demobilizasiyanın hüquqi əsaslarının yaradılmasında məsuliyyət daşıyır və bu, həm də hakimiyyətin addımlarına demokratik legitimlik verə bilər.

Son bir ildə atılan addımların “tarixi əhəmiyyətli” kimi təqdim edilməsi Türkiyənin yalnız daxili təhlükəsizliyində deyil, regionda da siyasət formalaşdıran aktor kimi mövqeyini gücləndirməsi mesajını verir. Bu, Ankara üçün həm diplomatik kapitallaşdırma, həm də regional normativ müraciət nümunəsi yaratmaq imkanı deməkdir. Belə bir nəticə Türkiyənin Suriya və İraqdakı kürd hərəkatları üzərində təsir göstərmək və qonşu dövlətlərlə təhlükəsizlik əməkdaşlığını yenidən tənzimləmək üçün əlavə siyasi alət verir.

***Tacir SADIQOV***
***XQ***

# Azərbaycan üçün uğurlu, Avropa üçün ağrılı sammit

**(əvvəli 1-ci səhifədə)**

Oxuculara xatırladaq ki, "Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

Kopenhagendə işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev ASB-nin 7-ci Zirvə toplantısının açılış mərasimində iştirak edib. Danimarkanın Baş naziri Mette Frederiksen İlham Əliyevi, eləcə də ASB-nin Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını salamlayıb.

## Liderlər arasında fikir ayrılığı var

Avropa mediasının yaydığı məlumatlarda qeyd olunur ki, Kopenhagen Sammitinin ilk günün təhlükəsizlik məsələlərinin müzakirəsi planlaşdırılandan uzun çəkib. Xəbərlərdə Aİ ölkələrinin liderləri bu məsələdə ortaq məxrəcə gələ bilmədiklərindən Danimarka kral cütlüyünün dəvəti ilə şam yeməyinə dəvət edildikləri vurğulanıb. Qitənin aparıcı informasiya agentliklərinin Avropa İttifaqı (Aİ) Şurasının yüksək səviyyəli nümayəndəsinə istinadla yaydıqları informasiyaya görə, ASB Zirvə görüşünün iştirakçılarının əksəriyyəti Aİ-nin Şərq cinahlarının potensial hava və dəniz təhdidlərindən qorunmasının zəruriliyi ilə razılaşsalar da, ümumilikdə "dron səddi" və ya "dronlardan müdafiə divarı" kimi adlandırılan Avropa Komissiyasının təşəbbüsləri, eləcə də onların icra müddətləri ilə bağlı Aİ-yə üzv ölkənin 27 dövlət və hökumət başçısının mövqeləri üst-üstə düşməyib. Buna misal olaraq, Macarıstan Baş naziri Viktor Orbanın "Aİ səmasına daxil olan dronlara nə etmək olar?" sualına verdiyi cavab tirajlanıb: "Vurun, sadəcə vurun, vəssalam!".

Almaniya Kansleri Fridrix Merts və Fransa Prezidenti Emmanuel Makron, ümumiyyətlə, dronlara qarşı "divar" yaratmaq ideyası ilə bağlı kifayət qədər skeptik fikirlər səsləndiriblər. Hər ikisinin fikrincə, bu məsələlərə daha realist yanaşmaq lazımdır. Vəziyyətin daim dəyişməsi, texnologiyaların sürətlə inkişafı göstərir ki, ideya hələ reallaşmağa başlamazdan əvvəl köhnələ bilər.

## İlham Əliyevin Kopenhagen görüşləri

"Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının Azərbaycan üçün yaddaqalan məqamlarından biri Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşü oldu. Bu görüşdə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Vaşinqtonda baş tutan üçtərəfli sülh sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulamış, Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səylərini davam etdirməyə hazır olduqlarını bir daha bəyan ediblər. Görüş əsnasında iki ölkənin liderləri regionda nəqliyyat kommunikasiyalarının açılmasının gətirəcəyi faydalar, infrastrukturun qarşılıqlı inkişafı ilə bağlı perspektiv planları, TRIPP layihəsini müzakirə ediblər.

Bundan başqa, Azərbaycan Prezidenti İlham Əliyevin Kopenhagendə Moldova Respublikasının Prezidenti Maya Sandu, Aİ Şurasının Prezidenti Antonio Koşta, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen və İtaliya Nazirlər Şurasının sədri Corcia Meloni ilə görüşləri olub. "Sülh gündəliyi ilə bağlı nailiyyətlər bütün region, o cümlədən Ermənistan və Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edir". Bu sözləri İlham Əliyev Antonio Koşta və Ursula Fon der Lyayen ilə görüşündə deyib. Dövlətimizin başçısı həm Ermənistanın, həm də Azərbaycanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını onların nəzərinə çatdırıb və Bakının sülh gündəliyinin irəli aparılması üçün səyləri bundan sonra da davam etdirəcəyini vurğulayıb.



Kopenhagendə İlham Əliyevlə Ukrayna Prezidenti Volodimir Zelenski arasında səmimi görüş və dialoq olub. Ukrayna lideri Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunan nəticələrə görə dövlətimizin başçısını təbrik edib. Öz növbəsində sülh gündəliyinin irəliyə aparılması istiqamətində atılan addımların tarixi əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev regionda möhkəm sülhün bərpası üçün ölkəmizin bundan sonra da öz səylərini davam etdirəcəyini bildirib.

## "Bizə effektiv müdafiə sistemi lazımdır"

ASB-nin Kopenhagen toplantısında aparılan müzakirələrdə, edilən çıxışlarda Ukraynaya dəstək, Avropanın təhlükəsizlik mənzərəsi və qitəni daha davamlı etmək üçün zəruri tədbirlərin görülməsi kimi məsələlərə toxunuldu. Həmçinin geniş müzakirələrdə iqtisadi təhlükəsizlik, narkotik ticarəti və miqrasiya mövzularına da diqqət yetirildi. Dəvət olunan 47 siyasətçi arasında Böyük Britaniya, Azərbaycan, Ukrayna, Moldova, İsveçrə və Gürcüstan kimi blokdan kənar liderlərlə yanaşı, Aİ-nin bütün dövlət və hökumət başçıları vardı. Bundan başqa, NATO-nun Baş katibi Mark Rütte və digər əsas institusional şəxslər də müzakirələrə qatıldılar. Diqqətçəkən məqamlardan biri Avropa liderləri arasında müzakirə olunan bəzi məsələlərə yanaşmada müəyyən fikir ayrılıqlarının olması idi. Ukrayna Prezidenti Volodimir Zelenski toplantı iştirakçılarına müraciət edərək, bütün Avropanı qorumaq üçün effektiv "dron divarı" qurmağın vacibliyini qeyd edərək, avropalı həmkarlarını bu istiqamətdə birgə fəaliyyətə çağırdı. "Rusiya Polşaya qarşı dronlar buraxmağa və ya Şimali Avropa ölkələrinin hava məkanını pozmağa cəsarət edərsə, bu, hər yerdə – Qərbi Avropada, cənubda baş verə bilər, – buna qarşı bizə sürətli və effektiv reaksiya və dronlarla necə davranmağı bilən müdafiə qüvvələri lazımdır", – deyə Zelenski vurğulayıb.

## Avropa Komissiyası təşəbbüsü davam etdirəcək

Birgə mətbuat konfransında çıxış edən Avropa Şurasının sədri Antonio Koşta bu blokun 23-24 oktyabr tarixlərində keçiriləcək növbəti sammitini "qərar günü" kimi qiymətləndirib. O qeyd edib: "İki həftə ərzində Avropa Komissiyası 2030-cu ilə qədər müdafiə hazırlığına dair yol xəritəsini təqdim edəcək və Avropa Şurası üç həftə sonra yenidən görüşəcək və bu qərarı verəcək".

Zirvə toplantısında əsas təkliflərə Aİ-nin şərq sərhədi boyunca "dron divarı" və kollektiv müdafiəni gücləndirmək üçün yeni mexanizmlər daxil idi. Amma bundan daha vacib və başlıca mövzu Ukraynaya dəstək məsələsi idi. Bu məqsədlə Avropa Komissiyası Kiyevə 140 milyard avro (164 milyard dollar) "təzminat krediti" üçün sanksiyaya məruz qalmış Rusiya aktivlərinin açılmasını təklif etdi. Təklif olunan plana görə, Ukraynaya faizsiz kredit veriləcək və münaqişədən sonra kompensasiya ödənildikdən sonra qaytarılacaq.

## Avropanın müdafiə qabiliyyəti gücləndirilməlidir

NATO-nun Baş katibi Mark Rütte Zirvə toplantısındakı çıxışında həm Aİ-nin yeni maliyyə rıçaqları əldə etməsi, eləcə də Ukraynanın özünün silah sənayesinin sürətli inkişafını vurğulayaraq Avropanın müdafiə qabiliyyətini gücləndirmək üçün Avropa Komissiyası ilə daha sıx əməkdaşlıq etməyə çağırıb. M.Rütte Brüsselin üzv dövlətlərə müdafiə xərclərini artırmaq üçün hökumətlərə daha çox səlahiyyət verilməsi təklifini də səsləndirib. Bununla bağlı alyansın rəhbəri çıxışında bildirdi: "Ukraynaya verilən dəstək çox vacibdir. Üç il əvvəl bu ölkənin müdafiə sənayesi sıfıra bərabər idi. Amma indi onlar ağlınıza gələ biləcək ən müasir, ən dahiyanə müdafiə sənayesinə sahibdirlər. Burada pilotsuz uçuş aparatlarının istehsalı dünya miqyasında ən ucuz, ən sürətli və ən ağıllı şəkildə həyata keçirilir".

Beləliklə, bir qədər gərgin və narahat şəraitdə keçən "Avropa Siyasi Birliyi"nin VII Zirvə toplantısı öz işini yekunlaşdırdı.

***İ.HƏSƏNQALA***
***XQ***

# Fransada hakimiyyət böhranı



**(əvvəli 1-ci səhifədə)**

Fraksiya rəhbəri bildirib ki, əgər Lekornu senzuradan qaçmaq istəyirsə, son 8 ildə aparılan siyasətdən tamamilə əl çəkməlidir: "Lekornu Emmanuel Makronun seçildiyi andan davam edən gərgin vəziyyəti dəyişməlidir. Hərçənd ona etimadım azdır, amma əvvəlcədən hökm vermirəm. Bu olmasa, baş nazirə qarşı etimadsızlığı dəstəkləyəcəyik". Le Pen, eyni zamanda, Lekornunun ümumi siyasi proqramı barədə çıxışından əvvəl senzuraya məruz qalmayacağını da açıqlayıb. Fraksiya rəhbərinin açıqlaması onun "La France Insoumise"dən fərqli mövqe tutduğunu göstərir.

**Ekspert rəyi**



**Sultan ZAHİDOV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

Marine Le Penin partiyası əvvəldən bildirmişdi ki, onlar Sebastian Lekornuya qarşıdırlar. Çünki Lekornu Makronun yaxın müttəfiqidir və onun hökumətdəki mövqeyi buna əsaslanır. Marin Le Pen tərəfdaşları qarşısında çıxış edərkən demişdi ki, ölkəyə yenilik lazımdır. Makronun adamının baş nazir olması isə bu yeniliyin baş verməyəcəyini göstərir. Bu baxımdan həm ifrat sağçılar, həm də Melanşonun rəhbərlik etdiyi ifrat solçular Lekornuya kəskin etiraz edirlər. Lekornu hazırda büdcə məsələsində özünə tərəfdaş tapmağa və solçularla anlaşmağa çalışır. Artıq bir neçə gündür ki, Lekornu ilə solçuların rəhbəri Olivier Faure arasında danışıqlar davam edir. Məsələ ondadır ki, solçular varlı təbəqədən daha çox vergi tutulmasını nəzərdə tutan "Zuskman vergisi"ni tətbiq etmək istəyirlər. Bu isə Lekornunun istədiyi ssenari deyil. Büdcə məsələsində hələlik solçularla razılıq əldə olunmayıb. Fransada solçuların tərəfdarları etiraz aksiyaları keçirirlər.

Bu gün Olivier Faure ilə növbəti görüş olmalıdır. Görüşdən öncə Olivier Faure tələb edib ki, büdcənin tam layihəsi onlara təqdim edilsin və sonra fikirlərini bildirəcəklər. Lekornu hələ hökumətini tam formalaşdırmayıb. Onun əsas məqsədi büdcə məsələsində tərəfdaş tapmaqdır. Fransanın 2026-cı il büdcəsi hazırda gündəmdədir. Əvvəlki baş nazirin təklif etdiyi büdcə layihəsi bəyənilmədiyi üçün istefaya göndərilmişdi. İndi Lekornu bəzi dəyişikliklər etsə də, büdcə layihəsi ilə bağlı digər partiyalar arasında tam razılıq yoxdur. Bu da onun işini çətinləşdirir. Əgər Lekornu büdcə layihəsi ilə bağlı digər partiyaları, xüsusilə solçuları razı sala bilməzsə, ona qarşı etimadsızlıq votumu tətbiq oluna bilər. Bu halda Makron növbədənkənar parlament seçkilərinə getməyə məcbur olacaq. Böhranın əsas səbəbi odur ki, 2024-cü il seçkilərindən sonra parlament "asılı" vəziyyətdədir. Yəni heç bir partiyanın üstünlüyü yoxdur. Məhz bu səbəbdən hökumət tez-tez dəyişir. Vəziyyət həm ölkədaxili siyasi vəziyyəti gərginləşdirir, həm də iqtisadiyyata ciddi zərbələr vurur. Dövlət borcu 3,3 trilyondan çoxdur, büdcədə ciddi defisit yaranıb.

**ARAYIŞ:** *"La France Insoumise" (LFI) Fransada sol populist və antineoliberal siyasət yürüdən siyasi qüvvələrdən biridir. 2016-cı ildə Jan–Lyuk Melanşon tərəfindən yaradılan partiya sosial ədalətin təmin olunmasını, dövlətin iqtisadi rolunun gücləndirilməsini və demokratik islahatları əsas məqsəd kimi qarşıya qoyub. Partiya, həmçinin gəlirlərin qeyri-bərabər bölünməsinə, işsizliyə və sosial təminat məsələlərinə qarşı aktiv mövqe tutur. Bu yanaşmalar onu digər sol partiyalardan fərqləndirir və Makron hökumətinin liberal iqtisadi siyasətinə qarşı əsas müxalifət qüvvəsinə çevirir.*

Hazırda "La France Insoumise" baş nazir Sebastian Lekornu və onun prioritetlərini ciddi şəkildə tənqid edir. Partiyanın narazılığı bir neçə istiqamətdə formalaşıb. Birincisi, partiya Lekornunun çıxışından asılı olmayaraq parlamentin açılışından dərhal sonra senzura təklifi vermək istəyir ki, bu da hökumət siyasətinə qarşı etirazı nümayiş etdirir. Amma Lekornunun son səkkiz ildə aparılan neoliberal siyasəti davam etdirəcəyi gözlənilir. LFI hesab edir ki, Lekornu siyasətində dəyişiklik etməsə, sosial ədalətin və iqtisadi bərabərliyin təmin olunması müşkülə dönəcək. Mövcud şəraitdə sol populistlərin parlament təşəbbüsü "Rassemblement National" (RN) kimi sağçı partiyaların ehtiyatlı davranışı ilə toqquşur. Bu da Fransada parlamentdəki sağ və sol qanad arasında strateji oyunların güclənəcəyini göstərir. LFI-nin narazılığı həm partiyanın radikal sol imicini qorumaq, həm də hökumət siyasətinə dərhal təzyiq göstərmək məqsədi daşıyır. Beləliklə, "La France Insoumise" sosial-iqtisadi ədalət və dövlət müdaxiləsini önə çıxararkən, Marin Le Penin liderlik etdiyi Rassemblement National (RN) milli suverenlik və sağçı populizm üzərində dayanır. Bu ideoloji fərqlər tərəflər arasında qərəzli mövqe formalaşdırır. LFI RN-in açıqlamalarını manipulyasiya və populizm kimi qiymətləndirir. RN isə LFI-nin tənqidlərini məqsədli siyasi oyun hesab edir. Parlament çıxışları, media və sosial şəbəkələrdə yayılan açıqlamalar qarşıdurmanı daha da dərinləşdirir və cəmiyyətdə narazılıq, etiraz potensialını artırır. Bu vəziyyət Fransada siyasi diskursu qanunvericilik və qərarlardan ibarət olmayan, ideoloji, emosional gərginliyi əks etdirən mənzərəyə çevrilir. Analitik baxımdan, belə qərəzli qarşıdurmalar ölkənin siyasi sabitliyi və sosial həmrəyliyi üçün risk amilidir və yaxın perspektivdə onun seçki və qanunvericilik prosesinə təsirini artırmaq ehtimalı yüksəkdir.

Belə bir deyim var: qarşıdurmalar fərqlərlə yanaşı, niyyətləri də ortaya çıxarır. "La France Insoumise" ilə Marin Le Pen arasındakı qarşıdurma da ideologiyaların toqquşduğu, qərəzin havada dolandığı səhnəni xatırladır. Le Penin açıqlamaları zamanı fraksiyasının atdığı addımları Melanşonun partiyası ilə müqayisəsi "yarış" təsiri bağışlayır. Bəs, prosesin kökündə nə dayanır? Siyasətdə ideoloji fərqlər tərəflər arasında qərəzli mövqe formalaşdırır. Melanşon Le Penin açıqlamalarını manipulyasiya və populizm kimi qiymətləndirir. Le Pen isə Melanşonun tənqidlərini məqsədli siyasi oyun hesab edir. Bununla yanaşı, Melanşon daha çox cəmiyyətin aşağı təbəqələrinə müraciət edərək populist tonla sərt tənqidlər səsləndirir və sosial narazılıqdan "siyasi generator" kimi istifadə edir. Le Pen isə sərt miqrasiya siyasəti, milli suverenlik və sağçı populizmə üstünlük verir, Fransanın "ənənəvi dəyərlərini" qorumağı ön plana çıxarır. Bu ideoloji fərqlilik qarşıdurmanı həm parlament, həm də ictimai səviyyədə daha dramatik edir. Melanşonun çağırışları işçi və gənc təbəqələrdə geniş rezonans doğurursa, Le Pen kənd və kiçik şəhərlərin seçicilərini milli identiklik və təhlükəsizlik mövzularında cəmləyir. Beləliklə, siyasi toqquşma cəmiyyətin müxtəlif təbəqələrinə təsir edən geniş sosial fenomenə çevrilir. Parlament çıxışları, media və sosial şəbəkələrdə yayılan açıqlamalar qarşıdurmanı daha da dərinləşdirir və ictimaiyyətdə narazılıq, etiraz potensialını artırır.

Sonda bir daha vurğulayaq ki, hazırda baş nazir Sebastian Lekornu Fransa daxilindəki gərginlik mühitinin mərkəzində dayanır. LFI onu hökumətin "sabitlik maskası" kimi görür, RN isə yetərincə sərt və milli maraqları qoruyan addımlar atmamaqda ittiham edir. Ümumilikdə, Fransa daxilində yeni baş nazirin personası qərəz və ideoloji qarşıdurmanın katalizatoru kimi qiymətləndirilir.

***Nəzrin ELDARQIZI***
***XQ***

# İrəvanda "daxili və xarici düşmən" kabusu dolaşır

**(əvvəli 1-ci səhifədə)**

Ermənistan iqtisadiyyatı zəifdir, resurs çatışmazlığı hər sahədə hiss olunur. Buna baxmayaraq iqtisadi artımdan danışılır. Əslində, son illər Ermənistan iqtisadiyyatında yüksək artım "sabun köpüyü" effektinə malikdir. Əvvəlcə şişir, sonra isə partlayır. 2023–2024-cü illərdə yüksək artımın qeyd olunduğu müxtəlif sahələr indi tənəzzülə uğrayıb. Sənaye istehsalı sürətlə geriləyib, kənd təsərrüfatı əhalini ərzaqla təmin edə bilmir. Ölkəyə gələn turistlərin sayı azalıb. 2025-ci ilin mart ayına olan məlumata görə, sənaye istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 19,4 faiz azalıb. Eyni zamanda, xarici ticarət dövriyyəsində kəskin azalma müşahidə olunub. Buna Rusiyadan idxal edilən qızılın ilkin emalı və sonradan üçüncü ölkələrə təkrar ixracının qismən dayandırılmasının səbəb olduğu bildirilib. Yəni Hayastanın iqtisadi artımının kökündə yerli istehsal və xidmət deyil, Qərbin Rusiyaya qarşı sanksiyaları fonunda bu ölkənin qızılının ixracı üçün əsas tranzit mərkəzinə çevrilməsi dayanır.

Hayastan milyardlarla dollarlıq Rusiya qızılını öz məhsulu kimi ixrac edib. Hazırda bu təkrar ixracın sanksiyalar səbəbindən qarşısı alınır ki, bu da Ermənistanın iqtisadi göstəricilərində özünü göstərir. Atalar demişkən, özgə atına minən tez düşər.

Bu gün ölkə iqtisadiyyatı vaxtaşırı resurs çatışmazlığı ilə qarşılaşır. İlk növbədə tikinti materiallarının qıtlığı və buna uyğun olaraq qiymət artımı aydın hiss olunur. Əsas səbəb ilk növbədə, İrəvanın illər boyu apardığı destruktiv və təcridçi siyasətdir. Region ölkələri ilə normal münasibətlər qurmaq əvəzinə, Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış edib, nəticədə özünü regional layihələrdən və iqtisadi inteqrasiyadan təcrid edib. Cənubi Qafqazın tranzit imkanlarından, enerji və nəqliyyat layihələrindən kənarda qalmaqla, iqtisadi inkişaf perspektivini illərlə məhdudlaşdırıb.

Enerji asılılığının Rusiya və İrandan təmin olunması isə onun enerji təhlükəsizliyi baxımından nə qədər zəif və balanssız durumda olduğunu göstərir. Kadr çatışmazlığı və təhsil problemləri də struktur islahatlarının aparılmaması ilə əlaqədardır. Ermənistan cəmiyyəti uzun illər münaqişə və milli populizm ideologiyası ilə idarə olunub. Bu da ölkədə insan kapitalının inkişafına əngəl törədib. Xarici təhsilə can atan gənclər isə ölkədə gələcək görmədikləri üçün daha yaxşı imkanları xaricdə axtarmağa məcbur qalırlar. Yerli relyef şəraitində böyük ev tikmək, ora su və qaz xətti çəkmək baha başa gəlir. Xaricdə yaşayan ermənilər buna görə rahatlıqlarını, normal şəraitini qoyub heç vaxt Hayastana köçməz.

Təbiətcə ermənilər əsəbi, emosional və qısqancdırlar. Lakin Rusiyada, ABŞ-da, Fransada yaşayan ermənilər yaşadıqları ölkənin mentalitetinə uyğunlaşıblar. Buna görə də onların çoxunu Hayastan ermənilərinin emosional davranış tərzi qorxudur və ya qıcıqlandırır. Biznes mühitində "sözlə razılaşmaq" kimi qeyri-rəsmi yanaşmanın dominant olması Ermənistanın qanunun aliliyini və institusional idarəetməni hələ də təmin edə bilmədiyini göstərir. Bu isə nəinki xarici sərmayə, öz diaspor nümayəndələri üçün cəlbedici etməkdən uzaqlaşdırır.

Daha bir səbəb yerli ermənilərin gəlmələrə münasibəti ilə bağlıdır. Buna inanmaq çətindir, lakin ermənilər repatriantlara isti yanaşmırlar. Əlbəttə, qan qohumluğu ilə bağlı ailələr bütün nəslin birləşməsini arzulayır. Lakin ölkədən köçmüş insanlara münasibət kifayət qədər soyuqdur. Müstəqillik illərində Ermənistanda çoxsaylı diasporanı ölkəyə qaytarmağa yönəlmiş bir dənə də olsun genişmiqyaslı islahat və ya proqram həyata keçirilməyib. Hər şey epizodik tədbirlərlə məhdudlaşıb. Erməni mentalitetində qəribə şəkildə belə bir inanc formalaşıb ki, Rusiya, ABŞ və Fransadakı ermənilər daha varlı və rahat yaşayırlar. Əslində, bu münasibət təkcə sosial psixologiya ilə izah oluna bilməz. Bu münasibət Ermənistanın uzun illər öz daxilində yaratdığı qapalı və özünütəcrid ideologiyasının birbaşa nəticəsidir. Əgər bir cəmiyyət uzun illər boyu yalnız "daxili düşmən" və "xarici düşmən" obrazları üzərində formalaşıbsa, təbii ki, ona xaricdəki soydaşları da şübhə ilə yanaşacaq.

Mövzu ilə bağlı **politoloq Yeganə Hacıyeva** XQ-yə bildirdi ki, Ermənistan iqtisadi baxımdan hələ də inkişaf etməkdə olan bir ölkədir: "İşsizlik, aşağı maaş, korrupsiya və məhdud imkanlar repatriasiya fikrində olan insanlar üçün ciddi maneələr yaradır. Xaricdə, xüsusilə də Qərb ölkələrində yüksək həyat standartlarına alışmış ermənilər üçün buraya köçmək həyat keyfiyyətində ciddi dəyişiklik deməkdir. Bundan əlavə, son illər bölgədə baş verən siyasi və hərbi münaqişələr repatriasiya planlarını çətinləşdirən amillərdəndir. Kimlik məsələsi də burada önəmli rol oynayır. Diaspordakı ermənilər öz milli kimliklərini qorumağa çalışsalar da, onların gündəlik həyat tərzi artıq yaşadıqları ölkələrə uyğunlaşıb. Onlar özlərini həm erməni, həm də amerikalı, fransız və ya rus kimi qəbul edirlər. Erməni dili, adət-ənənələri və mədəniyyəti diasporda müəyyən dairələrdə yaşadılır, lakin bu, daha çox simvolik və məişət səviyyəsində həyata keçirilir. Belə bir vəziyyətdə Vətən sevgisi praktiki addımlardan çox, emosional bağlılıq kimi təzahür edir. Bu, çoxşaxəli tarixi, sosial və psixoloji amillərin nəticəsidir".



***P.ƏFƏNDİYEV***
***XQ***

# Avropanın təhlükəsizlik arxitekturasında yeni mərhələ

## *Kopenhagen sammiti qitənin gələcəyi üçün ciddi dialoq platformasıdır*

**Oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində – Skandinaviyanın ikinci ən böyük sərgi və konfrans mərkəzi olan "Bella Center"də "Avropa Siyasi Birliyi"nin (ASB) VII Zirvə toplantısı keçirilib. Zirvə toplantısında, ümumilikdə, 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edib. Sammitə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen də qatılıb. Qonaqları Danimarkanın Baş naziri Mette Frederiksen qarşılayıb.**



Qeyd edək ki, ASB təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir. 2024-cü ilin iyulunda Oksfordşir qraflığının Vudstok şəhərindəki tarixi Blenheym qəsrində keçirilən dördüncü sammitin yekun mətbuat konfransı zamanı Böyük Britaniyanın Baş naziri Keir Starmer tərəfindən Danimarkanın yeddinci sammitə ev sahibliyi edəcəyi açıqlanmışdı. Budəfəki Zirvə görüşünün açılış plenar sessiyasında və ondan sonra keçirilən dəyirmi masalarda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya–Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olunub.

Bəli, Avropada təhlükəsizlik və sabitlik məsələləri son illər qitə ölkələrinin ən böyük gündəm mövzusuna çevrilib. Rusiya–Ukrayna müharibəsinin davam etməsi, enerji bazarındakı qeyri-sabitlik, miqrasiya axınları, iqtisadi böhranlar və yeni texnoloji risklər bu ehtiyacı daha da artırır. Bu baxımdan ASB kimi hökumətlərarası platformalar kontinental əməkdaşlıq üçün mühüm alət rolunu oynayır. ASB-nin yaradılmasında məqsəd də təkcə Avropa İttifaqı ölkələrini deyil, həm də təşkilata üzv olmayan dövlətləri eyni masa ətrafında birləşdirmək, qitənin təhlükəsizlik və rifahına dair birgə cavabdehliyi artırmaqdır. Bu platforma xüsusilə kiçik ölkələr üçün vacibdir. Çünki onlar öz maraqlarını böyük güclərlə yanaşı müdafiə etmək və regional təşəbbüslərdə iştirak etmək imkanı qazanırlar. Avropa İttifaqından fərqli olaraq, ASB hər hansı hüquqi öhdəlik qoymur, qərarların icrası isə üzv ölkələrin siyasi iradəsindən asılıdır. İndiyədək keçrilmiş 6 sammit də məhz bu ruhda təşkil olunub. Bu yanaşma, əslində, platformanın uzunmüddətli perspektivə hesablandığını göstərir.

Budəfəki görüşün açılış plenar sessiyası və ardınca keçirilən dəyirmi masa müzakirələri Avropanın qarşısında duran real təhlükələri bir daha önə çıxardı. Qeyd etdiyimiz kimi, əsas müzakirə mövzuları Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya–Ukrayna müharibəsinin davam edən nəticələri, iqtisadi sabitlik və miqrasiya problemləri oldu. Bununla yanaşı, ənənəvi və hibrid təhlükələr, informasiya müharibələri, enerji təhdidləri də diqqət mərkəzində idi. Maraqlıdır ki, ASB platforması Avropada həm siyasi, həm də iqtisadi məsələlərdə koordinasiyanı artırsa da, o, qitənin müxtəlif regionlarında fərqli gözləntilər doğurur. Şərqi Avropa ölkələri üçün əsas prioritet Rusiya təhdidlərinə qarşı müdafiə mexanizmlərinin gücləndirilməsidir. Cənubi Avropa isə daha çox miqrasiya dalğalarının idarə olunmasında ortaq həll yolları axtarır. Qərbi Avropa dövlətləri bu iki məsələyə əlavə olaraq iqtisadi təhlükəsizlik və enerji sabitliyini prioritet sayır. Bu fərqli baxışlar platformanın gələcək fəaliyyətinə müəyyən çətinliklər yarada bilər.

VII sammitdəki müzakirələr göstərdi ki, Avropanın təhlükəsizliyi yalnız hərbi alyanslarla təmin olunmur. Burada siyasi həmrəylik, bir-birinə etimad və ortaq iqtisadi strategiyalar da önəmlidir. Rusiya–Ukrayna müharibəsi bu reallığı açıq şəkildə üzə çıxarıb: vahid mövqesiz Avropa həm təhlükəsizlik, həm də sosial-iqtisadi baxımdan zəifləyə bilər.

***

Sammitin diqqətçəkən məqamlarından biri də hibrid təhlükələrlə mübarizə barədə gedən müzakirələr oldu. Məlumdur ki, informasiya hücumları, kiberhücumlar, enerji bazarında manipulyasiyalar müasir dövrdə ənənəvi müharibə qədər dağıdıcı təsirə malikdir. Bu səbəbdən ASB-nin gələcəkdə kibertəhlükəsizlik üzrə ortaq platforma yaratmaq təşəbbüsü müsbət qarşılanır.

Eyni zamanda, müzakirələrin iqtisadi təhlükəsizlik hissəsi göstərdi ki, Avropa qitəsi hazırda qlobal bazar risklərinə qarşı həssasdır. Enerji qiymətlərindəki dəyişkənlik, istehsal zəncirlərinin asılılığı, "yaşıl enerji" keçidinin ləngiməsi kimi problemlər həm böyük, həm də kiçik ölkələrə mənfi təsir edir. Bu çətinliklərdən çıxış yolu kimi Avropa daxilində daha sıx iqtisadi koordinasiya və investisiya mühitinin yaxşılaşdırılması önə çəkildi.

Miqrasiya isə sammitin ən mübahisəli mövzularından biri idi. Müharibələr, silahlı münaqişələr, eləcə də iqlim dəyişikliyi səbəbindən Avropaya yönələn miqrant axını ilə bağlı vahid yanaşma tapılmayıb. Şimal və Qərbi Avropa ölkələri daha sərt miqrasiya siyasətinə üstünlük verir, Cənubi Avropa dövlətləri isə yükün bərabər bölüşdürülməsini tələb edir.

Ümumilikdə, Kopenhagen sammiti göstərdi ki, ASB "qoca qitə"nin gələcəyi üçün vacib dialoq platformasıdır. Lakin bu platformanın real nəticələr verməsi üçün qərarların yalnız bəyanatlarla məhdudlaşmaması, konkret icra mexanizmlərinin işlənib hazırlanması zəruridir. Nəticə etibarilə, "Avropa Siyasi Birliyi"nin bugünkü fəaliyyəti Avropanın təhlükəsizliyinə dair siyasi iradənin nümayişi kimi qiymətləndirilə bilər. Lakin sürətlə dəyişən geosiyasi mənzərə fonunda bu iradənin praktik addımlara çevrilməsi əsas hədəf olaraq qalır. Bu baxımdan 2026-cı ilin yazında Ermənistanda keçiriləcək növbəti VIII sammitin gündəliyi Avropa ölkələrinin real əməkdaşlıq potensialını sınayacaq növbəti mühüm addım olacaq.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**



**Ramiyə MƏMMƏDOVA,**
**politoloq**

**"Avropa Siyasi Birliyi" (ASB) ideyası ilk dəfə 2022-ci ilin mayında – Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin yaratdığı təhlükəsizlik böhranı fonunda irəli sürüldü. Avropa İttifaqının sərhədlərindən kənarda qalan, lakin qitənin təhlükəsizlik və iqtisadi sabitliyinə təsir edən dövlətləri də vahid platformada toplamaq məqsədilə bu təşəbbüsə start verildi.**

ASB-nin mühüm xüsusiyyəti ondan ibarətdir ki, platforma heç bir ölkəni məcburi öhdəliklərə bağlamır. Bu səbəbdən kiçik dövlətlər burada daha sərbəst çıxış edir və öz milli maraqlarını qorumaq imkanına malikdir. Avropa İttifaqının ağır bürokratik prosedurlarından fərqli olaraq, ASB daha çevik müzakirə və qərar mexanizmi ilə diqqət çəkir. Təşkilatın tarixi az olsa da, il ərzində iki dəfə – yazda və payızda olmaqla artıq yeddi sammit keçirilib. Onu da qeyd etmək lazımdır ki, yaz sammiti Aİ üzvü olmayan ölkənin, payız sammitinin isə Aİ üzvü olan ölkənin ərazisində keçirilməsi razılaşdırılıb. 2028-ci ilin yazında XII Zirvə görüşü Azərbaycanda keçiriləcək. Bu görüşlər göstərir ki, qitə ölkələri ortaq təhlükələrə qarşı kollektiv cavab verməyə hazırdır. Lakin hələ də konkret icra mexanizmlərinin olmaması, bəzi məsələlərdə fikir ayrılıqları platformanın effektivliyini məhdudlaşdırır.

Zənnimcə, Kopenhagen sammitindən sonra ASB-nin fəaliyyətində iki tendensiya güclənəcək. Bunlardan birincisi müdafiə və kibertəhlükəsizlik sahəsində koordinasiyanın artırılması, ikincisi isə enerji bazarında dayanıqlı əməkdaşlıq mexanizmlərinin qurulmasıdır. Bu, Avropanın həm təhlükəsizlik, həm də iqtisadi cəhətdən daha az asılı olmasına xidmət edə bilər.

Uğurla keçirilən hər bir sammit ASB-nin davamlılığını təsdiqləyir. Bu həm də onu göstərir ki, platforma artıq bir layihə deyil və Avropanın siyasi arxitekturasında mühüm elementə çevrilməkdədir.

# "Qafqaz üçlüyü": yaxın 10 ilin siyasi mənzərəsi

**Cənubi Qafqaz bu gün də dünya siyasətində ən çox müşahidə olunan regionlardan biridir. Azərbaycan, Ermənistan və Gürcüstan – üç postsovet respublikası hələ də həm tarixdən gələn mirasın, həm də geosiyasi rəqabətlərin təsiri altındadır. SSRİ-nin dağılmasından sonra müstəqilliyin gətirdiyi imkanlarla yanaşı, Ermənistan–Azərbaycan münaqişəsi, sərhəd qarşıdurmaları, etnik gərginliklər və böyük güclərin təzyiqi bu dövlətlərin xarici siyasət kurslarını müəyyənləşdirib.**




Bu gün regionun mənzərəsi daha mürəkkəbdir. Azərbaycan Qarabağda hərbi-siyasi üstünlüyünü təsdiqləyərək suverenliyini bərpa edib və indi bu qələbəni uzunmüddətli sülh və regional inteqrasiyaya çevirmək üçün strateji diplomatiyadan istifadə edir. Gürcüstan isə Qərbə inteqrasiya yolunda daxili siyasi sabitlik axtarışındadır; Tbilisinin uğuru həm daxili siyasi konsensusdan, həm də Abxaziya və Osetiya məsələlərinə görə xarici güclərin manevrlərini balanslaşdırmaqdan asılı olacaq. Ermənistan isə təhlükəsizlik boşluğunu doldurmaq və Rusiyanın zəifləyən təsirini kompensasiya etmək üçün yeni tərəfdaşlar axtarır, lakin daxili siyasi parçalanma bu istiqamətdə çevik addımlar atmağı çətinləşdirir.

Burada açıq sual ortaya çıxır: yaxın on ildə "Qafqaz üçlüyü"nün taleyini hansı amillər müəyyən edəcək – daxili siyasi sabitlik, enerji və tranzit layihələrinin uğuru, yoxsa böyük güclərin rəqabəti? Analitik baxımdan, Cənubi Qafqazın yaxın onillikdəki taleyi yalnız ölkələrin daxili siyasi və iqtisadi göstəriciləri ilə müəyyənləşməyəcək; regionun inkişaf trayektoriyası, eyni zamanda, beynəlxalq aktorların strategiyaları və böyük güclərin manevrləri ilə formalaşacaq. Enerji və tranzit diplomatiyası, sərhəd gərginliklərinin effektiv idarə olunması və regional iqtisadi əməkdaşlıq siyasi legitimliyi möhkəmləndirən və strateji stabilliyi təmin edən kritik vasitələr kimi çıxış edir.

Azərbaycanın Qarabağ müharibəsində qələbəsi regionun geosiyasi mənzərəsini tamamilə dəyişən strateji dönüş nöqtəsi kimi qiymətləndirilir. Qələbə ölkəyə strateji diplomatiya sahəsində yeni manevr imkanları açdı. Məhz bu kontekstdə əsas suallardan biri odur ki, Azərbaycan regional təsirini gücləndirərək əldə etdiyi üstünlüyü sülh və inteqrasiya prosesinə çevirməyi necə təmin edə bilər? Burada enerji və tranzit diplomatiyası mühüm rol oynayır; TRIPP və digər nəqliyyat layihələri ölkənin regional inteqrasiyada lider rolunu möhkəmləndirir, iqtisadi fayda ilə bərabər, siyasi təsir dairəsini də genişləndirir. Lakin bu layihələrin uğuru Ermənistanın daxili siyasi vəziyyətinə və Rusiyanın potensial təzyiqlərinə bağlıdır. Əgər Ermənistan radikal qüvvələr və daxili blokadalar səbəbindən sülh paketini gecikdirsə, Azərbaycan strateji təşəbbüsləri ilə bu çətinlikləri aradan qaldırmağa hazırdır.

Azərbaycanın diplomatiyası çoxvektorlu xarakter daşıyır; Türkiyə ilə strateji tərəfdaşlıq enerji və təhlükəsizlik sahəsində sabitliyi təmin edir, ABŞ-ın vasitəçiliyi sülh prosesini sürətləndirir, Avropa İttifaqının dəstəyi isə enerji diversifikasiyası və investisiya imkanlarını genişləndirərək regional inteqrasiyanı gücləndirir. Bəs çoxvektorlu diplomatiyanın koordinasiyasız qalması Azərbaycan üçün hansı riskləri yarada bilər? Cavab ondan ibarətdir



ki, aktorlar arasındakı qarşıdurma və koordinasiyanın pozulması regional liderlik imkanlarını məhdudlaşdıra, sülh prosesini ləngidə və Azərbaycanın strateji üstünlüyünü zəiflədə bilər. Buna görə də rəsmi Bakı xarici aktorlarla balanslı münasibətləri qoruyaraq manevr imkanlarını davamlı şəkildə genişləndirməlidir.

Rusiya və İranın ehtiyatlı, lakin təsirli manevrləri Azərbaycanın strategiyasını formalaşdırarkən həm imkan, həm də risk amili rolunu oynayır. Rusiya təsir dairəsini qorumağa çalışır, İran isə ehtiyatlı siyasət yürüdərək enerji və tranzit layihələrinin icrasına potensial dəyişkənlik əlavə edir. Azərbaycan regional liderliyini qorumaq üçün bu faktorlarla effektiv manevr edə bilərmi? Cavab aydındır: diplomatiyanın çoxvektorlu xarakteri, strateji tərəfdaşlarla koordinasiya, enerji və tranzit layihələrinin icrası və daxili siyasi stabillik birləşdirilməlidir ki, həm risklər neytrallaşsın, həm də imkanlar maksimum dərəcədə istifadə olunsun.

Qeyd edilməlidir ki, Ermənistanda 2026-cı ildə keçiriləcək parlament seçkiləri regionun taleyində həlledici rol oynayacaq. Paşinyanın qalması ssenari olaraq sülhün və Qərb ilə əlaqələrin dərinləşməsinə imkan yaradır, onun praqmatik ritorikası sülh paketinin icrasını sürətləndirə və daxili radikallaşmanı nəzarətdə saxlaya bilər. Azərbaycanın enerji və tranzit diplomatiyası burada açar rol oynayır: Bakı Tramp marşrutu vasitəsilə İrəvanı regional inteqrasiyaya cəlb edərək həm iqtisadi, həm də siyasi fayda təmin edə bilər. ABŞ və Avropa vasitəçiliyi Paşinyanın Qərb təşviqlərinə açıqlığı sayəsində effektivləşir; Türkiyə isə Azərbaycanla birgə İrəvana iqtisadi və siyasi stimul təqdim edərək normallaşma prosesini sürətləndirə bilər. Gürcüstan isə enerji tranzitinin sabitliyini qoruyur; BTC neft və BTƏ qaz layihələri vasitəsilə həm iqtisadi, həm də strateji maraqlarını təmin edir. Bu trayektoriya optimistdir: regionda inteqrasiya, enerji və iqtisadi əməkdaşlıq güclənir, sülhün icrası üçün mexanizmlər möhkəmlənir. Lakin uzunmüddətli stabillik üçün Paşinyanın daxili legitimliyi və iqtisadi islahatları diqqətdə saxlanılır.

Digər bir ehtimal ssenari – Paşinyan qalır, lakin daxili siyasi təzyiq güclüdür. Bu halda, radikal və revanşist qüvvələr parlamentdə siyasi maneə yaradır, sülh paketinə qarşı etirazlar baş verir və sosial-siyasi qütbləşmə dərinləşir. Xarici vasitəçilərin təşəbbüsləri məhdud qalır, çünki daxili qarşıdurmalar sülhün icrasını əngəlləyir. Azərbaycanın enerji və tranzit layihələri texniki baxımdan işləyir, lakin İrəvanın qeyri-müəyyən mövqeyi region inteqrasiyasını gecikdirir. Gürcüstanın tranzit rolu qorunsa da, uzunmüddətli iqtisadi planlar siyasi sabitlikdən asılıdır. Böyük güclərin strategiyaları koordinasiyasız qala bilər və sülh formal olaraq qalır, lakin inteqrasiya zəifləyir. Bu ssenari qismən sərhəd qarşıdurmalarına gətirib çıxara bilər.

Ən pessimist ssenari isə Paşinyanın hakimiyyətdən getməsi ilə əlaqədardır. Yeni millətçi və ya köhnə elitaya bağlı hökumət formalaşarsa, Ermənistanın Rusiyaya yaxınlaşması qaçılmazdır, Qərbin təsiri zəifləyir və sərhəd gərginlikləri yenidən aktivləşir. Bu zaman regional qeyri-sabitlik artır və humanitar risklər yüksəlir. Belə vəziyyət həm iqtisadi, həm də siyasi baxımdan Cənubi Qafqaz üçün ən problemli trayektoriyadır.

Gürcüstanın rolu bu kontekstdə həm həlledici, həm də həssasdır. Abxaziya və Cənubi Osetiya məsələləri Tbilisinin manevr imkanlarını məhdudlaşdırır və gələcək onillikdə daxili siyasi sabitliyi, iqtisadi tranziti və xarici siyasət çevikliyini müəyyən edəcək. Abxaziya və Osetiya vasitəsilə Rusiya Gürcüstana hərbi və siyasi təzyiq göstərə bilər; bu isə Tbilisinin Qərb inteqrasiyasını və daxili siyasi balansını risk altına salır. Digər tərəfdən, Azərbaycan–Ermənistan sülhü Gürcüstan üçün tranzit və enerji marşrutlarını genişləndirərək əlavə iqtisadi dividentlər təmin edə bilər, BTC və BTƏ layihələrinin effektivliyini artıraraq Qara dəniz limanlarını daha rəqabətqabiliyyətli edir. Lakin bunun üçün İrəvanın sülhə sadiqliyi və Rusiyanın potensial maneələri nəzərə alınmalıdır.

Daxili siyasi sabitlik baxımından Gürcüstanın perspektivi mürəkkəbdir. Abxaziya və Osetiya məsələləri milli təhlükəsizlik narahatlıqlarını artıraraq daxili polarizasiyanı gücləndirə bilər. Əgər tranzit gəlirləri və regional iqtisadi əməkdaşlıq güclü olarsa, siyasi konsensus yaradaraq riskləri yumşaltmaq mümkündür. Əks halda, daxili qütbləşmə və siyasi qarşıdurmalar investisiya axınını və iqtisadi sabitliyi zəiflədə bilər. Gürcüstanın manevr qabiliyyəti burada xarici tərəfdaşlıqla sıx bağlıdır: Türkiyə və Azərbaycanla iqtisadi və tranzit əməkdaşlığı, Aİ və ABŞ ilə təhlükəsizlik və struktur islahatları, həmçinin Rusiyaya qarşı ehtiyatlı balans siyasəti Tbilisinin uğurunu müəyyən edəcək.

Azərbaycan–Ermənistan sülhü Tbilisi üçün fürsətlər yaradır. Enerji və tranzit layihələrinin genişləndirilməsi, regional ticarət artımı və Qərb investisiyaları Gürcüstan üçün iqtisadi və siyasi kapital yaradır. Sülhün nəticəsində Tbilisi struktur islahatlarını, sərhəd və təhlükəsizlik mexanizmlərini gücləndirərək və xarici tərəfdaşlarla balanslı siyasət apararaq real gəlirə çevrilə bilər.

Cənubi Qafqazın 2025–2035-ci illər trayektoriyası göstərir ki, region artıq passiv müşahidəçi deyil, əksinə, geosiyasi proseslərin fəal iştirakçısına çevrilməkdədir. Azərbaycanın enerji və tranzit diplomatiyası, Ermənistan rəhbərliyinin – xüsusilə Paşinyanın siyasət kursu və İrəvanın seçəcəyi istiqamət, Gürcüstanın tranzit və təhlükəsizlik baxımından oynadığı rol, həmçinin böyük güclərin regional manevrləri gələcək onilliyi müəyyən edəcək əsas faktorlar olacaq. Sülh yalnız sənədlərlə deyil, icra mexanizmləri, iqtisadi dividend və ictimai legitimləşmə vasitəsilə möhkəmlənə bilər. Hər üç paytaxt – Bakı, İrəvan və Tbilisi – üçün prioritetlər eynidir: ictimai qəbul, iqtisadi fayda və xarici aktorlarla balanslı münasibət.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Lənkəranda çəltikçilik dirçəldilir

## *Süfrələrimizdən isə öz düyümüzün ətri gəlir*

**Aramsız yağışlardan sonra göyün üzündən buludlar çəkilib. Günəşli, ılıq bir payız günüdür. Lənkəranın çəltik sahələrində biçinə yenidən start verilib.**



Bu il rayonda 780,2 hektar sahədə çəltik yetişdirilib. Ən iri çəltikçilik təsərrüfatı "BEST TARM" MMC-yə məxsusdur. Cəmiyyət tərəfindən Girdəni, Cil və Göyşaban kəndlərində 218,2 hektar sahədə çəltik əkilib. Cənubi Koreya istehsalı olan texnika vasitəsilə müasir üsulla əkin aparılıb.

Sahələr bol məhsuldan soraq verir. Bol, keyfiyyətli, ekoloji cəhətdən təmiz məhsul əldə etmək üçün çeşidli gübrələrdən istifadə olunub, vaxtında aqrotexniki tədbirlər görülüb. Təcrübəli aqronom Möhtəmən



Fərziyevlə iş başında görüşüb söhbət edirik:

– Çəltik tez yetişən bitkidir. Onun haqqında belə bir deyim də var: "Bir qırxında yaş, bir qırxında baş, bir qırxında aş". Həm də deyirlər ki, çəltik günəşin, suyun övladıdır. Suda doğulur, suda yaşayır, suda da yetişir. Artıq məhsul yetişib, yığım başlanıb. Yağışlı havalar işimizə xeyli mane oldu. İndi gecə-gündüz çalışırıq ki, biçini sürətləndirək, məhsul itkiyə getməsin.

Göz işlədikcə uzanan sahədə Hindistandan gətirilmiş və məhsuldarlığı yüksək olan "Belita" çəltik sortu əkilib. Girdəni kəndində qısa vaxtda 38 hektar sahənin çəltiyi biçilib. Məhsuldarlıq 6 tondan çoxdur. Biçin başlanandan, ümumilikdə, 400 tona yaxın çəltik yığılıb.

Söhbət zamanı Möhtəmən Fərziyev onu da qeyd etdi ki, 12 il əvvəl işə başlayanda cəmi 60 ton məhsul istehsal edilib. Əkin sahələri ildən-ilə artırılıb. Keçən il 191,5 hektar sahədə çəltik becərilib, 740 ton məhsul yığılıb. Bu il əkin sahələri 16,7 hektar genişləndirilib. Havalar imkan versə 800 tondan çox məhsul gözlənilir. İstehsal edilən düyü ölkəmizin daxili bazarlarına çıxarılır. Qiymətlər də sərfəlidir. "Belita" sort düyünün kiloqramı 2 manat 60 qəpiyə satılır.

Xarici bazarlara çıxmaq üçün məhsul istehsalını artırmaq lazımdır. Əkin və biçin işlərini aparan müasir texnikaya tələbat getdikcə artır. Həmsöhbətim bildirdi ki, iki kombayn işləsəydi, biçin vaxtında başa çatardı, məhsul itkiyə getməzdi.

...Çəltik sünbülünün xoş iyi ətrafa yayılır. Yaxınlıqda ara verməden kombayn işləyir. Möhtəmən Təbrizxan Mütəllimovun təcrübəli kombayncı olduğunu, gündə 8-10 hektar sahədə biçin apardığını deyir. Bunker dolduğundan sürücü Zakir Abbasov KAMAZ markalı maşını kombayna yaxınlaşdırır və məhsul maşına boşaldılır.

Çəltik yaxınlıqda dəyirmanda qurașdırılmış xüsusi aqreqatlarda qurudulur, sonra emala göndərilir. Sutka ərzində dəyirmanda 25 ton düyü istehsal olunur.

Fermerlər Türkiyədən gətirilmiş "Maritsa" adlı sortun becərilməsinə də üstünlük verirlər. "Maritsa" yüksək məhsuldarlığı ilə yerli sortlardan seçilir. Bu isə həm çəltikçiliklə məşğul olanların gəlirini artırır, həm də bazarın tələbatını daha yaxşı ödəməyə imkan yaradır.

Lənkəran Şəhər Statistika İdarəsinin rəis müavini Ağaddin Şahverdiyev gəlirli bitki olduğundan çəltikçiliyə marağın ildən-ilə artdığını dedi. Keçən il rayonda 628,1 hektar ərazidə çəltik əkini aparılıb və 2763,4 ton məhsul yığılıb. Orta məhsuldarlıq isə 44 sentner təşkil edib. Əvvəlki illə müqayisə etsək, cari ildə çəltik əkinləri 152,1 hektar çoxdur. Əhali təsərrüfatlarında da artım nəzərə çarpır. Ailə təsərrüfatları tərəfindən 318,5 hektar sahədə çəltik becərilib. Müasir texnologiyaların tətbiqi fermerlərin işini xeyli asanlaşdırıb.

Artıq fermerlər istehsal etdikləri məhsulu bazara çıxarırlar. Düyü və çay məhsullarının satışı ilə məşğul olan "Lankon" adlı dükanda alıcılara müxtəlif növ düyülər təklif olunur. Təcrübəli satıcı Niyazi Rufullayev yerli sakinlərin süfrəsində düyü məhsullarının üstünlük təşkil etdiyini, "ənbərbu", "sədri", "haşimi", "apollo" və yumru düyülərin daha çox satıldığını dedi. Qiymətlər 3-6 manat arasında dəyişir. Yüksək keyfiyyəti ilə seçildiyindən "Haşimi" sort düyüyə tələbat daha böyükdür.

Lənkəranın çəltik sahələrində biçin davam edir. Hava şəraitini nəzərə alaraq məhsulu tez və itkisiz yığmaq üçün işlər sürətlənib. Biçinin bir ay ərzində başa çatacağı nəzərdə tutulub.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Almanı atdım xarala...

## *Qubalı bağbanların bar sevinci nəğməyə dönür*

**Bu günlərdə Qubanın meyvə bağlarında məhsul yığımının ən qızğın çağıdır. Bağbanlar ilboyu min bir zəhmət hesabına yetişdirdikləri meyvəni mümkün qədər tez toplamağa çalışırlar. Sentyabrda havalar əlverişli olmayıb, ayın əvvəlində aramsız yağışlar yağıb. Sonrakı günlər də yağmurlu keçib. Bu da meyvə bağlarında dərimin sürətinin yavaşımasına səbəb olub.**

Amma meyvəçiliklə məşğul olan torpaq pay mülkiyyətçiləri və fermerlər hər dəfə yağış kəsilər-kəsilməz bağlara tələsiblər, ağacların bəhrini, bərəkətini yığıb yeşiklərə doldurublar. Meyvənin bir hissəsi yerli və paytaxt bazarlarına çıxarılıb, qalan hissəsi iri soyuducu anbarlara yığılıb.

Rayonun Birinci Nügədi kəndində yaşayan təcrübəli bağban Aslan Yusifov ailəsinə məxsus olan 2 hektara yaxın bağ sahəsində müxtəlif meyvə növləri becərərək onların tədarükü ilə məşğul olur. Onun sözlərinə görə, bu il yayda çəyirdəkli



meyvələrin – gilas, ərik və şaftalının toplanması üçün hava insafən əlverişli keçib. Payız "şıltaqlıq" etsə də, giley etməyə dəyməz.

Aslan sonra dedi:

– İndi əsas məqsədim qohum-qonşu, yəni hamılıqla, əl-ələ verib bağların bol məhsulunu toplamaqdır. Məhsulu nə qədər soyuducu anbarlara çatdıra bilsək, zəhmətimiz hədər getməz, itkimiz az olar.

Qeyd edək ki, meyvə dərimində Aslan Yusifova həyat yoldaşı Zümrüd, Bakıda yaşayan, amma ilin payız fəslində ezamiyyət götürüb meyvə yığımında iştirak etmək üçün kəndə gələn oğlu Rəşid və eləcə də qonşuları çox kömək edirlər.

Belə bir el deyimi var: torpaqda izi olanın, süfrədə payı olar. Aslan deyir ki, torpaq əmək itirən deyil. Şəxsən o, indi öz halal zəhmətilə ailəsini dolandıra bilir. Üstəlik, yeri düşəndə qohum-qonşuya, imkansızlara əl tutur.

Birinci Nügədi kəndində Aslan Yusifov kimi torpağın dilini tapan bağbanlar çoxdur. Beləlırindən biri də Mirzə İsayevdir. Vaxtilə Rusiyada xırda ticarətlə məşğul olurdu. İşləri də pis getmirdi. Amma hiss edirdi ki, əsl rahatlığını, xoşbəxtliyini doğma yurdunda tapa bilər. Belə də etdi. Kəndə qayıdıb həyatyanı və pay torpaq sahələrində bağ-bostan saldı.

İndi, şükür Allaha, pis yaşamırlar. Əvvəlki bir tikə çörək dalınca yaxın-uzaq ölkələrə getməyə ehtiyac da yoxdur. Mirzə İsayevin övladları da böyüyüb. Hərəsi bir işin qulpundan yapışır. Mirzə İsayev dedi:

–İndi süfrəmdə öz inəyimin südündən alınan təmiz yağın, qaymağın, pendirin əvəzi yoxdur. Qarşıdan qış gəlir. Mal-qara üçün yay-payız aylarında kifayət qədər ot-ələf toplamışam.

Qubanın digər kəndlərində də fermerlə meyvə yığımı ilə məşğuldurlar. Rayonun Amsar, Pirvahid, Rustov, Təngaltı və başqa kəndlərindəki bağlarda bu il meyvə boldur.

Mənbəyini ulu Babadağın qarlı zirvələrindən alan bolsulu Qaraçayın sol sahilində Birinci Nügədi, sahilində isə İkinci Nügədi kəndləri yerləşir. Hər iki kəndin torpaqları bərəkətli, insanları əməksevərdirlər.

İkinci Nügədi kəndində illər öncəsi tanıdığım fermer Xıdır Cabbaroğlu dedi ki, son günlər kənddə bekar adam tapa bilməzsən. Hamı meyvə bağlarında, iş başındadır.

–Axı, bu il bizim bağlar öz bəhrini əsirgəməyib. Almanı, armudu, qozu, fındığı nə qədər tez tədarük etsək, qazancımız da bir o qədər çox olar.

Son illər Quba rayonunda soyuducu anbarların sayı artıb. Daha dəqiq desək, hazırda rayonda 55 min tondan çox meyvə tutumu olan soyuducu anbarlar mövcuddur. Orada məhsulun qışın sonuna, yazın əvvəllərinə qədər saxlanması üçün normal şərait yaradılıb. Xidmət haqqı da münasibdir.

Ata-babalarımız yaxşı deyiblər:

**"Almanı atdım xarala,**
**Qaldı sarala-sarala..."**

Göründüyü kimi, çağdaş dönəmdə xurcunları soyuducu anbarları əvəz edir. Bu etmək olar, həyat inkişaf edir. Bir də ki, bol məhsulu xurcunlara yerləşdirmək qeyri-mümkündür.

Dünya rəngkarlığının ən uzman sənətkarlarından biri olan Səttar Bəhlulzadə Qubaya daha çox payızda gələrmiş. Deyərmiş ki, Quba bütün fəsillərdə gözəldir, amma son baharın yeri başqadır. Birinci və İkinci Nügədi kəndlərindən Qubaya tərəf qayıdanda Amsar kəndi ərazisində keçəndə yadıma düşdü böyük Səttar. Axı, onun "Amsar bağları" tablosu ən çox sevdiyim rəsmlərindəndir.

Qubaya çatanda yolumu Dövlət Aqrar İnkişaf Mərkəzinə saldım. Orada belə bir faktı da fəxrlə bildirdilər ki, rayondakı 17 min hektara yaxın meyvə bağından ötən il 107 min ton meyvə toplanıbsa, bu il hədəf daha yüksəkdir. İşiniz uğurlu olsun, qubalı dostlar!

***Məsaim ABDULLAYEV***
***XQ***

*Böyük Qayıdışın addımları*

# 4 köçkünlüyün dördqat acısı

## *Yurda dönüşün sevinci bu ağrıları unutdurur*

**5 il əvvəl bu günlərdə Qarabağımızın, Şərqi Zəngəzurumuzun düşmən işğalından azad edilməsi uğrunda qanlı döyüşlər gedirdi. Qəhrəman oğullar bütün cəbhəboyu əzmlə, cəsarətlə irəliləyirdi. Müdrik və qətiyyətli liderin ətrafında yumruq kimi birləşmiş xalqımız qələbə naminə əlindən gələni edirdi.**

Hamı bir nəfər kimi əmin idi ki, torpağımıza göz dikmiş mənfur yağı öz layiqli cəzasını alacaq, ata-babalarımızın minillər boyu yaşadıqları yurd yerlərimiz azadlığına qovuşacaq, ilahi ədalət bərqərar ediləcək! Zəfər dastanımızın 5-ci ildönümü günlərində isə azad Qarabağın sürətli dirçəlişinin, xarabalığa çevrilmiş şəhər və kəndlərimizin yenidən qurulmasının, keçmiş məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıdışının şahidi olmaq hər bir Vətən övladı üçün şərəf və qürur deməkdir. Bu xoşbəxt anların ən böyük sevinc payını isə, sözsüz, vaxtilə öz ev-eşiklərindən min bir müsibətlə didərgin salınmış, illərlə Qarabağ həsrəti ilə qovrulmuş, şanlı qələbələrimiz sayəsində ən böyük arzuları reallığa çevrilən insanlar yaşayırlar.

Belə insanlardan biri, taleyinə 4 dəfə məcburi köçkünlük yazılmış, iki ilə yaxındır ki, işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən bərpa-quruculuq işlərinin iştirakçısı olmaq üçün Vətənə qayıtmış Mustafa Hümbətovla azad Xocalıda görüşüb, həmsöhbət olduq. Onun məhrumiyyətlərlə dolu ömür yoluna nəzər saldıqca, ermənivəhşətinin, eyni zamanda, möhtəşəm zəfərimizin mahiyyəti bir daha aydın olur.

Xocalı rayonunun gözəl mənzərəli Kosalar kəndində doğulmuş Mustafanın uşaq vaxtı heç ağlına da gəlməzdi ki, cəmi 20 yaşında əvvəlcə daimi yaşamaq üçün üz tutduğu Xankəndidən, sonra Kərkicahan qəsəbəsindən, daha sonra XX əsrin ən böyük insanlıq dramının yaşandığı Xocalıdan və nəhayət, sonuncu dəfə doğulduğu kənddən məcburi köçkün düşəcək. Hər dəfə də neçə-neçə müsibətlər, acılar yaşayaraq, ermənilərin Əsgəran üzərində güllələnən itdikləri mülki helikopterdən təsadüf nəticəsində sağ çıxaraq, yenə təsadüfən xəstəxanada müalicə alan xəstə övladına baş çəkmək üçün getdiyi Şuşadan geri qayıda bilmədiyi üçün Xocalı faciəsindən xilas olaraq...

**Mustafa o qanlı-qadalı günləri belə xatırladı:**



– Xankəndidə çox yaşaya bilmədim. Erməni separatçılarının ölüm təhdidlərindən xilas olmaq üçün ailəmlə birlikdə yaxınlıqdakı Kərkicahana köçdük. Ancaq Xankəndiyə bitişik olan bu qəsəbə tezliklə işğal təhlükəsi ilə üzləşdi. Məcbur Şuşaya pənah apardıq, orada turist bazasında məskunlaşdıq. 1991-ci ildə bu dəfə daimi yaşamaq üçün Xocalıya köçdük, orada ikimərtəbəli ev tikdim. Nə bilərdim ki, orada da ömür sürmək bizə qismət olmayacaq.

Oğlum xəstələndiyi üçün Şuşada xəstəxanada yerləşdirmişdik. Yanına getmək istəyirdim, ancaq nəqliyyat yox idi. Ona görə, çox çətinliklə Xocalı aeroportundan dumanlı hava səbəbindən Ağdama geri qayıtmağa məcbur olan, içində hərbçilərə təminat aparan helikopterə mindim. Əsgəranın üstündə bizi gülləyə tutdular. Helikoperin alt hissəsi deşik-deşik olmuşdu, pilotların peşəkarlığı sayəsində Ağdama çata bildik. Bizi ölümdən ayaqlarımızın altındakı yük xilas etdi. Oradan çox çətinliklə Şuşaya gedə bilsəm də Xocalıya qayıtmaq mümkün olmadı...

Xocalı faciəsi zamanı Mustafanın əmisi Cəlil girov düşür, əmisinin həyat yoldaşı Firuzə, oğlu Muğan, 15 yaşlı qızı Simuzər və gəlinləri (Mustafanın bacısı – M.R.), 7 aylıq hamilə olan Südabə ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilir. Məcburən yenidən Kosalara, ata evinə qayıdan Mustafa 1992-ci ildə oradan da məcburi köçkün düşür və ailəsi ilə birlikdə Göyçayda məskunlaşır. Bir müddət sonra orada "Xocalı" adlı qaynaq sexi açır, yavaş-yavaş özünə gün-güzəran qurur.

Ordumuzun 2023-cü ildə Qarabağda erməni separatçılarına qarşı keçirdiyi lokal antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi, Xankəndinin, Xocalının azad olunması ilə Mustafanın da yenidən doğma yurda qayıtmaq arzusu reallığa çevrilir.

O, Xocalıya həm də Qarabağın dirçəldilməsində pay sahibi olmaq üçün dönüb. İşğaldan azad edilmiş ərazilərdə sahibkarlara yaradılmış əlverişli şəraitin nəticəsi olaraq M.Hümbətov Xocalı rayonunun ərazisində "Rəşidoğlu inşaat" adlı istehsal və satış müəssisəsi yaradıb. Burada qaynaq sexi, plastik qapı-pəncərə sexi, seyf qapıların, həyət darvazalarının, dəmir barmaqlıqların istehsalı, tikinti materiallarının satışı həyata keçirələcək. Hazırda 5-i daimi olmaqla 10 nəfərin çalışdığı müəssisə tam işə düşdükdə 40-a yaxın yerli sakinin işlə təmin edilməsi nəzərdə tutulub. Müəssisənin qarşısında isə müqəddəs şəhidlərimizin xatirəsinə ehsan bulağı tikilib.

**Mustafa Xocalıya ilk ayaq basdığı gündən yaşadığı hissləri sözlə ifadə etməkdə acizlik çəkdiyini bildirdi:**

– Bizim məcburi köçkün kimi nələr yaşadığımızı bir Allah bilir. Ancaq hər zaman dövlətimizin, möhtərəm Prezidentimizin qayğısını, diqqətini hiss etmişik. Elə doğma Xocalıya qayıtmağımız Müzəffər Ali Baş Komandanımız sayəsində reallığa çevrilib. Allah Prezidentimizi qorusun! Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin! Mən bu gün öz torpağımda yaşamaqdan, işləməkdən qürur duyuram. Biz öz addımlarımızla bütün dünyaya göstəririk ki, Qarabağın, Şərqi Zəngəzurun əsl sahibləri geri qayıdıblar. Bu yerlərdə bundan sonra top-tüfəng səsi eşidilməyəcək, hər zaman quruculuğun, inkişafın sədası yayılacaq. Çünki bura bizim Vətənimizdir!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# Naxçıvan aqronomlarının forumu



**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində "Dövlət-özəl tərəfdaşlıq çərçivəsində Aqronomların Naxçıvan Forumu" keçirilib.**

Forumda çıxış edən Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Rafail Quliyev bildirib ki, son illərdə dövlətin aqrar sektora göstərdiyi dəstək, innovativ texnologiyalara çıxış imkanlarının genişləndirilməsi məhsuldarlığın artımına mühüm təsir göstərib. Forumun nəticələrinin isə aqronomların peşəkarlığının artmasına, yeni əməkdaşlıq imkanlarının yaranmasına və kənd təsərrüfatının davamlı inkişafına töhfə verəcəyi vurğulanıb.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov qeyd edib ki, əsas məqsəd müasir texnologiyaların tətbiqi ilə aqronomların bilik və bacarıqlarının artırılmasına, fermerlərin isə innovativ həllərə çıxış imkanlarının genişləndirilməsinə dəstək verməkdir. Onun sözlərinə görə, müasir kənd təsərrüfatında uğur qazanmaq üçün aqronomlar yalnız elmi biliklərə deyil, həm də praktik təcrübəyə və innovativ texnologiyaları tətbiq etmək bacarığına sahib olmalıdırlar. Aqrar İnnovasiya Mərkəzinin fəaliyyəti də bu istiqamətdə strategiya və resursların düzgün yönləndirilməsini təmin edir.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev, Aparatın Bitkiçilik və monitorinq şöbəsinin müdiri Seymur Səfərli də çıxış ediblər.

Forum üç panel sessiyasından ibarət olub. Yekunda qeyd olunub ki, "Dövlət-özəl tərəfdaşlıq çərçivəsində Aqronomların Naxçıvan Forumu" aqrar sektorda bilik və təcrübə mübadiləsinə, yeni təşəbbüslərin formalaşmasına və kənd təsərrüfatının davamlı inkişafına mühüm töhfə verəcək.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Suqovuşana əbədi qovuşmuşuq

## *Vətən savaşının 7-ci günü qəsəbə azad edilib*



**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Vətən müharibəsinin yeddinci günündə – 2020-ci il oktyabrın 3-də xalqımıza daha bir qələbə xəbəri verdi: "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!" Döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyi üçün 1-ci Ordu Korpusunun bütün şəxsi heyətini təbrik edən dövlətimizin başçısı həmin gün daha bir ədalətsizliyi aradan qaldıraraq Madagizin tarixi adını bərpa etdiyini də diqqətə çatdırdı: "Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır".**

Xatırladaq ki, Suqovuşan sovet dövründə – 1923-cü ildə Ağdərə rayonunun inzibati ərazisinə kənd kimi daxil edilib. 1943-cü ildə bu yaşayış məntəqəsinə şəhər tipli qəsəbə statusu verilib. 1992-ci ildə isə Ağdərə ləğv edildiyindən rayonun ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər arasında bölüşdürülüb. O vaxt Suqovuşan da Tərtər rayonuna birləşdirilib.

Suqovuşanı Azərbaycan Ordusu ilk dəfə 1992-ci ildə geri alıb. Sonradan bu yaşayış məntəqəsi yenidən Ermənistan ordusunun işğalına məruz qalıb. Ermənilərin əsarətində olduğu vaxt – 2014-cü ildə Suqovuşanda balıqartırma zavodu da tikilib. İşğalçı tərəfindən burada yetişdirilən balıq və istehsal edilən qara kürünün xarici ölkələrə ixracı planlaşdırılıb.

Prezident İlham Əliyev tərəfindən Suqovuşan əməliyyatına xüsusi diqqət yetirilib və dövlət başçısının 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə bu yaşayış məntəqəsi geri alınandan sonra döyüşlərdə iştirak edən Silahlı Qüvvələrin hərbi qulluqçuları xüsusi olaraq "Suqovuşanın azad olunmasına görə" medalı ilə mükafatlandırılıb. Ölkə rəhbərinin 2021-ci il iyunun 24-də imzaladığı sərəncamla isə, Azərbaycan Silahlı Qüvvələrinin 10 mindən çox hərbi qulluqçusu "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Ekspertlər tərəfindən Suqovuşan hərbi baxımdan strateji önəm daşıyan ərazi kimi qiymətləndirilib. Bu yaşayış məntəqəsinin işğaldan azad edilməsi uğurunda gedən döyüşlərdə əldə olunan möhtəşəm uğur Silahlı Qüvvələrimizin şimal istiqamətində maneəsiz hərəkətini şərtləndirib. Başqa sözlə, uğurlu Suqovuşan əməliyyatı ilə Ağdərə və Ağdamı birləşdirən əsas təminat yolu açılıb. Eyni zamanda, işğalçının bu coğrafiyadan Tərtər rayonuna endirdiyi atəşə son qoyulub.

Suqovuşan işğalçının 4 əsas möhkəmləndirilərək hərbi-strateji önəm daşıyan dayaq məntəqələrindən biri idi. 2016-cı ilin Aprel döyüşləri zamanı da burada şiddətli döyüşlər getmişdi. Buna görə də düşmən Vətən müharibəsinə qədər bu strateji ərazi daha da möhkəmləndirmiş, mühəndis-istehkam qurğularını təkmilləşdirmiş, yeni vizual izləmə sistemi, radioelektron kəşfiyyat vasitələri, zenit raket kompleksi quraşdırmış, bir sözlə, bu sahəni, necə deyərlər, top dağıtmaz bir qalaya çevirmişdi.

Onu da xatırladaq ki, Suqovuşanın qəsb edilməsi ilə 1976-cı ildə istismara verilən eyniadlı su anbarı da işğal altına düşmüşdü. Bu isə Qarabağın işğaldan kənar ərazilərində su təchizatını acınacaqlı vəziyyətə gətirib çıxarmışdı. Bu fikri konkret rəqəmlərlə ifadə etsək, deyə bilərik ki, ermənilərin ekoloji terroru nəticəsində uzun illər Tərtər rayonunun 24 min 481 hektar, Ağdərə rayonunun 14 min 380 hektar, Goranboy rayonunun 6 min 938 hektar, Yevlax rayonunun 5 min 912 hektar, Bərdə rayonunun 12 min 620 hektar, Ağdam rayonunun 29 min 886 hektar və Ağcabədi rayonunun 2 min hektar torpaq sahəsinin su təminatında ciddi çətinliklər hökm sürmüşdü.

Prezident İlham Əliyev çıxışlarının birində ermənilərin sözügedən ekoloji terroru ilə bağlı deyib: "Onlar bizi sudan məhrum etmişdilər. Sərsəng su anbarı və Suqovuşan su anbarı onların nəzarətində idi. Bu iki su anbarını 1970-ci illərdə Ulu Öndər Heydər Əliyev tikdirmişdi ki, Ağdam, Tərtər, Goranboy, Bərdə və digər rayonlarımızda suvarma işləri aparılsın. Ancaq ermənilər suyumuzu kəsirdilər, qışda ekoloji ziyan vurmaq üçün qəsdən buraxırdılar, yaz-yay aylarında suyu kəsirdilər, biz susuz qalmışdıq.

Biz o bölgənin suvarılması ilə bağlı xüsusi tədbirlər planı hazırlamışdıq və mənim göstərişimlə orada yüzlərlə subartezian quyusu qazılmışdır. Ancaq biz Suqovuşan qəsəbəsini azad edərkən Suqovuşan su anbarını da nəzarətimizə götürdük. Suqovuşan nəzarətimizə keçəndən sonra imkan yaranıb ki, dediyim Ağdam, Tərtər, Bərdə, Goranboy və digər rayonlarımızda su təminatı böyük dərəcədə yaxşılaşsın".

Suqovuşan, eyni zamanda, zəngin turizm potensialına malikdir. Azərbaycan Prezidenti İlham Əliyev artıq bu potensialın inkişaf etdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib. Dövlət başçısı çıxışlarının birində Suqovuşanın turistlər üçün maraqlı olacağını deyib: "İkinci Qarabağ müharibəsində Suqovuşan qəsəbəsi də işğaldan azad edildi və Naftalandan Suqovuşan qəsəbəsinə məsafə o qədər də böyük deyil... Bu zona vahid bir turizm məkanı olacaq. Şiddətli döyüşlər gedən əraziyə gedib baxmaq həm turistlər üçün maraqlı olar, həm də ki, Suqovuşan çox mənzərəli bir yerdir. Naftalana gələn qonaqların, – istər Azərbaycan vətəndaşları, istərsə də xarici qonaqlar olsun, – ölkəmizlə tanış olmaları üçün gərək daha geniş imkanlar olsun".



Dövlət Turizm Agentliyinin məlumatına əsasən, adıçəkilən qəsəbənin turizm resursları əsas götürülməklə mövcud su anbarı ətrafında infrastruktur və xidmətlərin yaradılması, yaşayış sahəsinin rekreasiya imkanlarının artırılması və fəal turizm fəaliyyətlərini özündə əks etdirən "Suqovuşanın turizm konsepsiyası" sənədinin hazırlanması da qeyd olunan fikrin bariz ifadəsidir.

Agentliyin açıqlamasına görə, sözügedən konsepsiya sənədində Suqovuşan qəsəbəsində əsasən qısamüddətli turist səfərlərinin ehtiyaclarını qarşılayacaq turizm xidmətlərinin, su anbarı ətrafında mövcud turizm resurslarından istifadə edərək infrastrukturun yaradılması təklifləri öz əksini tapıb. Bundan əlavə, qəsəbə icmasının yenidən məskunlaşması fonunda turizm biznesinin yaradılması, ərazidə yerli turizm sənayesinin formalaşması, tarixi mərkəzin bərpası və qonaq evlərinin tikilməsi, yerli sakinlər və qonaqlar üçün sahilyanı zolağın salınması, eləcə də ərazidəfəal turizm fəaliyyətləri üçün infrastrukturun yaradılması nəzərdə tutulub .

Suqovuşanın turizm potensialının geniş olması onun ətrafında mövcud olan yaşayış məntəqələrinin əhalisinin qısa məsafədə yerləşən destinasiyalara səyahət etmələrinə üstünlük verilməsi ilə bağlıdır. Bununla yanaşı, araşdırmalarda müəyyənləşdirilib ki, ətraf bölgədə məskunlaşan 400 mindən çox insan turist səfərləri həyata keçirir. Onların da 30 faizə yaxını istirahət və əyləncə məqsədilə səyahətdə olur və təxminən, 1-3 gün müddətində vaxt sərf edir. İlkin mərhələdə Suqovuşana turist axınının qonşu regionlarda yaşayan əhali hesabına olacağı gözlənilir.

Suqovuşan həm də Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətli ərazilərdən biridir. Erməni işğalı respublikamızın Suqovuşanda yerləşən, enerji təchizatında mühüm rol oynayan, ümumi gücü 7,8 MVt olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarından da istifadə imkanlarını da məhdudlaşdırmışdı. Vətən müharibəsində tarixi Zəfərdən sonra həmin stansiyaların əsaslı təmirə ehtiyac zərurəti məlum oldu. Belə ki, döyüşlər zamanı infrastruktura ciddi ziyan dəymişdi, işğalçı bu məntəqədəki 4, 8 və 3 MVt gücündə olan kiçik elektrik stansiyalarının müəyyən yararlı ehtiyat hissələrini söküb götürmüşdü.

Düşməndən təmizlənən ərazilərin bərpasına başlanandan sonra, ilk növbədə, enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsi diqqətdə saxlanıldı. Elə bu məqsədlə də gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının təmiri həyata keçirildi. Hər iki stansiya əsaslı şəkildə yenidən quruldu, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yeniləndi.

Xatırladaq ki, Suqovuşan qəsəbəsi və Talış kəndini elektrik enerjisi ilə təmin edən xəttin çəkilişi zamanı ilk dəfə olaraq izolyasiyalı kabeldən istifadə olundu. Yeni kabel xətlərinin tətbiqi ilə yüksək gərginlik xətlərinin bilavasitə altında, yaxud yaxınlığında yerləşən yaşayış və əkin sahələrinin, həmçinin insanların fəaliyyət təhlükəsizliyi dəfələrlə artdı, təbiət hadisələrinin elektrik veriliş xətlərinə təsiri isə aradan qalxdı. İzolyasiya olunmuş yeni tip kabel xətlərinin istifadəsi enerji sisteminin dayanıqlılıq, etibarlılıq və səmərəlilik göstəricilərini beynəlxalq standartlara yaxınlaşdırmağa imkan verdi. Beləliklə, izolyasiyalı kabel ölkəmizdə ilk dəfə Suqovuşanda tətbiq olundu.

Suqovuşan işğaldan azad ediləndən dərhal sonra yol infrastrukturunun da qurulmasına başlandı. Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının yenidən qurulması layihəsinin icrası diqqətdə saxlanıldı. Ümumi uzunluğu 28,5 kilometr olan avtomobil yolları bərpa olundu.

Hazırda Suqovuşan – Sərsəng su anbarı – Qozlukörpü – Kəlbəcər avtomobil yolunun tikintisi aparılır. Layihənin başlanğıc nöqtəsi Ağdərə rayonu ərazisində yerləşən Suqovuşan qəsəbəsi, son nöqtəsi isə Kəlbəcər rayonu ərazisində yerləşən və Kəlbəcər – Laçın avtomobil yolu ilə kəsişən "Vəng dairəsi"dir. Ümumi uzunluğu 77, 6 kilometr olan avtomobil yolu iki hərəkət zolaqlı olmaqla inşa edilir.

***

Beləliklə, 2020-ci ilin sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatının elə ilk günündə düşmənin illərlə möhkəmləndirdiyi və "keçilməz" adlandırdığı ön müdafiə xətti yarıldı, Cəbrayıl və Füzuli rayonlarının 6 kəndi, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər işğaldan azad edildi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatını uğurla davam etdirən Azərbaycan Ordusu oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz və Talış kəndlərini işğaldan azad etdi. Bu xoş müjdəni "tviter" hesabından xalqımıza çatdıran dövlətimizin başçısı yazının əvvəlində vurğuladığımız kimi, Madagiz qəsəbəsinin tarixi adını da bərpa edərək onu Suqovuşan adlandırdı.

Bununla da, 1990-cı illərin əvvəllərində Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilən Suqovuşan qəsəbəsi və Talış kəndi Vətən müharibəsinin 7-ci günündə azadlığına qovuşdu. Bu strateji önəm daşıyan ərazinin düşmən tapdağından xilas olması isə Azərbaycan Ordusunun tarixi Zəfərə yolunu daha da yaxınlaşdırdı. Çünki Suqovuşan və Talışdakı yüksəkliklər strateji baxımdan çox əhəmiyyətli olduğundan bu yaşayış məntəqələrinin azad edilməsi Azərbaycan Ordusuna ətrafdakı əraziləri nəzarətdə saxlamaq imkanı verdi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası: 3 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## Zəfər marafonunun 7-ci günü

• "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!", – Prezident, Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "tviter" səhifəsində bu barədə paylaşım edib.



• Ordumuzun zəfərlərinin müjdəçisi olan Azərbaycan Prezidenti İlham Əliyev özünün rəsmi "tviter" səhifəsində növbəti paylaşımlarla əsgər və zabit heyətinin qəhrəmanlığından bəhs edib və azad olunan ərazilərin adlarını paylaşıb. Eyni zamanda, Tərtər rayonunun Talış, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq və Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndlərinin işğaldan azad edilməsi barədə məlumat verib.

• Ali Baş Komandan işğaldan azad olunan Madagizin tarixi adını bərpa edərək onun Suqovuşan adlandırıldığını elan edib: "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!"

• Bu gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrdən təmizləyib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi və digər döyüş texnikası məhv edilib.



• Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən 12 cinayət işi başlanıb. Bu barədə Baş prokuror Kamran Əliyev oktyabrın 3-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törədilmiş cinayətlərlə bağlı ölkəmizdə akkreditə olunan diplomatik korpusun, yerli və beynəlxalq media qurumlarının nümayəndələri üçün təşkil olunan brifinqdə məlumat verib.

Ümumilikdə, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrimizin atəşə tutulması nəticəsində 19 mülki şəxs həlak olub, 63 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib. Təəssüf doğurucu hal ondan ibarətdir ki, həlak olan şəxslər arasında qadınlar və uşaqlar da var. Üç qadın və iki azyaşlı uşaq Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində öldürülüb. Ermənistan silahlı qüvvələrinin dinc əhalini atəşə tutması nəticəsində 181 ev və 44 mülki obyekt yararsız vəziyyətə düşüb.

Baş prokuror bildirib ki, Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin artilleriya silahlarından atdığı mərmi nəticəsində Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kənd sakini Qurbanov Elbrus İsa oğlu və ailəsinin dörd üzvü – anası, həyat yoldaşı və övladları həlak olub. Həmin faktlarla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən xuliqanlıq niyyəti ilə xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Ümumilikdə, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrimizin atəşə tutulması nəticəsində 19 mülki şəxs həlak olub, 63 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib. Yaralanan şəxslərdən 26-sı Tərtər, 10-u Ağcabədi, 14-u Ağdam, 6-sı Füzuli, 2-si Goranboy, 2-si Bərdə, 1-i Daşkəsən, 1-i Xocalı, 1-i isə Cəbrayıl rayonlarının sakinləridir. Xəsarət alanlardan 56-sı kişi, 6-sı qadın, 1-i isə uşaqdır. Bundan başqa, Ermənistan silahlı qüvvələrinin dinc əhalini atəşə tutması nəticəsində 181 ev və 44 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edilib ki, Ermənistan mülki əhalimizə qarşı cinayətlər törətməklə yanaşı, işğal etdiyi ərazilərdə Azərbaycanın sərvətlərini talamaqla məşğuldur. Ermənistanın 1994-cü ildən bu günədək ölkəmizə qarşı təcavüzü davam edir. İşğal olunmuş ərazilərimizdə iqtisadi fəaliyyətlə məşğul olduğu üçün 12 nəfər beynəlxalq axtarışa verilib.

Kamran Əliyev vurğulayıb ki, bundan başqa, Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupunun komandiri Qurqen Alaverdyan barəsində cinayət işinin istintaqı davam edir. O, iki nəfərlə birlikdə Azərbaycan ərazisinə daxil olaraq strateji baxımdan əhəmiyyətli yerləri öyrənmək istəyib. Bu fakt sübut edir ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və digər ərazilərində birbaşa Ermənistan silahlı birləşmələrinin, Ermənistan Müdafiə Nazirliyinin əməkdaşları xidmət edirlər.

Baş prokuror qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı təxribat törətməkdə məqsədləri mülki əhali arasında qorxu və panika yaratmaqdır. Ermənistan Azərbaycanın ərazilərinə təcavüz edib. Ermənistan rəhbərliyi təcavüzkar siyasətindən əl çəkmir. Erməni silahlı birləşmələri dinc azərbaycanlı əhalinin öz torpaqlarını qoyub getməsini istəyirlər. Onlar hər zaman olduğu kimi, Azərbaycana və vətəndaşlarımıza qarşı təcavüzkar siyasətlərini davam etdirirlər.

• Müdafiə Nazirliyi müharibənin ilk həftəsi ərzində düşmənin ümumi itkilərinin sayını da açıqlayıb: 230-dək tank və digər zirehli texnika, 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 38 ədəd hava hücumundan müdafiə vasitələri, 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 7 silah-sursat anbarı, 130-dan çox avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi.

• Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmiş ərazilərdən videogörüntülər yayılıb.

***Mustafa KAMAL***
***XQ***

*Vətən müharibəsi qəhrəmanları*

# "Vətən, sənə canım fəda!"

**Azər Abdullazadə hərbçilər arasında ali dövlət təltifinə layiq görülmüş ən gənc soydaşımızdır. İkinci Qarabağ müharibəsində cəmi 2 həftə iştirak edərək misilsiz igidlik nümunəsi göstərib və bir gözünü Vətən yolunda qurban verib.**



Qazi olması ilə fəxr edən Azər xalqımızın, o cümlədən nəslinin, soyunun qəhrəmanlıq ənənələrinin davamçısıdır. Birinci Qarabağ müharibəsində əmisi – leytenant Natiq Abdullayev Ağdərə istiqamətində şəhid olub. Atası Rizvan Abdullayev tankçı olub, 1-ci qrup əlildir. Digər əmisi Elçin Abdullayev tibb xidməti polkovnikidir. Azər özü isə hərbçi qardaşı Yaqubla və yeznələri ilə bərabər Vətən müharibəsində döyüşlərə atılıb və hünər tarixinə izdə iz qoyub. Zəfər yürüşündə rəşadətinə görə rəsmən Qəhrəman adına layiq görülmüş əsgər rütbəli 3 gəncdən biridir.

Məlum Aprel döyüşləri zamanı Azərin 15 yaşı vardı. Oxuduğu məlumatlar, eşitdiyi söhbətlər onu qanadlandırır, qisas hissini daha da gücləndirirdi. 2019-cu ilin aprelində can-başla həqiqi hərbi xidmətə yollanıb. Quru Qoşunlarında tank heyətinin tuşlayıcısı olub. Əsgərliyinin bitməsinə bir neçə gün qalmış Qarabağ cəbhəsində ermənilərin növbəti silahlı təxribatına cavab olaraq Milli Ordumuzun genişmiqyaslı əks-hücum tədbirlərinə start verilib. Öndə gedənlərin sırasına qoşulan əsgər Azər Abdullazadə əvvəlcə işğal altındakı Füzuli və Cəbrayılın azad olunması uğrunda döyüşlərdə cəsurluq nümunəsi göstərib. Üzvü olduğu tankçılar heyəti ilə verilən koordinatlar, xəritələrlə irəliləyərək düşmənə məxsus çox sayda hədəfi sıradan çıxarıb, işğalçıların xeyli canlı qüvvəsini, sığınacaqlarını və zirehli texnikasını məhv edib. Bəzən qarşılarına çıxan düşmən piyadalarını isə tankın üzərində quraşdırılmış 7,62 millimetrlik pulemyotun atəşləri ilə aradan götürüb.

İlk dəfə sentyabrın 30-da Füzulinin Alxanlı kəndi istiqamətində döyüş zamanı yaralansa da hospitalda bircə gün qalıb və təkidlə ön xəttə – silahdaşlarının yanına qayıda bilib. Bu barədə onun dedikləri: "Oktyabrın 3-dən sonra Cəbrayıl istiqamətində döyüşlərə qoşulduq. Orada düşmənin hərbi texnikalarını məhv etdik və qənimətlər götürdük. Mən 1 tank, 1 KAMAZ və 2 UAZ-ı dəqiq vurdum. 25 erməni hərbçisini cəhənnəmə vasil etdik. Hər kəs ruh yüksəkliyi ilə döyüşürdü. Biz hədəfləri dəqiq vura-vura irəlilədikcə daha da həvəslənirdik, yalnız qabağa getməyə çalışırdıq. Şükürbəyli kəndinin yaxınlığında mövqe tutduq. Oradan düz yol Cəbrayıl şəhərinə gedirdi, sola burulan yol isə Zəngilan və Qubadlıya aparırdı. Hər iki tərəfdə gedən döyüşlər zamanı düşmənə sarsıdıcı zərbələr vurduq".

Amma oktyabrın 11-də Cəbrayılın Hacılı kəndi istiqamətində Azərgilin tankı qarşı tərəfin atəşindən yayına bilməyib. Komandiri həlak olub. O isə 2-ci dəfə, özü də daha ağır yaralanıb. Yanan tankın içərisində gizlənərək qapağını örtüb ki, əsir düşməsin. Onu nisbətən yüngül yara almış sürücü-mexanik dostu tankdan çıxarıb. Əhmədbəylidəki hospitalda Azərin ilkin cərrahi əməliyyatını öz əmisi – tibb xidməti polkovniki Elçin Abdullayev edib. Vəziyyəti ağır olduğu üçün sonra Bakı hospitalına göndərilib. Gözünün birini itirmiş Azərin bədənindən çoxlu mərmi qəlpəsi çıxarılıb, digər gözü kor olmaqdan xilas edilib. 4 gün komada qalıb, 7 dəfə əməliyyat olunub. Elə Qələbə xəbərini də hospitalda uzunmüddətli müalicə aldığı zaman tibb bacısından alıb. Daha 1 ay sonra isə Prezidentin müvafiq sərəncamı ilə Azər Abdullazadə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb. Döyüş medalları da var.

Bu da onun sözləridir: "Vətən müharibəsində bir gözümü itirmişəm. Əgər ölkəmizin ərazi bütövlüyü uğrunda hər hansı bir döyüş olarsa, digər gözümü də, canımı da bu Vətənə qurban verməyə hazıram".

Azərin sidq-ürəklə dedikləri sövq-təbii olaraq qarşımdakı vərəqdə bu cür misralandı:

*Düşüncə atəşə, oda,*
*Mən çox görmüşəm qan-qada.*
*Hazıram uğrunda ölüm,*
*Vətən, sənə canım fəda".*

***Əli NƏCƏFXANLI***
***XQ***

# I "ölüm səddi"ni aşan leytenant

**Baş leytenant Ağaqardaş İlham oğlu Abbasov 1992-ci il sentyabrın 28-də Zərdab rayonunun Hüseynxanlı kəndində anadan olub. O, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialında dil və ədəbiyyat ixtisası üzrə təhsil alıb.**



Gənc zabit Cəlilabad rayonunda, Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. Aprel döyüşlərinin iştirakçısı olub. Vətən müharibəsinin ilk günündən isə ön cəbhəyə yollanan baş leytenant ağır döyüşlərdə iştirak edib. Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı ayağından qəlpə yarası alan Ağaqardaş döyüş meydanından geri çəkilməyib. Özü yaralı olduğu halda digər yaralı əsgər və zabitləri də döyüş meydanından çıxarmağa cəhd göstərib.

Füzulidə cəbhəni yaran, düşmənin möhkəmləndirilmiş müdafiə səddini keçən, işğalçının ən çətin postunu birinci alan həmlə briqadasının sıralarında döyüşən Ağaqardaş Abbasov ikinci müdafiə xəttinə çatanda şəhidlik zirvəsinə yüksəlib. Doğma kəndində dəfn olunub. Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilib.

Oxuduğu Hüseynxanlı kənd ümumi orta məktəbində təlim-tərbiyə nəticələri yüksək olan IX sinif baş leytenant Ağaqardaş Abbasovun adını daşıyır. Təhsil müəssisəsində igid şəhidimizin adına "Qürur guşəsi" də yaradılıb.

Qeyd edək ki, 5 il övlad həsrəti çəkən şəhidimiz ölümündən bir neçə ay sonra ata olub. Özünün istəyi ilə qızına İlknur adı verilib. Şəhidin atası İlham Abbasov deyir:

– Oğlumun ömrü də qardaşım kimi yarımçıq qaldı. İndi məzarlıqda biri atamın sağında, o biri də solunda uyuyur. Balam çox vətənpərvər idi. Hərbçi yoldaşları söyləyirdilər ki, müharibə xəbərini eşidəndə "torpaqlarımızı düşmən tapdağından xilas edəcəyik" deyib... Bizim kənddə 11 illik orta məktəb olmadığından uşaqlar doqquzuncu sinfi bitirdikdən sonra qonşu kəndə gedirdilər. Mən təsərrüfatla məşğul olurdum.

Bir gün Pərviz müəllim dedi ki, bu uşaq çox savadlıdır, niyə qoymursan təhsilini davam etdirsin? Məcbur olub razılaşdım, uşağı oxumağa yolladım. Oğlumu o səviyyəyə, o savada Pərviz müəllimlə atası Cəmil müəllim çatdırdılar. Onların sayəsində ali məktəbə – Müəllimlər İnstitutuna qəbul oldu. 2014-cü ildə ali təhsilini başa vurub hərbi xidmətə yollandı.

Anası Dilbər xanım söhbət zamanı bildirir:

– Ağaqardaş ailənin üzünü ağ edib, düşmən qarşısından geri çəkilməyib. Vətən müharibəsi başlanan gündən şücaətlə vuruşub. Onun haqqında danışmaq mənim üçün çox çətindir... Oğlum qürurla yaşadı, şəhid oldu. Şəhidlərimizin qisası alındı. Vətən sağ olsun.

İndi şəhid atası və anasının ümid yeri, təsəllisi oğlunun yadigarı İlknurdur. Onunla nəfəs alırlar. İlknurun 5 yaşının tamam olmasına bir neçə ay qalır. Hələ atasının torpaqlarımız uğrunda şəhid olmasından xəbərsizdir. Böyüyəndə fəxrlə deyəcək ki, mən qəhrəman şəhid qızıyam.

***M.MÜŞFİQ***
***XQ***

# O, düşməni lərzəyə salırdı...



**Elbrus Bayramov Azərbaycan Silahlı Qüvvələrinin mayoru, 44 günlük Vətən müharibəsi zamanı Füzuli rayonu uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman hərbi qulluqçudur.**

Beyləqanın Milabad qəsəbəsində dünyaya göz açan Elbrus uşaq yaşlarından Qarabağın başına gətirilən müsibətlər barədə böyüklərin söhbətlərinin şahidi olub. Ağlı kəsəndən hərbçi olmağı, əzəli və əbədi torpaqlarımızı yağıların cəngindən almağı arzulayıb. Elə bu istəyinin arxasınca düşərək, Bakıya yollanıb. Əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Atəşkəs illərində qüsursuz xidməti ilə tanınıb.

Məlum Aprel döyüşləri başlananda o, artıq 7 il idi ki, şərəfli zabit peşəsində Vətənə xidmət edirdi. Ermənilərin yalvar-yaxarla nail olduqları atəşkəsə qədər 4 gün ərzində onlara ibrət dərsinin verilməsində yaxından iştirak elədi. Atışmalar zamanı ətrafa yayılan barıt qoxusu, silahla davranmağı, qorxmadan, dik ölümün gözünə baxa bilməyi öyrətdiyi əsgərlərinin qeyrət nümunələri, xüsusilə də silahlı separatçıların "Vay mame!" qışqıraraq döyüş mövqeyini qoyub qaçması hünərvər zabiti böyük qələbəyə daha da ruhlandırdı.

Azərbaycan Ordusunun mayoru olan Elbrus Bayramov 2020-ci il sentyabrın 27-də işğal altında olan ərazilərin Silahlı Qüvvələrimiz tərəfindən azad edilməsi və ərazi bütövlüyümüzün bərpası üçün başlanan Vətən müharibəsi zamanı Füzulidə gedən döyüşlərdə fərqlənib. Şəhadətə qovuşduğu 2 oktyabr tarixinədək ötən bir həftə ərzində adını Zəfər tariximizə qızılı hərflərlə yazdıra bilib.

Davanın ilk günlərində öz bölüyü ilə növbəti döyüş tapşırığı üzrə irəliləyən mayor Bayramov idarə etdiyi tankla minaya düşüb, yaralanmasına baxmayaraq, geri çəkilmir, ermənilərin silah dolu maşınını və 30-dan çox canlı qüvvəsini məhv edir. Oktyabrın 1-də isə düşmənin o istiqamətdə bütün döyüş, rabitə və tibb heyəti darmadağın olunur. Strateji yüksəkliklər Azərbaycan döyüşçülərinin əlinə keçir. Elbrus Bayramov və əsgərləri canları, qanları bahasına qazandıqları mövqeləri əldən vermirlər. Yaralı-yaralı vuruşan mayorun ağrı-acısı yadına da düşmür. Ona belə bir qəti qənaət hakim idi ki, tezliklə Qarabağ torpaqları yağılardan geri alınmalı, haqq mübarizəmiz qələbə ilə başa çatmalıdır. Müzəffər Ali Baş Komandanımız da məhz belə əmr vermişdi, xalqımız da məhz həmin əzmdə, əhvali-ruhiyyədə idi.

Ertəsi gün igid mayora Füzuli ətrafında – Qərvənd istiqamətində düşmən bunkerinə hücum əmri verilir. Ermənilərin əsas canlı qüvvəsi orada cəmləşmişdi. Elbrusun hərbçi yoldaşları deyir ki, o, həmin gün şəxsi heyəti ilə mühasirəyə düşmüş taborun köməyinə yetişib və darda qalan hərbçiləri çətin mövqedən çıxara bilib. Elə həmin anda qorxmaz mayor sığınacaqdan erməni zirehli tankının bizim döyüşçülərin üstünə gəldiyini görür. Anlayır ki, onu dayandırmasalar, mövqeləri ələ keçiriləcək və çoxlu itki verəcəklər. Bu vaxt düşmən mövqelərimizi fasiləsiz atəşə tutur.

Elbrus zabit yoldaşını əsgərlərin yanına göndərir. Sağ cinahdakılara təhlükə barədə xəbər verir. Götürdüyü əl qumbarası ilə onların üzərinə gələn tankın qarşısına çıxır. Tanka çathaçatda snayperlə ayağından vurulsa da, özündə güc toplayıb yenə irəli atılır. Elbrus tankın lüləsindən qumbaranı içəri tullayır. Heyəti və tankı məhv edir. Beləliklə, mayor Bayramov yüzdən çox əsgər və zabitimizi düşmənin hiyləgər hücumundan qurtarır, ordumuzun irəliləməsinə şərait yaradır. Özü isə son dəfə gözü ilə göylərin şəklini çəkir...

Şəhadətə ucalan igid Vətən oğlu 2 gün sonra Beyləqan rayonunun Milabad qəsəbəsində dəfn olunub. Elbrus Eyvaz oğlu Bayramov "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, həmçinin, "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib. Beyləqan Şəhəri Təbiət və Humanitar Fənlər Təmayüllü Liseyə onun adı verilib.

Şəhid mayorun 2 övladı Vətənə əmanət qalıb.

***Ə.DOSTƏLİ***
***XQ***

# İgid gizirin döyüş yolu



**Şəhid gizir Elməddin Alxaslı Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb. O, əsgərlik vaxtı sərrast atıcı olması ilə fərqlənib. Döyüş yolu Cəbrayıl, Füzuli istiqamətindən başlayan qəhrəman kəşfiyyatçı daha sonra Suqovuşanın azad olunması uğrunda əməliyyatlarda iştirak edib. Adı çəkilən yaşayış məntəqəsi uğrunda gedən döyüldə şəhid olub. Atası Rəsul Alxasov deyir:**

– Müharibə xəbərini eşidən kimi, oğluma zəng etdim. Telefonu açmaması narahatlığımı daha da artırdı... Şəhid olduğdan sonra bilmişəm ki, oğlum kəşfiyyatçı olub. Sən demə, üzü maskalanmış şəkillərini məndən gizlədirmiş. Tərbiyəli, əxlaqlı idi. Bir dəfə də olsun dilindən kobud bir söz eşitməmişdim, mehriban və qayğıkeşliyi ilə hamının diqqətini çəkirdi. Bir sözlə, bütün kəndin sevimlisi idi. Yeganə təsəllim odur ki, canını müqəddəs bir amal uğrunda fəda edib...

Əsli ana isə danışır ki, oğlu evlənməyə tələsməyib. Şəhid olacağını bəlkə də, duyurmuş. Bu səbəbdən də ailə qurmağı, gözünün arxada qalmasını istəmirmiş... Neçə-neçə oğullarımız canını bu torpağa qurban verdi. Oğlum deyirdi ki, onlardan artıq deyiləm, hər şey ola bilər... Əsgərlikdə Murovda xidmət etdi. Sonra öz istəyi ilə hərbi hissədə işləməyə başladı. Müqaviləsi başa çatanda dedim ki, bəlkə, başqa sahədə çalışasan? Amma razı olmadı. Aprel döyüşlərindən sonra yenidən xidmətə qayıtdı. Sentyabrın 27-də bacısına zəng edib deyib ki, müharibə başlayıb, döyüşürük. Şəhid olsam, anamdan muğayat ol...

Müharibə günlərində evlə əlaqə saxlayan Elməddin düşmən cəbhəsini yararaq irəlilədiklərini bildirib. Şiddətli döyüşlərin getdiyini söyləyən gizir ailəsinə hər cür xəbərə hazır olmağı tapşırıb.

Elməddin Alxasov 2020-ci il oktyabrın 2-də doğulub boya-başa çatdığı Xaçmazın Qaradağ Buduq kənd qəbiristanlığında dəfn olunub. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə qəhrəman döyüşçü ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Şəhidlik zirvəsinə yüksəlmiş igidlərimiz unudulmur, daim yad edilir. Elməddin də ölkəmizin ərazi bütövlüyünün təmin olunması, dövlətimizin suverenliyi və xoşbəxt gələcəyi uğrunda canını fəda edib.

***M.CƏFƏROV***
***XQ***

# Şəhid övladı ağlamaz!



**Anar Eyvaz oğlu Cəfərov 1977-ci il dekabrın 19-da Ağcabədi şəhərində dünyaya göz açıb. 12 saylı tam orta məktəbini bitirib. Məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Eyni zamanda, şəxsi təsərrüfatla məşğul olub.**

Anar Cəfərov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında əvvəlcə müddətli, daha sonra isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olub. Xüsusi hərbi kurs bitirərək "Həmlə" taborunda həmlə bölüyünün baş tuşlayıcı minaatanı təyin edilib. Mingəçevir şəhərində və Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissələrdə minaatan kimi fəaliyyət göstərib.

O, 2020-ci il oktyabrın 3-də Tərtər rayonu – Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olub. Ağcabədi Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda qəhrəmanlıqla döyüşdüyü və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Anar Cəfərov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin həyat yoldaşı Samirə Xudiyeva söyləyir:

– Anar bir gün gəldi ki, hərbi işə gedəcəyəm. Torpağımı qorumaq bir vətəndaş kimi mənim də borcumdur. Elə həmin vaxtdan Anar hərbçi oldu. Xidmətindən 3 il keçdi. Soruşdum ki, yenə müqavilə bağlayacaqsan? Bir də gördüm müqavilə kağızının şəklini atdı mənə ki, artıq 5 illik yenidən müqavilə bağlamışam. O bilirdi ki, bu münaqişənin sonu müharibədir...

2020-ci il hələ müharibə başlamamışdı, sentyabrın 21-dən Anargil təlimlər keçirdi. 25-i idi, getməmişdən bir gün qabaq mənə dedi ki, Samirə, gəl, qapını, evləri təmizləyək... Sentyabrın 24-ü saat 4-də Anar evdən çıxdı. Bizimlə həmişə görüşən Anar həmin gün üçümüzə də baxmadan getdi. 26-sı gecəsi dedim gələcəksən evə? Dedi ki, silahları təhvil versəm, gələcəyəm. Ancaq gəlmədi, elə axırıncı görüşümüz də o oldu...

Anar ailəsi ilə hər gün telefonla danışırdı. Son danışığı isə 2 oktyabr, saat 11-də oldu. İşlərinin yaxşı olduğunu söyləyir, qələbə bizimdir, narahat olmayın, deyirdi.

...Oktyabrın 3-də onun zəngini gözləyirdim, amma ondan xəbər yox idi. Anarın əmisi gəlini Günelə dedim ki, çox güman Anar şəhid oldu, mənə zəng eləmədi... Elə bu an Anarın qardaşı İftixar mənə zəng etdi ki, bacı, evdəsən? Dedim ki, nə olub? Mənə dedi ki, heç nə olmayıb qayıdıram sizə, işim var. Ondan sonra elə qışqırdım ki, qonum–qonşu burdaydı.

Ürəyimə damdı ki, Anara nəsə olub. Anarı Ağcabədi xəstəxanasına yeləşdirmişdilər. 4-ü günü səhər saat 10-da gətirdilər. Balalarımı çağırıb dedim ki, sizin atanız qəhrəmandır, atanız şəhid olub. Xocalıda öldürülən siz boyda uşaqların intiqamı illər keçsə də alınıb. Ağlamayın, sizin atanız şəhiddir, o əbədi yaşayır, ölməyib!

Mənim övladlarım bu gün atasız qalsalar belə, mən ailəmlə fəxr edirəm! Mənə bayraq veriləndə sevə-sevə öpdüm. Gələcəyin iki əsgəri mənim evimdədir. Allah şəhidlərimizə rəhmət eləsin!"

***M.MİRZƏ***
***XQ***

# Azərbaycan Orta Dəhlizin döyünən ürəyidir

## *9 ayda Çindən 296 blok-qatar qəbul edilib*



**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmir yolu operatorlarının Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM, Orta Dəhliz) bütün marşrutu boyunca vahid, uzunmüddətli tarif müəyyənləşdirmək qərarı isə gələcək yükdaşımalar üçün olduqca əhəmiyyətlidir. Bununla yanaşı, TBNM ölkələrinin nümayəndələri Almatıda keçirilən forum çərçivəsində dəhlizin inkişafına yönəlmiş bir sıra mühüm sazişlər imzalayıblar.

"Darboğaz"ların aradan qaldırılması üzrə Tədbirlər Planı"nın imzalanması da məhz bu qəbildəndir. Bu plan Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmir yolu idarələrinin razılaşdırılmış fəaliyyətini, həmçinin EBRD və "Aktau Beynəlxalq Dəniz Ticarət Limanı" SC arasında liman infrastrukturunun maliyyələşdirilməsi və STS kranlarının alınmasına dair sazişi nəzərdə tutur.

İlk olaraq, uzunmüddətli vahid tarif ümumi tarif cədvəlinin birləşdirilməsi deyil. Bu, sahibkar üçün riskin azalması, logistika planlayıcısı üçün xərclərin dəqiqləşməsi, yük sahibi üçün isə daha sərfəli və etibarlı marşrutun təmin edilməsidir. Tariflərin harmonizasiyası bir neçə ölkənin tənzimləmə mexanizmlərini sinxronlaşdırmaqla baş verir və bu, Orta Dəhlizi tranzit axınları üçün rəqabətqabiliyyətli variant halına gətirir.

Nəticədə, Çin və Avropa arasında ticarət dövriyyəsi dar bir keçiddən çıxaraq daha sabit, proqnozlaşdırılan dəhlizə çevrilir. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmovun açıqlaması əyani nümunədir. Bu ilin 9 ayında Çindən Orta Dəhliz vasitəsilə 296 blok-qatar qəbul edilib və onlardan 113-ü tranzit qatar olub. Keçən ilin eyni dövründə bu göstərici 213 qatar olub – artım dinamikası göz qabağındadır. Bu rəqəmlər Orta Dəhliz marşrutunun etibarlılığının yüksəlməsini göstərir və Azərbaycanın logistika infrastrukturunun artırılması səylərinin nəticəsidir.

Coğrafi yerləşmə ölkəni təbii logistik mərkəzə çevirir. Bakı limanı və Xəzər üzərindən həyata keçirilən dəmir yolu-konteyner kombinasiyaları Azərbaycanı Şərq ilə Qərb arasında effektiv tranzit qapısına çevirir. Dəniz, dəmir yolu və logistika terminallarının sinerjisi yüklərin daha sürətli və təhlükəsiz ötürülməsini təmin edir. Bu isə regionda sabit tariflərin tətbiqi ilə birləşdikdə, beynəlxalq operatorlar üçün maraqlı və mənfəətli marşrut meydana gətirir.

Yüksək keçid qabiliyyətinin təmin edilməsi üçün infrastruktur layihələri ilə yanaşı, rəqəmsal prosedurların sadələşdirilməsi də vacibdir. Avtomatlaşdırılmış gömrük prosedurları, real vaxtda maneələrin izlənməsi, tək pəncərə prinsipinə keçid və yük izləmə sistemlərinin genişləndirilməsi Orta Dəhlizin rəqabətqabiliyyətini artıracaq. Azərbaycanın bu istiqamətdə atdığı addımlar və özəl sektorla əməkdaşlıq marşrutun inkişafına zəmin yaradır.

Uzaq məsafəli ticarətin dayanıqlığı çərçivəsində diskret diplomatiya, tərəfdaş ölkələrlə etibarlı razılaşmalar, tranzit proseslərinin hüquqi tənzimlənməsi və maliyyə mexanizmlərinin uyğunlaşdırılması da eyni dərəcədə əhəmiyyətlidir. Almatıda əldə olunan vahid tarif razılaşması bu əməkdaşlığın məntiqi ardıcıllığıdır. Bu cür addımlar region üçün yeni investisiya dalğası və əlavə tranzit gəlirləri yarada bilər.

Dünya ticarətinin davamlılığı çağırışlar qarşısında dayanır. Daha qısa və proqnozlaşdırılan marşrutlar yanacaq sərfiyyatını azaldır. Həmçinin multimodal daşımaların təşkili yüklərin dəniz və dəmir yolu arasında optimal paylanmasını təmin edərək karbon izinin azaldılmasına kömək edir. Azərbaycanın Orta Dəhlizdə lider mövqeyi bu perspektivin həyata keçirilməsi üçün əlverişli platformadır.

Artan tranzit həcmləri ilə yanaşı, yeni iş yerləri, logistika xidmətlərinin inkişafı, gömrük və terminal gəlirlərinin artması, və regional tədarük zəncirlərinin möhkəmlənməsi müşahidə ediləcək. Sahibkar üçün sabit tariflər daha səmərəli biznes-planlar, beynəlxalq logistika şirkətləri üçün isə daha etibarlı marşrutlar deməkdir. Orta Dəhlizin yüksəlişi Azərbaycanın ticarət-diplomatiya strategiyasını gücləndirir və ölkəni qlobal logistika xəritəsində daha aydın, dayanıqlı oyunçuya çevirir.

Almatıda atılan addımlar, eləcə də bu ilin 9 ayında müşahidə olunan qatar axını Azərbaycana beynəlxalq yükdaşımaların əsas seqmenti kimi önəmlidir. Vahid uzunmüddətli tarifin tətbiqi tranzitin proqnozlaşdırıla bilməsi üçün əsas amildir və Orta Dəhlizin gələcəkdə daha böyük pay qazanmasının əsas katalizatoru olacaqdır. Azərbaycan üçün bu, yalnız tranzit gəliri deyil, həm də regional inteqrasiya, iqtisadi artım və strategiyanın uğurudur. Orta Dəhliz getdikcə ticarətin yeni kimi döyünür. Bakının bu idarəetmə bacarığı region üçün yeni imkanlar yaradır.

*Nurlan ABDALOV*
*XQ*

***Ekspert rəyi***



**Akif NƏSİRLİ,**
**iqtisadçı**

**Almatıda keçirilmiş "Yeni İpək Yolu" VII Beynəlxalq Nəqliyyat və Logistika Biznes Forumundakı razılaşmalar, xüsusilə Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM / Orta Dəhliz) üzrə vahid uzunmüddətli tarifin müəyyənləşdirilməsi bir neçə mühüm perspektiv açır.**

Vahid tarifin tətbiqi yükdaşımalarda şəffaflıq və sabitlik yaradacaq. Çin–Avropa yük axınında Orta Dəhlizin Şimal Dəhlizi (Rusiya üzərindən) və Cənub Dəhlizi (İran üzərindən) ilə rəqabət imkanları güclənəcək. 2025-ci ilin ilk 9 ayında keçən ilə nisbətən blok-qatarların sayında təxminən 40 faizlik artım qeydə alınması tendensiyanın davamlı olacağını göstərir. Tariflərin sabitləşməsi daha çox şirkətin Orta Dəhlizi seçməsinə səbəb ola bilər, xüsusən də Avropa şirkətləri Rusiya üzərindən daşınmalara məhdudiyyətlər səbəbindən alternativ marşrutlara maraq göstərirlər.

Azərbaycan regional logistika qovşağı (habı) kimi mövqeyini gücləndirəcək. Bakı-Tbilisi-Qars, Ələt Beynəlxalq Dəniz Limanı və Bakı Dəmir Yolu Qovşağının yüklə təminat səviyyəsi yüksələcək. Tranzit gəlirləri dövlət büdcəsinə və "Azərbaycan Dəmir Yolları" QSC-yə əlavə maliyyə axını yaradacaq. Artan yük həcmi dəmir yolu, liman və gömrük infrastrukturlarının daha da modernləşdirilməsini tələb edəcək. Xarici investorların – xüsusən Çin, Avropa və Mərkəzi Asiya fondlarının layihəyə marağı artacaq.

Orta Dəhliz yalnız iqtisadi yox, həm də siyasi baxımdan əhəmiyyətlidir. Azərbaycan bu dəhliz vasitəsilə Çin-Mərkəzi Asiya-Qafqaz-Avropa xəttində əsas keçid ölkəsinə çevrilir və regionda rolunu möhkəmləndirir. 2026–2027-ci illərdə Orta Dəhliz üzrə tranzit yüklərin həcmi 2–3 dəfə arta bilər. Bu marşrutun əsas problemləri – logistik koordinasiya, limanlarda gözləmə vaxtı və marşrutun maliyyə dayanıqlığı mərhələli şəkildə həll olunarsa, Orta Dəhliz qlobal ticarətdə ən strateji alternativ yollardan birinə çevriləcək.

Yəni Azərbaycan bu gün Orta Dəhlizin "ürəyi" mövqeyindədir. Güclü coğrafi üstünlükləri və inkişaf edən infrastrukturu ölkəyə strateji imkanlar yaradır. Lakin rəqabətdə qalib gəlmək üçün xidmətlərin sürəti, koordinasiya mexanizmləri və tranzit xərclərinin optimallaşdırılması əsas hədəf olmalıdır.

# "Bahar" və "Qum-dəniz" yataqları ABŞ şirkəti ilə yenidən işlənəcək



## *Burada 50 milyon ton neft, 300 milyard kubmetr qaz ehtiyatı var*

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə ABŞ-ın SLB şirkəti arasında Xəzər dənizindəki "Bahar" və "Qum-dəniz" yataqlarının yenidən işlənməsini sürətləndirmək üçün tərəfdaşlıq barədə sənəd imzalanıb. Bu barədə Dövlət Neft Şirkətindən məlumat verilib.**

Bildirilib ki, bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyənləşdirilməsini, hərtərəfli çən parkının modelləşdirməsinin işlənib hazırlanmasını, eləcə də sözügedən yataqlarda erkən hasilat sxemini dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

Məlumata əsasən, layihə SOCAR-ın neft hasilatını artırmaq və yetkin dəniz aktivlərinin istismar müddətini uzatmaq üzrə uzunmüddətli strategiyasında mühüm rol oynayacaq. Bu təşəbbüs əməliyyat səmərəliliyini və davamlılığı təmin etməklə yanaşı, hasilatı sürətləndirəcək praktik inkişaf ssenarilərini hazırlamaq məqsədi daşıyır.




İmzalanma mərasimində çıxış edən SOCAR-ın işlənmə və hasilat əməliyyatları seqmenti üzrə vitse-prezidenti Babək Hüseynov iki qurum arasındakı uğurlu əməkdaşlığı alqışlayaraq bəhs edib. Layihənin qabaqcıl üsullardan istifadə etməklə yetkin yataqlarda hasilatı optimallaşdırmaq istiqamətində atılan mühüm addım olduğunu söyləyən vitse-prezident "Bahar" və "Qum-dəniz" yataqlarının yenidən qurulmasının növbəti mərhələlərinin texniki əsasının qoyulacağına inamını ifadə edib.

Qeyd edək ki, SOCAR-ın "Qum dəniz" və "Bahar" yataqları üzrə tərəfdaşı SLB neft və qaz hasilatı sahəsində dünyanın ən böyük xidmət şirkətlərindən biridir. Əvvəlki adı "Schlumberger" olan ABŞ neft nəhənginin əsas əməliyyat mərkəzləri Hyuston, Paris, London və Haaqada yerləşir. Qurum neft və qaz sektoruna texnologiyalar, layihə menecmenti və digər xidmətlər sahəsində ixtisaslaşıb.

Layların inteqrasiya olunmuş qiymətləndirilməsi, quyuların tikintisi, hasilatın idarə edilməsi və karbohidrogen emalı üzrə aparıcı qlobal texnoloji təchizatçı olan şirkət Azərbaycanla yanaşı, dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərir. SLB enerji dekarbonizasiyasının gələcəyinə baxışını vurğulayaraq dünyanın ən böyük neft-mədən xidmətləri şirkətindən qlobal texnoloji şirkətə çevrilməsini hədəfləyir.

Müqavilə sahəsinin əhatə etdiyi "Qum dəniz" və "Bahar" yataqlarına gəldikdə isə hər iki yataq ötən əsrin ortalarında Azərbaycan neftçilərinin gərgin əməyi sayəsində istismara daxil edilib. Bakı şəhərindən cənub-şərq istiqamətdə 21 kilometr məsafədə yerləşən "Qum dəniz" neft yatağında dərinliyi 1-2 metrdən 15-14 metr intervalında dəyişir. 1961-ci ildə kəşf olunmuş və ölkənin enerji sektorunda mühüm strateji obyektlərdən sayılan bu yataq 120 kvadratkilometr sahəni əhatə edir. Burada, təxminən, 50 milyon ton neft və 300 milyard kubmetr qaz ehtiyatı var.

İşlənmənin əvvəlindən indiyədək "Qum dəniz" yatağında 500-ə yaxın quyu qazılıb. Ötən müddətdə buradan 29 milyon tondan artıq neft və 128 milyard kubmetrə yaxın qaz çıxarılıb. Bu göstəricilər yatağın iqtisadi dəyərini və Azərbaycanın enerji ixracında əhəmiyyətini vurğulayır. 2025-ci ildə isə "Qum adası" yatağından, təxminən, 27 min ton xam neft hasil ediləcəyi gözlənilir ki, bu da ötən ilin göstəricisi ilə eynidir. Bununla belə, qaz hasilatında artım müşahidə olunur. Proqnoza görə, bu il yataqdan, təxminən, 190,53 milyon kubmetr qaz hasil olunması gözlənilir ki, bu da 2024-cü ilə nisbətən 6,1 faiz artım deməkdir.

"Bahar" yatağı isə Bakı şəhərindən 40 kilometr cənub-şərqə doğru dənizdə yerləşir. Qaz-kondensat ehtiyatlarının zənginliyi ilə seçilən bu yataq 1968-ci il mart ayının 21-də kəşf olunub. 1969-cu ildən sənaye işlənməsinə verilmiş "Bahar" yatağında indiyədək 200-dən artıq quyu qazılıb. Ötən müddətdə buradan təqribən, 13 milyon ton kondensat, 10-15 milyard kubmetr qaz hasil olunub.

"Bahar" yatağının 2025-ci il üzrə proqnozları da ümidvericidir. Bu il yataqdan, təxminən, 27 min ton xam neft hasil ediləcəyi gözlənilir. Eyni zamanda, il ərzində buradan, təxminən, 190,53 milyon kubmetr qaz hasilatı proqnozlaşdırılır ki, bu da 2024-cü ilə nisbətən 6 faiz çoxdur.

Yeri gəlmişkən, hazırda hər iki yataqda hasilat müasir texnologiyalar və ekoloji standartlara uyğun həyata keçirilir. Bu yanaşma həm hasilatın səmərəliliyini artırır, həm də Xəzər dənizinin təbii mühitinin qorunmasına şərait yaradır. Gələcəkdə isə hasilatın artırılması və yeni texnologiyaların tətbiqi ilə bu yataqların ölkə iqtisadiyyatına töhfəsi daha da artacaq.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# "Biləsuvar" GES-də günəş panelləri quraşdırılır

**Biləsuvar rayonunda inşa edilən 445 meqavatlıq günəş elektrik stansiyasında ilk panel quraşdırılıb.**

Bu münasibətlə keçirilən mərasimdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev, "Azərenerji" ASC-nin sədr müavini Rüstəm Qasımov, "Masdar" şirkətinin baş əməliyyat direktoru Əbdüləziz Alobaidli, Dövlət Neft Şirkətinin vitse-prezidenti Əfqan İsayev və "SOCAR Green"nin baş direktoru Elmir Musayev iştirak ediblər.

Çıxışlarda bildirilib ki, Azərbaycanın bərpaolunan enerji hədəflərinə uyğun olaraq həyata keçirilən "Biləsuvar" Günəş Elektrik Stansiyası layihəsinin enerji keçidi və ətraf mühitin qorunmasında əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, həm istehsal gücü, həm də istifadə edilən texnologiyaların miqyası baxımından regionun ən böyük günəş enerji layihələrindən biri olacaq.



Mərasimdə iştirak edən rəsmi şəxslər və qonaqlar simvolik olaraq günəş panellərini imzalayıblar. Daha sonra onların iştirakı ilə ilk panel quraşdırılıb. Ümumi sahəsi 1400 hektar olan Biləsuvar GES-də Çinin "JA Solar" şirkətinin istehsalı olan, hər iki üzü elektrik enerjisi istehsal edə bilən 943 mindən çox panelin quraşdırılması nəzərdə tutulur. Gücü 625-630 Vt təşkil edən günəş panelləri mərhələli şəkildə sahəyə gətirilir.

Stansiya 8 min 131 ədəd tək oxlu izləmə sistemi ilə təchiz olunacaq.

İstismara verildikdən sonra panellərin təmizlənməsi xüsusi qurğular vasitəsilə avtomatik olaraq həyata keçiriləcək. Stansiyanın gələn il istismara verilməsi planlaşdırılır.

*XQ*

# Gürcüstan limanları da Bakıya konteynerlər göndərəcək

**Gürcüstanın Qara dəniz limanlarından Bakı istiqamətində blok qatarları göndəriləcək. Bu barədə "Gürcüstan Dəmir Yolları" Səhmdar Cəmiyyətindən bildirilib. Qurumun "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə Almatıda imzaladığı qarşılıqlı razılaşmaya əsasən, yük sahiblərinə sadələşdirilmiş xidmət təqdim olunacaq.**



Batumi-Poti-Tbilisi-Abşeron-Sumqayıt-Ələt marşrutu üzrə hərəkət edəcək blok–qatarlar Qara dəniz limanlarını Azərbaycanın ən böyük terminalları ilə birləşdirəcək. Qatarların hərəkəti isə öncədən müəyyən edilmiş qrafik üzrə tənzimlənəcək. Yük sahibləri konteynerləri Poti limanından Bakıya ən qısa müddətdə daşıya biləcəklər. Onlar öz konteynerinin Bakıya gəlməsinin nə qədər vaxt çəkəcəyini və boş konteynerin geri qayıtmasının nə qədər vaxt aparacağını da əvvəlcədən biləcəklər.

"Gürcüstan Dəmir Yolları"nın baş direktoru Laşa Abaşidze bildirib ki, yeni xidmətlə yük sahibləri vaxtdan əlavə xərclərə əhəmiyyətli dərəcədə qənaət edəcəklər: "Yüklərin və boş konteynerlərin terminallarda saxlanması gündəlik ödəniş tələb edir. Məqsədimiz odur ki, şirkət mümkün qədər çox yük daşısın və nəticədə "Gürcüstan Dəmir Yolları"nın gəlirləri artsın".

*XQ*

*Mənəvi sağlamlıq*

**Uşağın şəxsiyyətinin formalaşmasında ailə mühitinin və valideyn tərbiyəsinin rolu əvəzsizdir. Hər bir valideyn övladını tərbiyəli və cəmiyyətə yararlı bir fərd kimi görmək istəyir. Lakin bu istəyin reallığa çevrilməsi üçün yalnız sevgi və qayğı kifayət etmir. Əsas məsələ tərbiyənin necə verilməsindədir. Çox vaxt valideynlər yaxşı niyyətlə başladığı tərbiyə üsullarının nəticələrinin illər sonra istədikləri kimi olmadığını görür və bunun peşmanlığını yaşayırlar. Xüsusilə də zorakı və aqressiv tərbiyə modelləri ilə böyüyən uşaqların psixoloji inkişafında ciddi pozuntular müşahidə olunur. Mövzu ilə bağlı həmsöhbətimiz psixoloq Vüsalə Əmiraslanovadır.**

# Uşaq qəlbi kövrək şüşədir

## *Onu ləkələnməkdən, sınmaqdan necə qoruyaq?*



**– Valideynlər övladlarını uğurlu, tərbiyəli, cəmiyyətə yararlı görmək istəyirlər. Amma bu istəyi həyata keçirmək üçün təkcə sevgi kifayət edirmi? Yoxsa başqa amillər də vacib rol oynayır?**

– Uşaq dünyaya göz açdığı andan etibarən onun ilk tanış olduğu, ilk təhlükəsizlik və sevgi duyğularını hiss etdiyi mühit ailədir. Ailə uşağın həm emosional, həm sosial, həm də mənəvi inkişafı üçün baza funksiyasını daşıyır. Ailədəki münasibətlər, valideynlərin bir-biri ilə və övladları ilə olan ünsiyyət tərzi uşağın davranış modelini formalaşdırır. Əgər ailədə qarşılıqlı hörmət, anlayış, empatiya və sabitlik varsa, uşaq özünü güvənli hiss edir. Bu da onun xarici dünya ilə münasibətlərində açıq, empatik və sabit şəxsiyyət kimi formalaşmasına səbəb olur. Əksinə, ailədə münaqişə, laqeydlik və ya zorakılıq hökm sürürsə, bu, uşağın həm emosional, həm də psixoloji inkişafında ciddi travmalara yol açır. Ümumiyyətlə, uşağın şəxsiyyəti ilk 6-7 il ərzində formalaşır və bu dövrdə ailənin rolu xüsusilə ön plana çıxır. Valideyn davranışları bu prosesdə həlledici təsirə malikdir.



**– Deməli, ailə münasibətlərinin əsasında ər və arvadın bir-biri ilə olan münasibəti dayanır.**

– Onlar ailənin qoşa qanadları hesab olunur və aralarındakı münasibət uşaqların bu günü və gələcəyi üçün çox önəmlidir. Xüsusilə Azərbaycan ailə modelində bu münasibətlər xüsusi önəm daşıyır. Azərbaycan ailəsi kökə, nəslə və uşağa bağlılığı ilə seçilir və bu dəyərlər üzərində qurulan münasibətlər ailəni daha da möhkəmləndirir. Ər və arvad arasındakı münasibətin məzmununu qarşılıqlı hörmət və qayğı, səmimiyyət və mehribanlıq təşkil etməlidir. Uşaqların tərbiyəsində vahid mövqedə olmaq və bir-birinin nüfuzunu qorumaq ailədaxili münasibətlərin əsasını təşkil edir.

Pedaqoji və psixoloji tədqiqatlar göstərir ki, uşağın sağlam psixoloji inkişafa sahib olması üçün onun ana ilə olan emosional ünsiyyəti, xüsusən də ilk üç ildə son dərəcə əhəmiyyətlidir. Bu dövrlərdə uşağın əsas psixoloji ehtiyacları sevgi, məhəbbət, qayğı və digər ülvi hisslərdir. Eyni zamanda, uşağın idrak fəallığının inkişafı da müasir dövrün tələblərindəndir.

Cəmiyyətdə artan informasiya bolluğu, sosial və iqtisadi dəyişikliklər uşaqların istedad və zehni qabiliyyətlərinin inkişafını zəruri edir.

Zehni və intellektual inkişaf yalnız irsiyyət və anadangəlmə qabiliyyətlərlə məhdudlaşmır. Bu səbəbdən də ailədə sağlam psixoloji mühitin və əlverişli şərait yaradılmalıdır. Məsuliyyət də ailənin üzərinə düşür. Bu baxımdan müasir dövrdə valideynlərin pedaqoji savadının və ümumi mədəniyyət səviyyəsinin yüksəldilməsi vacibdir. Xüsusilə anaların savadlı və məlumatlı olması uşaqların düzgün tərbiyəsi və ailədaxili münasibətlərin sağlam qurulması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ailədaxili münasibətlər, yəni ər-arvad, valideyn-uşaq və uşaqlar arasındakı qarşılıqlı ünsiyyət uşağın şəxsiyyətinin formalaşmasına güclü təsir göstərir və onun gələcəkdə quracağı şəxslərarası münasibətlərin əsasını qoyur. Ailə tərbiyəsinin əsas prinsiplərindən biri uşaqlara hörmət və eyni zamanda tələbkarlıqdır. Uşaqların şəxsiyyət və ləyaqəti hər yaşda qorunmalı, onlara qarşı alçaldıcı davranış, fiziki və ya psixi zorakılıq, ələ salmaq, təhqir etmək, gülünc vəziyyətə salmaq, ya da başqalarından üzr istəməyə məcbur etmək yolverilməzdir.

Bütün deyilənləri ümumiləşdirərək demək olar ki, ailə yalnız bioloji varlığın davamı üçün yox, uşağın şəxsiyyətinin formalaşması üçün fundamental bir məktəbdir. Bu mühit uşağın gələcək həyatı üçün əsaslı təməl rolu oynayır və onun cəmiyyətə uyğun, sağlam, şəxsiyyətli bir fərd kimi yetişməsini təmin edir.

**– Uşaqlarda aqressiv, passiv və ya qeyri-sabit davranışların formalaşmasının kökündə hansı valideyn yanaşmaları dayanır? Bu nə dərəcədə ailədaxili münasibətlərlə bağlıdır?**

– Uşağın davranış repertuarı birbaşa valideynlərinin ona təqdim etdiyi münasibət modelindən formalaşır. Uşaqlar dünyanı valideynlərinin gözündən öyrənirlər. Əgər valideyn övladına qarşı aqressivdirsə, uşaq ya bunu öz davranışında təkrarlayır, ya da qorxu ilə susaraq passivliyə çəkilir. Məsələn, uşaq səhv etdikdə valideynin onu qorxutması – “səni uşaq evinə verərik”, “bu yeməyi yeməsən səni qara paltarlı kişi aparacaq” kimi ifadələr uşağın emosional vəziyyətini pozur. Bu cür ifadələr itirilmə qorxusu, ayrılıq narahatlığı, fobiyalar və natamamlıq kompleksi kimi psixoloji travmalar yaradır.

Digər tərəfdən, ailədə valideynlər arasında münaqişələr və ziddiyyətli tərbiyə modelləri də uşağı qeyri-sabit edir. Məsələn, bir valideyn “get”, digəri “getmə” deyir. Bu halda uşaq qərarsızlıq içində qalır və yetkinlik dövründə də qərar verməkdə çətinlik çəkən bir şəxsiyyətə çevrilə bilər.

Belə bir şəraitdə ailədə ardıcıllıq, sabitlik və koordinasiya vacibdir. Valideynlər öz aralarında razılaşmalı, tərbiyə mövzusunda vahid mövqe sərgiləməlidirlər. Unutmayaq ki, valideynlərin övladlarına qarşı istifadə etdiyi sözlər və davranışlar onların “daxili səsi”nə çevrilir. Valideynin “korsan, görmürsən?!” deyə qışqırdığı uşaq zamanla özünə bu cür yanaşır: “Mən bacarıqsızam, mən ağılsızam, mən səhvəm”. Halbuki, eyni hadisəyə daha anlayışlı və izahedici yanaşmaq mümkündür. Məsələn, “Balam, bunu bilərəkdən etmədin, amma indi biz bu stəkanı yenidən almalıyıq” deyə ifadə olunan münasibət həm empatiyanı, həm məsuliyyəti, həm də tərbiyəni ehtiva edir.

Məsələn, uşaq səhv etdikdə onu danlayıb cəzalandırmaq əvəzinə, ona nəyi niyə etməməli olduğunu izah etmək daha konstruktiv nəticələr verir. “Sən bunu bilərəkdən etmədin, amma bu stəkan sındı, indi birlikdə necə düzəldə bilərik?” kimi yanaşma həm məsuliyyət hissi oyadır, həm də uşağı alçaltmadan davranışına düzəliş verir. Tərbiyə, əslində, sevgidən doğan intizam və istiqamətləndirmədir.

Əks halda, uşaqda inamsızlıq, manipulyasiya meyilləri və sosial yöndə qeyri-adekvat reaksiyalar inkişaf edə bilər.

**– Sovet dövründən qalan, cəza yönümlü tərbiyə modellərinin bu günə qədər davam etməsi uşağın şəxsiyyətinə necə təsir edir?**

– Bu, çox aktual və ciddi bir problemdir. Sovet dövründə tərbiyə çox vaxt sərtlik, itaətkarlıq və cəza üzərində qurulmuşdu. Uşaqdan “sözə baxmaq” tələb olunurdu, fərdi hisslər və emosiyalar isə çox vaxt nəzərə alınmırdı. Təəssüf ki, bu yanaşma bu gün də bəzi ailələrdə davam edir. Uşağı “ağıllansın” deyə döymək, otağa salmaq, qorxutmaq, qışqırmaq və ya başqalarının yanında alçaltmaq onun şəxsiyyətini zədələyir, öz dəyərini şübhə altına salır. Bu uşaqlar zamanla ya daxilən depressiv, özgüvənsiz fərdlərə çevrilirlər, ya da həmin aqressiyanı gələcəkdə öz övladlarına və ya cəmiyyətə yönəldirlər.

Araşdırmalar göstərir ki, zorakılıqla tərbiyə olunan uşaqlar böyüdükdə ya zərər verən, ya da zərər görən tərəfə çevrilir. Valideynin “sən korsan?!” deyə qışqırdığı uşaq böyüyəndə öz-özünə “mən bacarıqsızam” deyir. Bu da onun həm akademik, həm sosial, həm də ailə həyatına mənfi təsir göstərir. Zorakılıqla tərbiyə verilən uşaq sevgi yox, qorxu ilə idarə olunur və qorxu əsasında formalaşmış davranışlar uzunmüddətli deyil. Beləliklə, cəza yönümlü tərbiyə modeli nə təkamülə, nə də emosional sabitliyə gətirib çıxarır. Əvəzində, travmalı və aqressiv bir cəmiyyət yaranır.



**– Valideynlər arasında münaqişələr uşaqlara necə təsir edir? Bəziləri düşünür ki, uşaq duymur və ya anlamır... Bu doğrudurmu?**

– Bu çox yayılmış, lakin yanlış bir yanaşmadır. Uşaqlar çox kiçik yaşlardan valideynlərinin münasibətini hiss edir və bu, onların daxili dünyasına birbaşa təsir edir. Hətta 6 aylıq körpələrdə belə valideynlər arasında gərginlik olduqda stres hormonu olan kortizolun səviyyəsinin artdığı sübut edilib. Bu isə onların beyin inkişafına, yuxusuna və emosional sabitliyinə mənfi təsir göstərir.

Əgər münaqişələr tez-tez baş verirsə, uşaqda narahatlıq, yuxusuzluq, davranış pozuntuları, depressiya və ya aqressiya müşahidə olunur. Uşaqlar bəzən bu münaqişələri özləri ilə əlaqələndirirlər – “mən yaxşı uşaq olsaydım, valideynlərim dalaşmazdı” düşüncəsi yaranır. Bu isə onların üzərinə daşıya bilməyəcəkləri emosional yük qoyur. Uşaq ailədə gördüyü münasibəti gələcəkdə öz həyatına daşıyır. Əgər evdə sevgi və anlayış yoxdursa, bu münasibət modelini normallaşdırır və gələcək ailəsində də eyni davranışları sərgiləyir. Yəni problem təkcə bu günə deyil, növbəti nəsillərə ötürülən bir zəncirvari travmaya çevrilir.

**– Bəs sağlam tərbiyə modelinin əsas prinsipləri nə olmalıdır? Valideynlər nə etməlidirlər ki, övladları həm cəmiyyətə, həm də özlərinə faydalı fərd kimi yetişsin?**

– Sağlam tərbiyənin təməlində üç əsas prinsip dayanır: sevgi, anlayış və davamlı ünsiyyət. Valideyn, ilk növbədə, uşağı bir fərd kimi tanımalı, onun duyğularını, fikirlərini dinləməli, ona izah etməli və empatiya göstərməlidir. Uşağa qarşı həssaslıqla yanaşmaq, onun daxili dünyasını anlamağa çalışmaq tərbiyənin effektivliyini artırır.

Eyni zamanda, ailə daxilində sabitlik, emosional təhlükəsizlik və qarşılıqlı hörmət mühiti yaradılmalıdır. Uşaq evdə özünü rahat və güvənli hiss etdikdə, xarici dünyaya açılmaqdan, yeni bacarıqlar öyrənməkdən qorxmur. Valideynlər isə təkcə sözlə yox, davranışları ilə də nümunə olmalıdırlar, çünki uşaqlar valideynlərinin dediklərini deyil, görüb yaşadıqlarını təkrarlayırlar. Bunun üçün valideynlər arasında ahəngdar münasibət, münaqişələrin sivil həlli və birgə qərarvermə vacibdir. Bu mühit uşağın gələcəkdə necə bir insan olacağını, həm fərd kimi, həm də cəmiyyət üzvü kimi formalaşmasını müəyyən edir.

Valideyn olmaq asandır, amma valideynliyi daşımaq məsuliyyətdir. Bu məsuliyyət uşağa sevgi ilə yanaşmaq, onu dinləmək, düzgün istiqamətləndirmək və sərhədlər qoymaq arasında incə bir tarazlığı qorumağı tələb edir. Nəticədə isə sağlam tərbiyə həm uşağın, həm də cəmiyyətin rifahına xidmət edən güclü və mərhəmətli fərdlərin yetişməsini təmin edir.

***Söhbəti hazırladı:***
***Ə.PÜNHAN***
***XQ***

---

*Sosial gündəm*

# Doğma yurduna qayıdanlara dövlət dəstəyi

**Böyük Qayıdış proqramının icrası uğurla davam edir, sakinlər davamlı olaraq öz doğma yurdlarına köçürlər. İşğaldan azad olunmuş ərazilərdə diqqət mərkəzində saxlanılan məsələlərdən biri də həmin ərazilərdə məşğulluğun təmin olunmasıdır. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Qarabağ və Şərqi Zəngəzurda sakinlərin sosial dəstək, həmçinin aktiv məşğulluq tədbirləri ilə əhatə olunması başlıca vəzifələrdəndir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi həmin ərazilərdə əhalinin məşğulluq məsələlərinin həlli sahəsində genişmiqyaslı işlər aparır. Artıq 4 minə yaxın şəxs Dövlət Məşğulluq Agentliyi tərəfindən aktiv məşğulluq proqramları ilə əhatə olunub. Təxminən 2500 nəfər şəxs işlə təmin olunub və daha bir qrup sakinin məşğulluğunun təminatı üçün işlər aparılır.

İşğaldan azad olunan ərazilərimizə köçürülən və köçürüləcək şəxslər üçün məşğulluq imkanlarının yaradılması məqsədilə əlavə tədbirlər hazırlanır. Sosial tərəfdaşlarla işin gücləndirilməsi, işsiz şəxslərin peşə bacarıqlarının artırılması və yeni iş yerlərinin yaradılmasının təşviqi həmin tədbirlər sırasındadır. Eyni zamanda sakinlər üçün peşə hazırlığı kurslarının təşkili işləri aparılır. Artıq 130-a yaxın şəxs kurslara cəlb edilib. Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdlarına köçürülmüş sakinlərdən özünüməşğulluq proqramı vasitəsilə kiçik təsərrüfat quran şəxslərin sayı artıq 460-a çatıb.



Bu günlərdə Ağdam, Xocalı, Laçın, Ağdərə rayonları və Şuşa şəhərində daha 15 sakinə özünüməşğulluq proqramı çərçivəsində mal və materiallar təqdim edilib. Verilmiş aktivlər hesabına sakinlər qoyunçuluq, maldarlıq təsərrüfatı, un məmulatları istehsalı, kiçik dərzi sexi, qadın gözəllik salonu, foto atelye və digər istiqamətlər üzrə kiçik bizneslərini yaradıblar. Həssas qruplara aid şəxslərin kiçik biznes qurmalarına imkan yaradan “Məşğulluğa Dəstək Layihəsi” çərçivəsində 2025-ci ilədək ümumilikdə 22 min şəxs aktivlərlə təmin olunacaq.

Qarabağ və Şərqi Zəngəzurda əmək bazarının dirçəlməsi və dayanıqlı məşğulluğun təmin olunması məqsədilə əmək yarmarkalarının təşkili mühüm əhəmiyyət daşıyır. Qeyd edək ki, 2023-cü ildə Füzuli və Laçında ilk dəfə olaraq əmək yarmarkası təşkil edilib. Füzuli şəhərində keçirilən yarmarkada 16 işəgötürən üzrə 109, Laçın şəhərində isə 16 işəgötürən üzrə 200 vakansiya təqdim edilib. Ötən il həmin ərazilərdə 10 əmək, bir peşə yarmarkası həyata keçirilib. Yarmarkalarda bank, sığorta, istehsal və xidmət, emal sahəsi ilə bağlı olan vakansiyalara üstünlük verilir. Azad olunan ərazilərdə daha çox tikinti-quruculuq işləri, xidmət sahələri üzrə əməkdaşlara ehtiyac olduğuna görə daha çox yönləndirmə bu istiqamətlər üzrədir.

Azərbaycan hökuməti Qarabağ və Şərqi Zəngəzur ərazilərində əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün əlçatan reabilitasiya imkanları yaratmaq məqsədilə yeni müəssisələrin açılması istiqamətində işlər aparır.

İşğaldan azad edilən ərazilərimizdə də sosial xidmət mərkəzləri şəbəkəsi genişləndiriləcək. Bu bölgələrimizdə tənha ahıl və əlilliyi olan şəxslərin sosial məişət xidmətləri ilə təminatı həyata keçirilməklə yanaşı, evlərində stasionar və yarımstasionar tipli sosial xidmət müəssisələri də yaradılacaq. Eyni zamanda, dövlət sosial sifarişləri əsasında qeyd edilən ərazilərdə günərzi qayğı və icma əsaslı reabilitasiya xidmətləri göstərən mərkəzlər qurulacaq.

2023-cü il avqustun 7-də Prezident İlham Əliyevin iştirakı ilə Bərdə şəhərində açılışı olan Qarabağ Regional DOST Mərkəzi Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Xocalı, Şuşa, Xocavənd rayonları və Xankəndi şəhərinin sakinlərinə xidmət göstərir. Mərkəzdə ötən dövrdə “bir pəncərə”dən, tam şəffaf, operativ, vətəndaş məmnunluğu prinsipi əsasında 161 növ sosial xidmət göstərilib. Qarabağ Regional DOST Mərkəzi gün ərzində təxminən 650-700 vətəndaş qəbul edə bilir. Bir ildə təxminən 20 min nəfərə məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin sosial-hüquqi, sosial-məişət və sosial-pedaqoji xidmətlər göstərilir. Son iki ildə 147 min vətəndaşın bu xidmətlərdən məmnunluğu 99,7 faiz təşkil edib.

Mərkəzin nəzdində Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi də açılıb. 7 emalatxana, 8 sinif və təlimat otağı, eləcə də Peşəyönümü və Karyera Mərkəzi, inzibati və texniki otaqlardan ibarət olan həmin Mərkəzdə 48 peşə istiqaməti üzrə tədrisin həyata keçirilməsi, bir dəfədə 300, ildə 1200 nəfərin peşə hazırlığı keçməsi üçün hər bir şərait yaradılıb.

Qarabağ Regional DOST Mərkəzində fəaliyyət göstərən “RehaPoint” – Reabilitasiya Məntəqəsində əlilliyi olan şəxslər reabilitasiya vasitələri ilə təmin olunur. Bərdə şəhərindəki Qarabağ Regional DOST Mərkəzində bölgədə yaşayan əlilliyi olan şəxslərə ambulator formada müalicəvi bədən tərbiyəsi, əmək terapiyası, psixoloq və loqoped xidmətləri göstərilir, eləcə də onların ehtiyac duyduqları reabilitasiya vasitələri ilə təminatı həyata keçirilir. Məqsəd regionlarda əlilliyi olan şəxslərin reabilitasiya xidmətlərinə əlçatanlığının və vətəndaş məmnunluğunun artırılması, bərpa prosesində əldə edilən nəticələrin davamlılığının təmin edilməsi, regionlarda reabilitasiya infrastrukturunun gücləndirilməsidir.

Reabilitasiya məntəqəsində ötən dövrdə əlilliyi olan 1450-dək şəxs reabilitasiya xidmətləri ilə təmin edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən məntəqədə əlilliyi olan şəxslərə ambulator formada müalicə ilə yanaşı, ehtiyac duyduqları 800-dən çox reabilitasiya vasitəsi də verilib. Ambulator Reabilitasiya Mərkəzi - “RehaPoint” infrastrukturunun yeni yaradılacaq regional DOST mərkəzləri gələcəkdə 12 DOST Mərkəzi üzrə genişləndiriləcək və ümumilikdə, 72 mindən çox əlilliyi olan şəxsi əhatə edəcək.

***Mustafa KAMAL***
***XQ***

Cavanşir Quliyev – 75

# Milli ruhlu, yenilikçi bəstəkar

## Dillər əzbəri “Əsgər marşı”nın müəllifi

**Əməkdar incəsənət xadimi, professor, bəstəkar Cavanşir Quliyev Azərbaycan bəstəkarlıq məktəbinin, eləcə də milli musiqi sənətinin zəngin ənənələrini orijinal üslubda birləşdirərək musiqinin müxtəlif janrlarda yazdığı maraqlı və fərqli əsərləri ilə tanınır. Bəstəkarın əsərləri Avropa, ABŞ, Asiya, postsovet məkanı və digər regionlarda səslənir, beynəlxalq müsabiqələrdə və festivallarda nüfuzlu musiqiçilər tərəfindən yüksək dəyərləndirilir.**



Sənət yoluna XX əsrin 70-ci illərində qədəm qoymuş və bugünədək zəngin, mənalı yaradıcılıq yolu keçmiş Cavanşir Quliyev hər bir əsərində xalq musiqisi xəzinəsinə yenilik və müasirlik mövqeyindən yanaşır. O, klassik janr və formaların əsas göstəricilərini qoruyub saxlamağa da üstünlük verir. Bəstəkarın müxtəlif janrlı əsərlərində – simfoniya, sonata, kvartet, oratoriya və s. – klassik musiqidə formalaşmış əlamətlər özünü aydın göstərir.

Cavanşir Quliyevin sənət yolu Üzeyir Hacıbəylinin təməlini qoyduğu ənənələrin dünya musiqi klassikası ilə qarşılıqlı əlaqəsinin fərdi mənimsənilməsi əsasında formalaşmış və inkişaf etmişdir. Muğamlarımızı və aşıq sənətini mükəmməl bilən bəstəkar bunlardan bacarıqla istifadə edərək özünün təkrarolunmaz musiqisini yaratmışdır.

Milli ənənələrin müasir yazı texnikası ilə sintezi bəstəkarın özünəməxsus fərdi üslubunun göstəricisi kimi diqqəti cəlb edir. Xalq musiqisinin dərin qatları ilə əlaqə özünü onların musiqi dilində, xarakterində və ruhunda parlaq şəkildə göstərir. Burada bəstəkarın neofolklorçu kimi bədii axtarışlarının nəticəsi də öz təsdiqini tapır.

Cavanşir Quliyevin milli mənbələrə bağlılığı təkcə folklorla məhdudlaşmır, o, müasir musiqi əsərinin yaranmasında milliliyi önəmli amil sayır. Novator sənətkar Üzeyir Hacıbəylinin, Qara Qarayevin, müəllimi Cövdət Hacıyevin yolunu davam etdirir.

Cavanşir Quliyevin əsərlərində yeni ideyaların təcəssümü kifayət qədərdir. O, istənilən janrda yaratdığı əsərlərdə yeni söz deməyə, yenilik nümayiş etdirməyə qadir bəstəkardır. Skripka və saz üçün sonatada (1980) bəstəkar Azərbaycan musiqisində ilk dəfə olaraq milli musiqi aləti olan sazı Avropa tərkibli alətlərlə bir səviyyəyə qaldırmış və müasir ifadə metodlarına yaxınlaşdırmışdır. Bəstəkarın “İpək yolu” layihəsi üçün hazırladığı fleyta, saz və violonçel üçün “Karvan” (2000) kamera-instrumental kompozisiyası da bu baxımdan maraq doğurur.

“Muğam ladlarında yeddi pyes” adlı kamera-instrumental əsərində də Cavanşir Quliyevin orijinal ideyalarının reallaşması aydın görünür. Burada bəstəkar muğam dəstgahının strukturunu xatırladan təzadlı hissələrdən – prelüd və interlüdiaların ardıcıllaşmasından istifadə edir. Yeddi əsas Azərbaycan muğamının – rast, şur, segah, çahargah, şüştər, humayun, bayatı-şiraz məqamlarının obrazlar aləmi pyesdə sərbəst quruluşlu, improvizasiyalı prelüdlər vasitəsilə təqdim olunur.

Cavanşir Quliyevin yenilik axtarışları kamera-instrumental janrlardan əlavə, simfonik yaradıcılığında da öz əksini tapır. Dörd simfoniyanın müəllifi olan bəstəkarın yeni ideya tapıntısı onun vətənpərvərlik ruhunda yazdığı “Zurna və simfonik orkestr üçün uvertüra”sında (1980) yer alıb. Burada Cavanşir Quliyev ilk dəfə olaraq xalq çalğı aləti olan zurnanı aparıcı solo alət kimi simfonik orkestrin tərkibinə daxil edir. Bununla da o, Üzeyir Hacıbəyli ənənələrinin davamçısı, onun musiqili obrazlarının yeni müasir yozumda təcəssüm edən varisi kimi özünü göstərir.

Simfonik musiqi sahəsində axtarışların davamı “Dastan” adlı IV simfoniyada (2006) əksini tapıb. Üzeyir Hacıbəyliyə həsr edilən birhissəli simfoniyada bəstəkar yenə də dahi sənətkarın ənənələrini özünəməxsus tərzdə simfonik musiqidə reallaşdırmağa çalışıb.

Cavanşir Quliyev çox sayda, müxtəlif janrlarda 30-dan çox bədii filmə (“Aşıq Qərib”, “Qocalar”, “Qəm pəncərəsi”, “Süd dişinin ağrısı”, “Lətifə”, “Buta”, “Canavar balası”, “Cavid ömrü”, “Fəryad”, “Girişmə, öldürərəm”), televiziya filmlərinə (“Sonuncu məhəbbət”, “Şirbalanın məhəbbəti”, “Dirsə xan oğlu Buğac boyu”, “Salur Qazanın evi talandığı boy”, “Fatehlərin divanı”, “Ağ dünya”, “İtkin gəlin” və s.), sənədli filmlərə (“Anarla üz-üzə”, “Azərbaycan milli qəhrəmanları”, “Bəxtiyar Vahabzadə”, “Daş yaddaş”, “Dünya bir pəncərədir”, “Haray”, “Kəndlilərin harayı”, “Qayıdış”, “Mirzə Kazım bəy” və s.), hətta cizgi filmlərinə (“Xeyir və Şər”, “Çətin məsələ”, “Çalalar”) musiqi bəstələmişdir.

Akademik Milli Dram Teatrında musiqi hissə müdiri kimi çalışmış bəstəkar Gənc Tamaşaçılar Teatrı, Sumqayıt Dövlət Musiqili Dram Teatrı, Gəncə, Şəki, Xankəndi, Mingəçevir, Ağdam, Naxçıvan, Lənkəran, İrəvan Dövlət Dram teatrları, “İlham” miniatür teatrı, Yuğ Dövlət Teatrı, Moskva Qoqol adına Dram Teatrı üçün 200-dən artıq tamaşaya musiqi bəstələmişdir.

Onun bəstəkar kimi tanınmasında və populyarlaşmasında müxtəlif məzmunlu mahnıların da böyük rolu olmuşdur. Cavanşir Quliyevin mahnılarının sayı 1000-dən çoxdur və mövzu dairəsi olduqca genişdir.

Cavanşir Quliyev mahnılarında söz və musiqinin bir-birinə uyğunlaşdırılmasına nail olmuşdur. Musiqi dili sadə və minimalist, təravətli, milli təbiətli, bənzərsiz olan “Bura Vətəndir”, “Aya baxdım”, “Yarım gilə”, “Məhəbbət olmayanda”, “Hər şey gözəldir” kimi saysız-hesabsız mahnıları asanlıqla yadda qalır, ruha hopur, ürəklərə yol tapır və qəlbləri duyğulandırır. Dillər əzbəri olmuş “Əsgər marşı” ilə o, müasir Azərbaycan musiqisində ilk hərbi marşın müəllifi kimi tarixə düşmüş və xalqı vahid ideya ətrafında möhkəm birləşdirə bilmişdir.

Cavanşir Quliyevin vokal yaradıcılığı təkcə ayrı-ayrı mahnılarla tükənmir. Onun vahid ideya ilə əhatə olunmuş mahnı silsilələri də mövcuddur. Bu baxımdan Məhəmməd Füzulinin “Leyli və Məcnun” poeması əsasında “Leyli demə” tamaşası (1995, Dövlət Gənclər Teatrı) üçün bəstələdiyi mahnı silsiləsində bəstəkar şairin 8 qəzəli əsasında xor üçün nəzərdə tutulan musiqi nümunələrini təqdim edir.

Bəstəkarın mahnı silsilələri arasında yenə də tamaşa üçün bəstələnən “Novruz” nəğmələri də maraq doğurur. “İlham” miniatür teatrı üçün Rafiq Səməndərin sözlərinə yazılan bu mahnı silsiləsi (1997) uşaqlar üçün nəzərdə tutulmuşdur.

Şimali Kipr Türk Respublikasında yaşayıb fəaliyyət göstərməsi onu yeni yaradıcılıq axtarışlarına sövq etmişdir. Kiprdəki pedaqoji fəaliyyəti onun bəstəkar kimi yaradıcılığına güclü stimul vermişdir. Belə ki, bu dövr ərzində o, türk mədəni həyatından və tarixindən təsirlənərək bir sıra maraqlı əsərlər bəstələmişdir. Bunlar əsasən irihəcmli səhnə əsərləridir: eyniadlı türk dastanı əsasında yazılmış üçpərdəli “Oğuznamə” (2006), “Nuhun Tufanı” (2010), eyniadlı türk xalq nağılı əsasında bəstələnmiş “Kızılırmak” (2015) baletləri, həmçinin böyük türk şairi və yazıçısı Nəcib Fazıla həsr olunmuş üç bölmə və on üç hissəli oratoriya (2016), görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqə ithaf edilən – Proloq, altı ağı, beş qaragüruh və epiloqdan ibarət “Müşfiq ağıları” (2020) oratoriyası, bir neçə süita, həmçinin Kipr dövrünün son əsərlərindən olan və türk tarixinin faciəvi səhifələrindən bəhs edən “Anzak Koyu Ağıtı” oratoriyasıdır.

Uzun müddət vətəndən uzaqda yaşamasına baxmayaraq, Cavanşir Quliyev hər zaman Qarabağ problemini diqqət mərkəzində saxlamış, bu mövzuya istər kinomusiqisində, mahnılarında, istərsə də simfonik və kamera-instrumental yaradıcılığında müxtəlif aspektlərdən yanaşmışdır.

Musiqişünas Zümrüd Dadaşzadənin qeyd etdiyi kimi, Cavanşir Quliyev “öz üslubunu sənət yolunun başlanğıcında tapdığına görə seçdiyi yolla inamlı addımlarla addımlamaqda davam edir”. Bu yubiley ilində biz də Cavanşir Quliyevə çətin və məsuliyyətli sənət yolunda hər zaman mətin və yorulmaz, öz əqidəsində möhkəm və dönməz olmasını, zirvələrə yüksəlməsini arzulayırıq.

***Akif QULİYEV,***
***Əməkdar incəsənət xadimi,***
***professor***

# Ali məktəbdə deportasiya və soyqırımı dərsi

**“Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər” İctimai Birliyinin “Qərbi Azərbaycan repressiya və soyqırımı qurbanlarının tədqiqi” layihəsi çərçivəsində növbəti məclisi Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilib.**



Layihənin məqsəd və məramı barədə məlumat verən ictimai birliyin sədri Tamxil Ziyəddinoğlu qeyd edib ki, Azərbaycanın əsas hissəsindən ayrı salınmış Qərbi Azərbaycanda erməni millətçilərinin XX əsr boyunca törətdikləri davamlı repressiya, soyqırımı və deportasiya aktlarını əhatəli öyrənmək, çoxsaylı faciələrin qurbanlarını yad etmək, tarixi vətəndən kənarda böyümüş gənc nəsli ata-baba yurduna qayıtmağa təşviq etmək üçün rəhbərlik etdiyi qurum müxtəlif layihələr gerçəkləşdirir. Sovet zamanında Bakıda təhsil almış Qərbi Azərbaycan ziyalılarının bir çoxu Pedaqoji Universitetin yetirmələri olduğundan icma ilə bu ali məktəbi doğma əlaqələr birləşdirir. Bu gün də universitetdə Qərbi Azərbaycan əsilli xeyli insan çalışır və təhsil alır.

Pedaqogika elmləri doktoru, dosent Nailə Hüseynova belə önəmli layihənin Pedaqoji Universitetdə keçirilməsinin gənclər üçün gərəkli olduğunu söyləyib, Qərbi Azərbaycana qayıdış hərəkatına göstərdiyi dəstək işində ictimai birliyə uğurlar arzulayıb. Əməkdar elm xadimi Fərrux Rüstəmov məclisdə iştirak edən qazilərə kollektivin xüsusi ehtiramını ifadə edib, Qərbi Azərbaycanda törədilmiş deportasiya və soyqırımlarının dəhşətlərindən söz açıb.

Layihənin eksperti, tarixçi Baxşeyiş Ələmşahov Zəngəzur mahalında başına gətirilmiş müsibətlərlərdən, 37 illik yurd həsrədindən danışıb. Filologiya elmləri doktoru, professor İbrahim Bayramov, pedaqogika elmləri doktoru Vidadi Orucov, qazi Ələkbər Məmmədov təqdim edilən layihənin cəmiyyətdə diqqətlə izlənildiyini, qayıdış hərəkatına hamılıqla dəstək verməyin zəruriliyini vurğulayıblar.

Görüşdə 16 yaşında Qərbi Azərbaycandan vəhşiliklə qovulmuş, sonra pedaqoji universitetin məzunu olmuş polkovnik Şaiq Məmmədovun Qarabağ savaşında keçdiyi şərəfli döyüş yolundan bəhs edən “Ölümü öldürənlər” filmi nümayiş olunub.

Sonda Tamxil Ziyəddinoğlu layihəyə göstərdiyi maliyyə yardımına görə Qeyri–Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə və görüş üçün yaratdığı şərait üçün Pedaqoji Universitetin rəhbəliyinə razılığını bildirib. O, müəllifi olduğu “Güllə səsinə açılan qapı” kitabını və son 2 əsrdə erməni vandalizminin xalqımıza vurduğu maddi və mənəvi zərərləri əks etdirən bukletləri iştirakçılara təqdim edib.

***T.RÜSTƏMLİ***
***XQ***

XI Bakı Beynəlxalq Kitab Sərgisi

# Paytaxtımızda kitab təntənəsi

**XI Bakı Beynəlxalq Kitab Sərgisinin ikinci günündə “Heydər Əliyevin vətən səfərləri” çoxcildliyinin təqdimatı keçirilib. Ulu öndərin liderlik fəaliyyətinin önəmli bir yönünə geniş işıq salan ensiklopedik nəşr ikicildlik lüğət və Ümummilli lider Heydər Əliyevin ölkənin regionlarına səfərlərini əks etdirən kitablardan ibarətdir.**



Təqdimat mərasimində çoxcildliyin müəllifi Vəsimə İsmayılqızı yaradıcılıq prosesi barədə məlumat verib. Kitabın redaktoru İsmayıl Umudlu, “Azərnəşr” nəşriyyatının direktoru Əlövsət Ağalarov, Azərbaycan Yazıçılar Birliyinin Ədəbi Əlaqələr Mərkəzinin direktoru Əsəd Cahangir təqdim edilən çoxcildliyin Ümummilli lider Heydər Əliyevin xalqa xidmətə həsr olunmuş mənalı həyatını və zəngin irsini öyrənənlərə layiqli töhfə olduğunu söyləyiblər.

Bildirilib ki, “Heydər Əliyevin Vətən səfərləri” toplusunun I cildi onun rəhbərliyinin ilk dövrünü əhatə edir və 2023-cü ildə – “Heydər Əliyev İli”ndə işıq üzü görüb. II cild sonrakı illərə həsr edilib. Bu silsilədə Heydər Əliyevin bölgələrə səfərlərindən bəhs edən “Goranboyda izim qalıb”, “Beyləqandadır izim”, “Şuşada izim qalıb” kitabları da yer alıb.

“Qərbi Azərbaycan irsi” kitabının I cildinin təqdimatı keçirilib.

**Kitab Sərgisində “Qərbi Azərbaycan irsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli şəkildə dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar” kitabının I cildi də iştirakçılara təqdim edilib.**



Kitabın müəllifi, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, Ermənistan ərazisindən zorla çıxarılmış soydaşlarımızın beynəlxalq proseslər çərçivəsində təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri qayıtmaları, onların fundamental hüquqlarının bərpa və təmin olunması “Müxtəlif dövrlərdə həyata keçirilmiş deportasiya siyasəti nəticəsində soydaşlarımıza məxsus məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib. Bu isə beynəlxalq humanitar hüququn və insan hüquqlarının ciddi şəkildə pozulması deməkdir”.

Tədqiqatçı-alim Səbuhi Hüseynov vurğulayıb ki, seriyanın 5 hesabatdan ibarət olması nəzərdə tutulub: “I, II və III hesabatlarda Ermənistan dövləti tərəfindən məqsədli şəkildə dağıdılmış qəbiristanlıqlar, IV hesabatda məscidlər, V hesabatda isə pirlər və türbələr əksini tapacaq”.

Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, professor İbrahim Bayramov və Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının sədr müavini, professor Fərrux Rüstəmov nəşrin mövzusunun aktuallığından və əhəmiyyətindən söhbət açıblar.

**Beynəlxalq Kitab Sərgisi çərçivəsində Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, Litva Yazıçılar Birliyi və Litva Ədəbi Tərcüməçilər İttifaqının üzvü, ədəbiyyatşünas, publisist və tərcüməçi, litvalı yazıçı Balis Sruoqinin “Tanrılar meşəsi” romanını Azərbaycan dilinə tərcümə edən Mahir Həmzəyevlə görüş keçirilib.**




Litva Respublikasının Azərbaycan Respublikasındakı səfiri Kestutis Vaşkeleviçus Azərbaycanla dostluğun möhkəmlənməsində ədəbi-mədəni layihələrin əhəmiyyətini qeyd edib, “Tanrılar meşəsi” romanının Azərbaycan dilində nəşrinin vacibliyini vurğulayıb. Mahir Həmzəyev əsərin bədii dəyəri, tarixi, milli, mədəni, sosial, geosiyasi əhəmiyyəti barədə fikirlərini bölüşüb. O qeyd edib ki, Sruoqinin romanı təkcə bəşər tarixinin faciəvi səhifəsinin təzahürü deyil, həm də keçmişin xatirəsini diqqətlə qorumaq zərurətini yada salan mühüm xatırlatmadır.

Balis Sruoqanın “Tanrılar meşəsi” romanını Azərbaycan dilinə tərcümə edən Mahir Həmzəyev təkcə tərcüməçi deyil, həm də xüsusi redaktor, tərtibçi, şərhlərin, izahlı qeydlərin və ön sözün müəllifi kimi fəaliyyət göstərib. Müəllif Sruoqa isə 1943-1945-ci illərdə Almaniyanın Ştutthof ölüm düşərgəsində dustaq olub və orada dəhşətli sınaqlara məruz qalıb.

**Sərgidə Milli Aviasiya Akademiyasının Kitabxana-informasiya şöbəsinin təşkilatçılığı ilə “Səmanın sərhədində insan və texnologiya” mövzusunda təqdimat keçirilib.**




Mərasimdə şöbə müdiri Günel Şıxəliyeva kitabxananın fəaliyyət istiqamətləri, yeni nəşrlər, elektron və çap məhsulları barədə ətraflı məlumat verib. Professor Kamal Əsgərov aviasiya və aerokosmik sahələrdə əldə olunan nailiyyətlərdən söz açaraq insan-texnologiya əməkdaşlığının yeni perspektivlər yaratdığını vurğulayıb. O, “Tətbiqi optoelektronika” dərs vəsaiti və “Ümumi metrologiya və kalibrləmə nəzəriyyəsi” monoqrafiyasını sərgi ziyarətçilərinə təqdim edib. K.Əsgərov Azərbaycanda optoelektronika sahəsində aparılan elmi-tədqiqat işləri, gecəgörmə cihazları, termal müşahidə qurğuları və lazer məsafə ölçənlərin yaradılması barədə geniş məlumat verib.

MAA-nın tələbələrinin hazırladığı layihələr təqdim olunub. Bədii hissədə tələbələr Azərbaycan klassik ədəbiyyatından qəzəl və musiqi nümunələri səsləndiriblər.

***Hazırladı:***
***T.AYDINOĞLU***
***XQ***

BMT tribunasından qlobal mesaj

# Xəzərin quruması qorxunc təhlükəyə çevrilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının sonuncu, 80-ci sessiyasında uca tribunadan çıxışı zamanı qlobal məsələlər sırasında Xəzər probleminə də toxundu. Dövlət başçımız gözlənilməz nəticələri ola bilən ekoloji fəlakətin qarşısını almaq üçün problemin həlli istiqamətində Azərbaycanın digər sahilyanı dövlətlərlə, həmçinin BMT ilə sıx əməkdaşlığa hazır olduğunu bildirdi.**

Məlum olduğu kimi, dünya okeanlarına çıxışı olmayan endoreik (yəni axarsız hövzələrdə yerləşən) göllərdə suyun səviyyəsi əsasən oraya axan çaylar, yağıntılar və buxarlanma arasındakı balansla tənzimlənir. Son onilliklər ərzində insan fəaliyyəti və çay axarlarının azalması su hövzələrində də səviyyənin nəzərəçarpacaq dərəcədə enməsinə gətirib çıxarmışdır. Bu proses həm ətraf mühitin, həm də insanların sağlamlığı üçün çoxşaxəli fəsadlara yol açır.



Unikal ekosistemə və mühüm iqtisadi əhəmiyyətə malik Xəzər dənizi belə su hövzələrindən biridir. Dünyanın ən böyük qapalı gölü olan Xəzərdə suyun səviyyəsinin enməsi artıq bütün region üçün ciddi narahatlıq doğurur ki, cənab Prezident də məhz bunu BMT tribunasından səsləndirməyi zəruri saymışdır. Suyun səviyyəsinin azalmasının müxtəlif səbəbləri var ki, onlardan ən təsirlisi Xəzərə tökülən çaylardan, xüsusilə Rusiya ərazisindən keçərək gələn Volqa çayından daxil olan su həcminin hiss ediləcək dərəcədə azalmasıdır.

Qeyd edək ki, müasir dövrdə sənayenin inkişafı və müxtəlif antropogen (insan amili) faktorların neqativ təsiri ilə ətraf mühitin çirklənməsi iqlimdə gedən dəyişiklikləri də sürətləndirir. Atmosferdə $CO_2$-nin və digər texnogen qazların artması təhlükə yaradır. Eyni zamanda toz, tüstü və hislə çirklənmiş hava da "istixana effekti"ni gücləndirməklə iqlimin dəyişməsinə səbəb olur.

Yaşadığımız canlı aləmin mövcudluğunu şərtləndirən əsas həyat resurslarının məhz iqlim şəraiti - hava, su və torpaq olduğunu nəzərə aldıqda, problemin ciddiliyi daha aydın görünür. Çirklənmiş hava müxtəlif yoluxucu xəstəliklərə, hətta ölüm hallarına; çirklənmiş su balıqların və digər su canlılarının məhvinə; çirklənmiş torpaq isə qida məhsullarının yetişdirilməsində çətinliklərə səbəb olur. Nəticə etibarilə ətraf mühitin çirklənməsi qlobal miqyasda çox ciddi, kompleks problemlər yaradır.

İqlim dəyişiklikləri, ekoloji tarazlığın pozulması, çirklənmiş hava mühiti insanların sağlamlığına birbaşa mənfi təsir göstərir. Belə hallar istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan bütün ölkələr üçün qlobal təhlükədir. Bu konteksdən yanaşdıqda Xəzər dənizinin suyunun azalması həm də iqlim dəyişikliklərinə səbəb olur ki, bu da ekoloji təhlükə barədə ciddi tədbir görülməsini zəruri edir.

Təbiətdə hər şey bir-biri ilə sıx və məntiqi ardıcıllıqla bağlıdır. O cümlədən planetin su hövzələri - dənizlər, göllər, çaylar da ətraf mühitin mikroiqlimini tənzimləmək, iqlimin stabil qalmasına xidmət etmək baxımından vacibdir. Suyun azalması bu funksiyaları zəiflədərək, quraqlıq və ekstremal hava hadisələrinin artmasına şərait yaradır. İqlimin daha quru və dəyişkən hala gəlməsi meteohəssas insanlar üçün narahatlıq doğurur, xroniki xəstəliklərin gedişatını ağırlaşdırır. Xüsusi vurğulayaq ki, yaranmış qeyri-sağlam mühitdə "risk qrupu"na aid olan yaşlı insanlar və uşaqlar daha tez və daha çox təsirə məruz qalırlar.

Suyun səviyyəsinin azalması, həmçinin torpaq örtüyünün deqradasiyasına səbəb olur. Duzlu torpaqların yaranması kənd təsərrüfatına mənfi təsir göstərir. Suyun dibindəki duz və minerallar quru səthinə çıxaraq, geniş ərazilərə yayılır və torpaqları şoranlaşdırır. Bu isə kənd təsərrüfatında məhsuldarlığın azalmasına, əhalinin qida təminatında çətinliklərə və qidalanma pozğunluqlarına gətirib çıxarır.

Digər tərəfdən, suyun azalması sənaye tullantılarının və digər çirkləndiricilərin konsentrasiyasını artıraraq suyun keyfiyyətini daha da pisləşdirir. Quruya çıxan çöküntülərin küləklə yayılması ilə havanın tərkibinə çirkləndirici təsiri tənəffüs yolları xəstəliklərinin - astma, bronxit, allergiyaların və digər səhhət pozğunluqları hallarının artmasına şərait yaradır.

Xəzər dənizi biomüxtəliflik baxımından zəngin olmaqla, həm flora, həm də fauna üçün mühüm yaşayış mühitini təmin edir. Suyun səviyyəsinin azalması nəticəsində sahilboyu ekosistemlər zərər görür, bəzi balıq növləri, xüsusilə nərə balığı tükənmə təhlükəsi ilə üzləşir. Bu isə balıqçılıq sənayesinin zəifləməsinə, bölgə əhalisinin qida mənbələrinin məhdudlaşmasına gətirib çıxarır. Bir sıra xəstəliklər zamanı pəhriz qidası olaraq balıqdan istifadənin məhdudlaşması və beləliklə müalicəvi pəhriz rejiminin pozulmasına səbəb olur.

Bütün bunlarla yanaşı, xatırladaq ki, insanların belə bir vəziyyətlə üzləşməsi həm də sosial və psixoloji problemlərin yaranmasına səbəb ola bilir.

Fikrimizi yekunlaşdıraraq, nəticə etibarilə qeyd edək ki, Xəzər dənizinin səviyyəsinin azalması kompleks fəsadlara yol açan amil kimi dəyərləndirilməlidir. Bu, təkcə coğrafi dəyişiklik hadisəsi deyil, həm də insan həyatı üçün ekoloji, sosial-iqtisadi və sağlamlıq böhranına səbəb olan çox ciddi problemdir. Ən əsası insanların sağlamlığının qorunması, ekoloji tarazlığın pozulmasının qarşısının alınması üçün həm regional, həm də beynəlxalq səviyyədə təcili tədbirlərin görülməsi zəruridir.

***Fəridə ƏLİ,***
***ATU-nun kafedra müdiri,***
***tibb üzrə fəlsəfə doktoru, dosent***



# Uzaq Mərakeşlə yaxın elmi əlaqələr

**Dünən XI Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində AMEA-nın bir sıra elmi müəssisələrinin Mərakeş Krallığının Milli Kitabxanası ilə əməkdaşlıq memorandumunun imzalanma mərasimi keçirilib.**

Mərasimi Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov açaraq bu gün imzalanacaq əməkdaşlıq memorandumunun kitabxananın oxucuları, xüsusilə alimlərimizin, şərqşünaslarımızın gələcək tədqiqatları üçün geniş imkanlar təqdim edəcəyini bildirib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxışında XI Bakı Beynəlxalq Kitab Sərgisinin ölkəmizin elmi müəssisələrinin beynəlxalq əlaqələrinin genişlənməsi işinə öz töhfəsini verdiyini söyləyib. Qeyd olunub ki, zəngin kitab fonduna malik Mərakeş Krallığının Milli Kitabxanası ilə əməkdaşlıq ölkəmizin kitabxanalarının gələcək fəaliyyəti üçün yeni səhifə açacaq. Həmçinin bildirib ki, bu əməkdaşlıq xüsusilə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılan tarixi əlyazma nüsxələrinin oxunması və beynəlxalq müstəvidə tanıdılmasında mühüm rol oynayacaq.

Mərasimdə çıxış edən Mərakeş Krallığının Milli Kitabxanasının direktoru Samirə Əl Malizi hər kəsi salamlayaraq əməkdaşlıq memorandumunun imzalanmasına verdikləri dəstəyə görə, akademik İsa Həbibbəyliyə, professor Kərim Tahirova və Mərakeş Krallığının ölkəmizdəki səfiri Məhəmməd Adil Embarşa minnətdarlığını bildirib.

Sonra əməkdaşlıq memorandumları imzalanıb. Əvvəlcə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Azərbaycan Milli Kitabxanası və Mərakeş Krallığının Milli Kitabxanası arasında üçtərəfli əməkdaşlıq memorandumu imzalanıb.

Daha sonra AMEA-nın Mərkəzi Elmi Kitabxanası ilə Mərakeş Krallığının Milli Kitabxanası arasında əməkdaşlıq memorandumu imzalanıb.

Qeyd olunan sənədlər qurumlar arasında qarşılıqlı əlaqələrin genişlənməsinə, kitab və informasiya mübadiləsinə zəmin yaradacaq.

***Q.ƏLİYEV***
***XQ***

Sosial dəstək

# Ünvanlı yardım ünvanına necə çatır?

**Ünvanlı sosial yardım proqramı ölkəmizdə aztəminatlı ailələrin sosial müdafiəsini gücləndirmək məqsədilə icra olunur. Yardımın təyin olunması prosesi ailələrin gəlir və xərclərinin detallı şəkildə araşdırılmasına əsaslanır ki, dövlət dəstəyi həqiqətən yardıma ehtiyacı olanlara yönəlsin.**




Yardımın məbləği isə ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvünə müəyyən edilmiş ehtiyac meyarının məcmusu arasındakı fərq əsasında hesablanır. Hazırda ölkəmizdə ehtiyac meyarının həddi 285 manat məbləğindədir. Cari ilin əvvəlində təxminən 76 min aztəminatlı ailənin 335 minədək üzvü ünvanlı sosial yardım alıb. Statistikaya görə, bir nəfərə düşən orta aylıq ünvanlı sosial yardımın məbləği 107,52 manat olub. Sosial yardım alan vətəndaşların sayına görə Lənkəran-Astara iqtisadi rayonları birinci yerdədir. Burada 55 min 651 nəfərə sosial yardım verilir. Paytaxtımızda isə ünvanlı sosial yardım alan vətəndaşların sayı 43 min 559 nəfərdir.

Bu sistem yalnız konkret normativ şərtlər daxilində fəaliyyət göstərir. Tələbin pozulması yardımın ləğvi ilə nəticələnə bilər. Belə yanaşma həm sosial ədalət prinsipinin qorunmasına, həm də dövlət büdcəsi vəsaitlərinin hədəfli və səmərəli istifadəsinə xidmət edir. Buna görə də yardımın hansı hallarda dayandırıldığını anlamaq vətəndaşların hüquqi maariflənməsi, həm də sosial siyasətin şəffaflığının təmin olunması baxımından əhəmiyyətlidir.



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun departament rəhbəri Rasim Səfərov ünvanlı sosial yardımın təyini prosedurunun qanunvericilik çərçivəsində həyata keçirildiyini bildirdi:**

– Ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün 81-100 faiz əlilliyi müəyyən edilmiş şəxsə, əlilliyi olan uşağa və ya 8 yaşına çatmamış uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması, ailə üzvünün vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab olunması, azadlıqdan məhrum edilmə səbəbindən ailənin orta aylıq gəliri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olması ünvanlı sosial yardım almaq hüququ yaradır. Sosial yardım müraciət edilən ayın ilk günündən başlayaraq bir il müddətinə təyin edilir.



**Fondun Mərkəzi filialının direktoru Nicat İsmayılov ünvanlı sosial yardım üçün elektron qaydada müraciət və baxılma prosesindən bəhs etdi:**

– Vətəndaş ünvanlı yardım hüququnun olub-olmadığını müəyyən etmək üçün yaşadığı ərazi üzrə rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərindən ailə tərkibi haqqında arayış əldə edir. Daha sonra notarial qaydada təmsilçi seçilir və həmin təmsilçi elektron qaydada "Ünvanlı yardım" altsisteminə, yəni vahid elektron müraciət-təyinat alt sisteminə, qısa formada isə VEMTAS-a müraciət edir. VEMTAS vətəndaşın və ailə üzvlərinin məlumatlarını aidiyyəti dövlət qurumlarının məlumat bazaları ilə uzlaşdıraraq yoxlayır. Həmin qurumlardan elektron qaydada ailə üzvləri barədə məlumatlar toplanır və sistem vasitəsilə müraciətə baxılır. Əgər elektron sistem üzərindən hər hansı uyğunsuzluq aşkar olunmursa, növbəti mərhələyə – maddi-məişət şəraitinin yerində araşdırılması mərhələsinə keçilir. Məsələn, ailə tərkibi, təsərrüfatla bağlı məlumatlar və ya sistemin aşkar edə bilmədiyi digər detallar yerində yoxlanılır. Nəticədə, əgər hər hansı uyğunsuzluq aşkarlanmazsa, ailəyə yardım təyini barədə qərar çıxarılır. Uyğunsuzluq aşkar edilirsə, bu barədə vətəndaşın həm şəxsi kabinetinə, həm də SMS vasitəsilə məlumat göndərilir ki, həmin uyğunsuzluğu aradan qaldırıb yenidən müraciət edə bilsin.

Qanunvericiliyə görə, ailənin adambaşına düşən kommunal xərcləri yaşayış minimumunun 15 faizindən aşağı olmalıdır. Bəzən yerində araşdırma zamanı bəyan olunmamış abonent kodları aşkarlanır. Məsələn, ailənin təsərrüfatında iri və ya xırdabuynuzlu heyvanlar var, amma bəyan edilməyib. Bunlar yalnız yerində müayinədən sonra müəyyən oluna bilər, sistem üzərindən aşkarlanması mümkün deyil.

***– Bəs hansı hallarda yardım ləğv olunur?***

– İmtina səbəbləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları" ilə tənzimlənir. "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, ailə müraciət zamanı tərkibi, əmlakı və gəliri barədə tam və düzgün məlumat təqdim etməlidir. Təyinatdan sonra isə gəlirlərində dəyişiklik baş verərsə, 15 iş günü ərzində məlumat verməlidir. Rəsmi əmək müqaviləsi əsasında əməkhaqqı üzrə gəlirlərdə dəyişiklik baş verərsə, bu məlumat sistemdən avtomatik əldə olunur. Lakin ailə tərkibində dəyişiklik olarsa, məsələn, yeni ailə üzvü olarsa, bu barədə 15 iş günü ərzində məlumat verməlidirlər. Maddi-məişət şəraitinin monitorinqləri nəticəsində qeyd edilən hallar, o cümlədən əmlak barədə məlumatın gizlədildiyi aşkarlanarsa, yardım dayandırılır.

***– Ucqar kəndlərdə yaşayan, elektron müraciət sistemindən istifadədə çətinlik çəkən vətəndaşlar sosial yardım almaq üçün necə müraciət edə bilərlər?***

– Dövlət Sosial Müdafiə Fondu mütəmadi olaraq rayonlarda vətəndaş qəbulları təşkil edir. Demək olar ki, ay ərzində bir neçə dəfə keçirilən qəbuldan sonra təşkil olunan ictimai dinləmələrdə maarifləndirmə işləri aparılır. Bundan başqa, Bakı şəhərində və Qarabağ bölgəsində DOST mərkəzləri fəaliyyət göstərir. Həmin mərkəzlərdə vətəndaşlara könüllülər tərəfindən elektron müraciət üçün kömək göstərilir. Fondun yerli şöbələrinə də yaxınlaşıb məsləhət ala və müraciət edə bilərlər. 70 yaşdan yuxarı vətəndaşın heç kimi yoxdursa və qəbul günlərində gələ bilmirsə, əməkdaşlar onun ünvanına gedir, izah verir və yardımçı olurlar.

Qanunvericilik tələb edir ki, hər kəs məlumatlarını düzgün bəyan etsin. Əks halda, sistem bunu aşkarlayır və yardım dayandırılır. Yəni bu, bir növ sosial müqavilədir: dövlət dəstək verir, vətəndaşdan isə şəffaflıq tələb olunur. Mexanizm işlədikdə, həm yardımı alan razı qalır, həm də ictimai ədalət prinsipi qorunur.

***Fidan ƏLİYEVA***
***XQ***

Xuntaçıların məhkəməsi

# Qətllər, zorakılıqlar, dinc əhaliyə raket hücumları araşdırılıb

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 2-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında zərərçəkmiş İlham Məmmədov ifadə verib. O, 2002-ci il mayın 10-da hərbi xidmətdə olarkən əsir götürülüb, Ermənistan silahlı qüvvələrinin hərbçiləri onu döyüb, işgəncələrə məruz qoyub. Onu döyən zabitlərdən biri xüsusi qəddarlıq nümayiş etdirib. Zərərçəkmiş həmin zabitin adının Levon olduğunu deyib. Sonra onu məcburi olaraq minalı ərazilərdə gəzdiriblər. Sonra isə Ermənistana göndərilib. 6 ay 15 gün saxlanıldıqdan sonra Azərbaycana təhvil verilib. Təqsirləndirilən L.Mnatsakanyan 2002-ci ildə belə bir hadisənin baş verdiyini, yəni azərbaycanlı



hərbçinin əsir götürüldüyünü təsdiq edib.

Məhkəmə prosesində cinayət işləri üzrə aşağıdakı sənədlər elan edilib:

– Ermənistan silahlı qüvvələrinin atəşləri nəticəsində azərbaycanlıların öldürülməsi, yaralanması, o cümlədən mina təxribatları nəticəsində baş vermiş hadisələr;

– 2023-cü il sentyabrın 19-20-də Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən törədilmiş cinayət faktları;

– İşğaldan azad edilmiş ərazilərdə mülki şəxslərin mina və digər növ partlayıcı qurğuların partlaması nəticəsində həlak olması və ya xəsarətlər almasına dair hadisələr;

– Telejurnalist Mustafayev Çingiz Fuad oğlunun öldürülməsi faktı;

– 1992-ci il yanvarın 26-da Şuşa rayonunun Daşaltı kəndində aparılmış hərbi əməliyyat, 1992-ci il aprelin 23-də Qazax-Barxudarlı dəmir yolu xəttində TEM-2-7065 nömrəli teplovoza hücum edilməsi, 1991-ci il sentyabrın 9-da Barxudarlı dəmir yolu stansiyasının atəşə tutulması və digər faktlar;

– Vətən müharibəsi zamanı Tərtər rayonunun atəşə tutulması, "TərtərPambıq" ASC-yə xüsusilə külli miqdarda zərər vurulması, Vətən müharibəsi zamanı Füzuli, Beyləqan, Goranboy, Bərdə, Ağdam, Ağcabədi, Cəbrayıl rayonlarının (Cocuq Mərcanlı kəndinin – red.), Naftalan şəhərinin atəşə tutulması faktları;

– Vətən müharibəsi zamanı Yevlax rayonu və Goranboy rayonunun Goran kəndi istiqamətdə raket atılması, Mingəçevir şəhərinin atəşə tutulması, 2020-ci il oktyabrın 22-də Siyəzən, Kürdəmir və Qəbələ rayonları istiqamətlərində raketlər atılması faktları ilə bağlı sənədlər;

– Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdə törədilmiş dağıntılar, fərdi yaşayış evlərinə, qeyri-yaşayış obyektlərinə, mədəni irsə ziyan vurulması faktları;

– Laçın rayonunun meşə fonduna külli miqdarda ziyan vurulması, Laçın rayonu və digər ərazilərdə evlərin məhv edilməsi faktları ilə bağlı sənədlər;

– Əhalinin qanunsuz məskunlaşdırılması, Qarabağ ərazisinə silah qaçaqmalçılığının həyata keçirilməsi, fosfor mərmilərindən istifadə edilməsi faktları ilə bağlı sənədlər.

Sənədlərin tədqiqi cinayət işlərinə aid fotolarla müşayiət olunub.

Məhkəmə prosesi oktyabrın 3-də davam etdiriləcək.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 212 (30906) 3 oktyabr 2025-ci il, cümə

## İDMAN

### Olimpiya idmanı üzrə reytinq cədvəli

**Gənclər və İdman Nazirliyi (GİN) Olimpiya idman növləri üzrə milli komandaların idmançılarının 2025-ci il oktyabrın 1-nə olan reytinq cədvəlini açıqlayıb.**



GİN-in mətbuat xidmətindən bildiriblər ki, siyahının ilk üç pilləsində yunan-Roma güləşçiləri Ülvü Qənizadə və Həsrət Cəfərov, eləcə də sərbəst güləşçi Giorgi Meşvildişvili hərəyə 400 xalla liderliyi bölüşürlər.

İlk "onluq"da, həmçinin Osman Nurmaqomedov (sərbəst güləş, 340 xal), Zelim Tçkayev (cüdo, 330), Zelim Kotsoyev (cüdo, 320 xal), Eldəniz Əzizli (yunan-Roma güləşi, 320), Elcan Hacıyev (cüdo, 310), Murad Əhmədiyev (yunan-Roma güləşi, 250) və Arseni Cioyev (sərbəst güləş, 240) qərarlaşıblar.

### "Qarabağ" UEFA sıralamasında



**"Qarabağ" komandası Çempionlar Liqasının əsas mərhələsinin II turunda Bakıda Danimarkanın "Kopenhagen" klubuna qarşı keçirdiyi oyunda 2:0 hesabı ilə qalib gələrək UEFA reytinqində Azərbaycanın əmsalını artırıb.**

Qurban Qurbanovun baş məşqçisi olduğu "Köhlən atlar"ın kollektiv qələbə sayəsində ölkəmizin hesabına daha 0.500 əmsal yazdırıb. Azərbaycan hazırda 22.000 əmsalla 25-ci pillədə qərarlaşıb. 24-cü yerdə Serbiya (22.375), 26-cı sırada Slovakiyadır (21.375).

Qeyd edək ki, UEFA reytinqinə İngiltərə (97.116) millisi başçılıq edir.

### "Abşeron Lions" Avrokubokun qrup mərhələsində



**"Abşeron Lions" basketbol komandası tarixində ilk dəfə Avropa Kubokunun qrup mərhələsinə vəsiqə qazanıb. Avrokuboklarda debüt edən Azərbaycan təmsilçisi I təsnifat mərhələsinin cavab oyununda Kiprdə "Anortosis" klubunun qonağı olub.**

İlk matçda rəqibini 89:73 hesabı ilə üstələyən Bakı klubu cavab görüşündə uduzsa da (60:77), iki oyunun nəticəsinə əsasən, FIBA Avropa Kubokunun qrup mərhələsinə yüksəlib.

### 2 boksçumuz 1/4 finalda

**Çexiyanın Ostrava şəhərində 19 yaşadək boksçular arasında Avropa çempionatında Azərbaycan idmançıları 1/4 finala vəsiqə qazanıb.**




50 kiloqram çəki dərəcəsində Bilalhəbaşi Nəzərov Kurt Makintireni (İrlandiya) üzərində inamlı qələbə qazanıb – 5:0. Boksçumuz növbəti görüşündə ukraynalı Maksim Şlyakov ilə üz-üzə gələcək. Görüş sabah baş tutacaq.

55 kiloqram çəkidəki təmsilçimiz Zidan Hümbətov isə Türkiyə idmançısı Ahmet Yılmazdan güclü olub. O, rəqibini 5:0 hesabı ilə məğlub edərək 1/4 finala yüksəlib. Zidan oktyabrın 5-də italiyalı Saşa Menkaroni ilə döyüşəcək.

Qeyd edək ki, Avropa çempionatına oktyabrın 9-da yekun vurulacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

*✓ "Prime Cotton" MMC-nin Saatlı İFT filialına məxsus "New Holland TD95" markalı 54-K-307 nömrəli traktorun dövlət qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.*

*Ümumdünya Təbəssüm Günü*

# Yaxşılığa, xoş əhvala çağırış

**Hər il oktyabrın ilk cümə günü dünya bir az daha işıqlanır. Çünki bu tarixdə Ümumdünya Təbəssüm Günü qeyd olunur. Bu həftənin ilk cüməsi oktyabrın 3-nə təsadüf edir. Belə bir bayramın yaranması isə təsadüfi deyil.**



Dünyaya məşhur "smaylik"i – sarı fon üzərində sadə, amma universal təbəssümü bəxş edən amerikalı rəssam Harvi Beldir. 1963-cü ildə sığorta şirkətinin sifarişi ilə hazırlanan bu rəmz əvvəlcə ancaq işçilərə paylanan nişanlarda istifadə olunurdu. Amma çox keçmədən sarı gülən üz milyonlarla insanın sevimlisinə çevrildi, açıqcalardan tutmuş qısaqollu köynəklərədək, hətta ABŞ poçt markalarına qədər hər yerdə göründü. Sadə, amma təsirli bir işarə qlobal miqyasda ümidin, nikbinliyin və xoş münasibətin simvoluna çevrildi.

1999-cu ildən indiyədək ilk oktyabr cüməsi rəsmən Ümumdünya Təbəssüm Günü kimi qeyd olunur. Günün devizi də son dərəcə aydındır: "Yaxşılıq et. Heç olmasa bir insanın təbəssümünə səbəb ol".

Bu bayram təkcə xoş ovqat deyil, həm də ictimai çağırışdır. Dünyanın müxtəlif ölkələrində aksiyalar, rəsm müsabiqələri, sosial şəbəkə fləşmobları keçirilir. İnsanlar selfilərlə, təbəssümlərlə bir-birinə xoşbəxtlik ötürürlər. Çünki araşdırmalar da təsdiqləyir ki, gülümsəyən insanlar daha uzun ömür sürür, gənc görünür və ətrafında müsbət aura yaradırlar.

Təbəssüm həm də mədəniyyətin ayrılmaz hissəsidir. Onun haqqında mahnılar bəstələnir, filmlər çəkilir, məşhur sitatlar deyilir. Baron Münhauzenin dilindən səslənən məşhur ifadə hələ də aktuallığını qoruyur: "Ağıllı sima hələ ağıldan xəbər vermir. Dünyadakı ən böyük axmaqlıqlar məhz o ifadə ilə edilir. Gülümsəyin, cənablar!".

Gülümsəmək sadə görünə bilər, amma onun gücü ölçüyəgəlməzdir. Bir təbəssüm insanı ruhlandıra, günü işıqlandıra, bəzən isə həyatını dəyişdirə bilər. Bu günün əsas mesajı da budur: gülümsəyin – özünüz üçün, yaxınlarınız üçün, hətta tanımadığınız insanlar üçün. Çünki gülümsəmək ən sadə, amma ən təsirli xoşbəxtlik reseptidir.

***XQ***

## *III MDB Oyunlarının gündəliyi*

### Üzgüçülərimizin yeni qızılı və gümüşü



**Azərbaycan III MDB Oyunlarında daha bir qızıl medal qazanıb.**

Gəncə şəhərində baş tutan üzgüçülük yarışlarında Süleyman İsmayılzadə 400 metr məsafəyə sərbəst üsulla üzmədə bütün rəqiblərini qabaqlayaraq birinci yerə çıxıb. Rusiya təmsilçiləri Aleksandr Filipets 2-ci, Boqdan Toropkin isə 3-cü yerə layiq görülüb. Digər təmsilçimiz Anastasiya Qnussina 1500 metr məsafəyə sərbəst üsulla üzmədə üçüncü nəticə göstərib. Rusiyalı Anastasiya Çernışova qızıl, onun həmyerlisi Valeriya Brazniçenko gümüş medal qazanıb.

Qadınların 400 metr məsafəyə qarışıq üzmə yarışında rusiyalı Anastasiya Çernışova qızıl, qazaxıstanlı Taisiya Korotkova gümüş, Belarusdan olan Kseniya Mastoviç bürünc mükafat əldə edib. Kişilərin 4x100 metr məsafəyə qarışıq estafet yarışında Rusiya yığması qızıl mükafat əldə edib. Qazaxıstan gümüş, Belarus kollektivi bürünc medala sahib çıxıb.

Qadınların 4x100 metr məsafəyə qarışıq estafet yarışında isə Rusiya millisi qızıl, Qazaxıstan gümüş, Özbəkistan bürünc mükafata sahib çıxıb.

Beləliklə, Azərbaycanda keçirilən III MDB Oyunlarında üzgüçülük yarışlarına yekun vurulub.

### Badmintonçularımız komanda yarışlarında 3-cü olublar



**Dünən Qəbələdə III MDB Oyunlarında badminton üzrə qarışıq komanda yarışının qalibi müəyyənləşib. Finalda Özbəkistan Rusiya ilə qarşılaşıb.**

Qəbələ Olimpiya Kompleksində baş tutan final görüşündə Özbəkistan Rusiya ilə qarşılaşıb. Daha təcrübəli Rusiya kollektivi qalib gəlib – 3:0.

Xatırladaq ki, ötən gün yarımfinalda uduzan Azərbaycan millisi bürünc medalla kifayətlənib.

Badminton yarışlarına oktyabrın 5-də yekun vurulacaq.

### Kamandan oxatanların mübarizəsi

**III MDB Oyunlarının Xankəndi şəhər stadionunda təşkil olunan kamandan oxatma yarışlarına start verilib. Dünən keçirilən kvalifikasiya mərhələsində qadın və kişi idmançılar fərdi mübarizədə qüvvələrini sınayıblar.**

Yüksək nəticə göstərən Nurlan Rəhimli və Fatimə Hüseynli birbaşa 1/8 final mərhələsinə yüksəliblər. Bununla yanaşı, Sümeyyə Bədəlli, Nilufər Ağaməmmədli və Sərdar Vəliyev şəxsi qarşılaşmalarda qalib gələrək 1/8 finalda mübarizə aparmaq hüququ qazanıblar. Digər iştirakçımız Zahid Kazımzadə isə fərdi yarışlarda 1/16 final mərhələsində mübarizəni dayandırıb.

### Daha 2 komanda yarımfinalda

**Dünən III MDB Oyunlarında çövkən üzrə daha iki matç keçirilib. A qrupunda Qırğızıstan millisi Küveytlə qarşılaşıb. Şəki şəhər stadionunda keçirilən görüşdə Qırğızıstan komandası qalib gəlib – 2:0.**



Türkiyə və Qazaxıstan millisinin qarşılaşmasında isə 0:1 hesabı qeydə alınıb.

Bununla da Qazaxıstan və Qırğızıstan komandaları yarımfinala vəsiqə qazanıblar. Daha əvvəl Azərbaycan və Özbəkistan milliləri də yarımfinalda iştirak hüququ əldə ediblər.

Qeyd edək ki çövkən yarışına oktyabrın 7-də yekun vurulacaq.

### Qılıncoynadanlar mübarizəyə başlayıblar

**Rusiya Azərbaycanda keçirilən III MDB Oyunlarında daha bir qızıl medal qazanıb. Yaroslav Borisov qılıncoynatmanın sablya növündə birinci olub. O, finalda həmyerlisi Pyotr Tayçenaçevlə qarşılaşıb.**



Həlledici görüş Borisovun 15:8 hesablı qələbəsi ilə yekunlaşıb.

Qılıncoynatmanın sablya növü üzrə kişilərdən ibarət Azərbaycan millisinin üzvləri ilk günündə medal qazana bilməyiblər. Təmsilçilərimiz dünən mükafat qazanmaq şanslarını itiriblər.

Əli İsmayılov, Nəcəf Şabanlı, Ayxan İslamzadə, Abdulmalik Nəsibzadə, Nail Məmmədli 1/16, Rəsul Əliyev, Timur Hüsnəddinov 1/8, Abbas Səmədli isə 1/4 finalda məğlub olublar.

Qeyd edək ki, dünən start götürən qılıncoynatma yarışları oktyabrın 7-də bitəcək.

### Belarus gimnastları 1-ci oldular

**III MDB Oyunlarında batut gimnastikası üzrə oğlanların komanda yarışında Azərbaycan gümüş medal qazanıb. Şəkidə keçirilən yarışda Azərbaycan gimnastları 170.460 xal toplayaraq ikinci nəticə göstərib.**



Belarus (187.560) birinci, Rusiya isə (169.780) üçüncü olub.

Dünən batut gimnastikası üzrə qarışıq komanda yarışları başa çatıb.

Yarışın qalibi 169.350 xalla Belarus komandası olub. Rusiya komandası (167.750 xal) ikinci, Türkiyə gimnastları isə üçüncü (157.330 xal) olub.

120.860 xal toplayan Azərbaycan gimnastları isə mükafatçılar sırasına düşə bilməyib.

Batut gimnastikası yarışına oktyabrın 3-də yekun vurulacaq.

### 6 boksçumuz finalda

**Yevlax Olimpiya İdman Kompleksində III MDB Oyunları çərçivəsində boks yarışları davam edir. Azərbaycanın 6 boksçusu turnirin finalına yüksəlib.**

Təmsilçilərimizdən Aysel Fərəcova (46 kq) özbəkistanlı Ruxşonabonu Əhədovaya, 50 kiloqram çəki dərəcəsində Əminə Tağı belaruslu Arina Kmitaya, Cəmilə Muradlı (54 kq) qazaxıstanlı Adelaida Sadvakassovaya, Aynur İsmayılova (60 kq) tacikistanlı Furuğ Sarhaszodaya, Gülər Hüseynova (48 kq) Tacikistanın digər təmsilçisi Kumriniso İmomaliyevaya, Fidan Bakarova (63 kq) isə yarımfinalda rusiyalı Zlata Konovalovaya qalib gələrək finala vəsiqə qazanıblar.

Qeyd edək ki, qadın boksçular arasında final qarşılaşmaları oktyabrın 4-də keçiriləcək.

### Voleybol millimizdən uğursuz start

Azərbaycanın 17 yaşadək oğlanlardan ibarət voleybol komandası III MDB Oyunları çərçivəsində Özbəkistanla qarşılaşıb. Gəncə İdman Sarayında təşkil olunan görüş qonaqların qələbəsi ilə başa çatıb–3:0.

Digər qarşılaşmada isə Belarus Qırğızıstana qalib gəlib–3:1.

***Qabil YUSİFOĞLU***
***XQ***

## *HAVA*

# Yağmursuz bir payız günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 14-17, gündüz 19-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunundan 765 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi yerlərdə çiskin müşahidə ediləcəyi, arabir duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 13-16, gündüz 19-24, dağlarda gecə 4-8, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Apellyasiya Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Zəki Babayevə anası

**XƏDİCƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi psixologiya kafedrasının baş müəllimi Lalə xanıma anası

**SUQRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3515
SİFARİŞ 1947
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00